www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 8-10 noyabr 2014-cü il Şənbə № 275 (5984) Qiyməti 40 qəpik

**Xəbər**

## Bakıda nişanlı cütlük dəm qazından boğulub öldü

yazısı səh.14-də

**Gündəm**

### Namazov-Şahnazaryan anlaşmasının ilginc pərdəarxası



Qarabağ məsələsində öz vasitəçiliyinə etibarlı dinamizm vermək və Rusiyanın qəfil sürprizlərini ciloviamaq üçün Qərb öz taktikasını cilalayır; "xalq diplomatiyası" qayıdır və...

yazısı səh.8-də

### Milli Şuranın mitinqi ilə bağlı qeyri-müəyyənlik

yazısı səh.3-də

### Müxalifətdəki tarixçilər Qarabağ haqda kitab yazıbmı?

yazısı səh.4-də

### Azərbaycanlı deputatın Rusiyada meyiti tapıldı

yazısı səh.2-də

### Leyla Yunusun vəkilsiz qalmasına etiraz gəldi

yazısı səh.5-də

### Erməni generalın 4 il əsir saxladığı azərbaycanlı yeniyetmə kimdir?

yazısı səh.11-də

### Əli Nağıyev-Rəsul Quliyev konfliktinə ilginc reaksiya

yazısı səh.4-də

### Milli komandada baş məşqçi müəmması: Mançinini gözləməyin...

yazısı səh.13-də

### Avropa ilə Bakı arasında gərginlik səngimir

yazısı səh.5-də

### "Sevil massivi"nin qurbanları noyabrın 14-də aksiya keçirəcəklər

yazısı səh.13-də

### Tıxacı yaradan səbəblər və çıxış yolları...

yazısı səh.15-də

### Müsavatçılar Xaçmazda polisə aparıldı

yazısı səh.6-da

## Xətaidəki "yaşıl soyqırım"la bağlı yeni sensasion məlumatlar

# HACIBALA ABUTALIBOVUN GİZLİ SƏRƏNCAMI ÜZƏ ÇIXDI

4 milyon yarıma satıldığı deyilən 60 sot ərazidə ağacların qırılıb yerində yaşayış kompleksi tikilməsinə Bakının icra başçısı razılıq veribmiş; özəl mənbələrdən "Yeni Müsavat"a Abutalıbovun imzası və möhürü olan sənəd daxil olub...




yazısı səh.12-də

## Parlamentin "lal və kar" obrazı dəyişəcək

İqtidar 2015-ci il qərarı üçün Rusiya-Qərb münaqişəsinin, Ukrayna böhranının, Bakıda da tərəfdarları olan "İslam Dövləti" ilə mübarizə kimi qlobal məsələlərin necə həll olunacağını gözləyir; Milli Məclisdə mümkün "təmizləmənin" iki əsas səbəbi var....

yazısı səh.6-da



*"Novella Cəfəroğlu:*

### "Onların davası hakimiyyətlə işləmək davasıdır"

yazısı səh.10-da



*Mirvari Qəhrəmanlı:*

### "Bu, Azərbaycana qarşı sanksiya qərarıdır"

yazısı səh.9-da



*Zahid Oruc:*

### "Əgər NATO ölkələri Gürcüstanı da Ukrayna kimi müdafiə edəcəksə, vəziyyət yaxşı olmayacaq"

yazısı səh.12-də

## Prezident Gədəbəydə yol tikintisinə 5,9 milyon manat ayırdı



**Azərbaycan prezidenti İlham Əliyev Gədəbəy rayonunun Gədəbəy-Novosaratovka-Qaravəlilər avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

APA-nın məlumatına görə, sərəncama əsasən, 59 min nəfər əhalinin yaşadığı 87 yaşayış məntəqəsini birləşdirən Gədəbəy-Novosaratovka-Qaravəlilər avtomobil yolunun tikintisinin davam etdirilməsi üçün Gədəbəy Rayon İcra Hakimiyyətinə 5,9 milyon manat ayrılıb.

Maliyyə Nazirliyinə müvafiq məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.

## "Prezidentlərin Parisdə baş tutan dialoqunu inkişaf etdirmək çox vacibdir"

**"Prezidentlərin görüşləri Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli prosesinə kömək edir və bu görüşləri davam etdirmək lazımdır".**

Bunu APA-ya açıqlamasında Dağlıq Qarabağ münaqişəsinin həllində vasitəçiliyi üzərinə götürmüş ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik deyib.

"ABŞ adından deyə bilərəm ki, biz Azərbaycan və Ermənistan prezidentlərinin bu görüşləri mütəmadi şəkildə davam etdirmələrini gözləyirik. Onların görüşləri münaqişənin danışıqlar yolu ilə həlli prosesinə kömək edir. Biz həmçinin gələn ay ATƏT-in Bazeldəki nazirlər görüşü çərçivəsində tərəflərin XİN başçıları ilə bir araya gələcək, bu səviyyədə də görüşləri davam etdirəcəyik. Paris sammitində baş tutan dialoqu inkişaf etdirmək çox vacibdir", - deyə C. Uorlik qeyd edib.

## Fransada "erməni soyqrımı"nı inkar edənlərin cəzalandırılması yenidən gündəmdə

**Fransada bir qrup deputat uydurma "erməni soyrıqımı"nın 100-cü ildönümü öncəsi "Soyqırımları inkar edənlərin cəzalandırılması haqqında" qanun layihəsini yenidən gündəmə gətirib. APA-nın NTV-yə istinadən verdiyi məlumata görə, Xalq Hərəkatı Birliyinin (UMP) Marseldən olan millət vəkili Valeri Buaye (Valerie Boyer) başda olmaqla, 23 deputat "erməni soyqırımı"nı inkar edənlərə cəza verilməsini nəzərdə tutan qanun layihəsini parlamentə təqdim edib. Layihədə "soyqırım"ı inkar edənlərə 5 il həbs cəzası verilməsi və 45 min avro cərimə kəsilməsi təklif olunur.**

bakcell

## «Bakcell» uşaqların sosial reabilitasiyasına dəstək göstərir

**Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi «Bakcell» şirkəti Azərbaycana Birgə Yardım (UAFA) təşkilatı ilə birlikdə yeni layihəyə başlayıb. Layihə çərçivəsində əlilliyi olan uşaqların sosial ünsiyyət bacarıqlarının artırılması ilə yanaşı, onlara sosial reabilitasiya xidmətləri də göstəriləcək. Bu, "Bakcell"in UAFA ilə birgə son 4 il ərzində həyata keçirildiyi uğurlu layihələrin davamıdır.**

**UAFA-nın yerli mərkəzləri tərəfindən (Bakının Yasamal rayonu, Xaçmaz rayonu, Gəncə şəhəri) uşaqlar üçün təşkil olunan tədbirlər onların ehtiyac və maraqlarına əsaslanır. Bu tədbirlərə teatr, rəqs, rəssamlıq, rəqs, foto, kompüter və idman kursları daxildir. Kurslar uşaq inkişafı üzrə peşəkar mütəxəssislər tərəfindən aparılacaq, bəzi hallarda dərslərin keçirilməsində valideynlər də könüllü kimi iştirak edəcəklər.**

**Layihə ümumilikdə 250-dən çox uşağı əhatə edəcək.**

**«Bakcell» və UAFA arasında əməkdaşlıq 2010-cu ildən başlayıb. Bu illər ərzində qayğıya ehtiyacı olan yüzlərlə uşaq və yeniyetmə idman, rəqs, dram, incəsənət, kompüter, fotoqrafiya dərnəkləri vasitəsilə onların həyatında önəmli dəyişikliklər yaradacaq müxtəlif bacarıqlara yiyələniblər.**

**Artıq onlar vaxtlarının əksər hissəsini evdə, cəmiyyətdən təcrid olunaraq deyil, müxtəlif tədbirlərdə və gəzintilərdə, təlimlərdə keçirirlər. İndi onlar şəhər və rayon əhəmiyyətli bütün tədbirlərə dəvət alırlar, müsabiqə və çempionatlarda iştirak edirlər. Ötən 4 il ərzində «Bakcell» və UAFA-nın birgə layihəsi çərçivəsində reabilitasiya xidmətlərindən bəhrələnən Nurlan və Əli Babacanovlar pauerliftinq üzrə şəhər, ölkə, Avropa çempionları adlarını qazanıblar və hədəfləri paraolimpiya çempionu olmaqdır.**

**Müxtəlif dərnəklər kimi reabilitasiya xidmətləri də İcma Əsaslı Reabilitasiya (İƏR) Proqramının bir komponentidir və əlilliyi olan uşaqlar və onların ailələri üçün imkanların artırılmasında icmanı səfərbər edir.**

**UAFA mərkəzlərində göstərilən İƏR xidmətləri funksional bacarıqların bərpa edilməsinə yönəlib. Uşaqlarda inkişaf geriliyini vaxtında aradan qaldırmaqda məqsəd əlilliyin daha ağır formaya keçməsinə əngəl olmaqdır.**

**"Bakcell stars" Korporativ Məsuliyyət Proqramı qayğıya ehtiyacı olan uşaqlar üçün bütün imkanların yaradılması məqsədilə səylərini davam etdirir.**

# Deputatlar hökumətə şikayətləndi

**Elmira Axundova:** "Körpəyə qulluq üçün verilən müavinət çox azdır və azı 60 manata çatdırılmalıdır"



**Noyabrın 7-də Milli Məclisin Sosial siyasət komitəsində 2015-ci ilin dövlət büdcə layihəsinin müzakirəsi davam etdirilib. Dövlət Sosial Müdafiə Fondunun (DSMF) sədri Elman Mehdiyev deyib ki, 2015-ci il üçün qurumun həm xərcləri, həm də gəlirləri 3 milyard 56 milyon təşkil edəcək.**

"Bu, 2014-cü illə müqayisədə 4, 4 faiz çoxdur"-deyən DSMF sədri bildirib ki, gələn il üçün dövlət büdcəsindən fonda transfer 1 milyard 100 milyon manat nəzərdə tutulub ki, bu da 2014-cü illə müqayisədə 42 milyon manat azdır.

"Ehtiyac meyarı ilə bağlı mütləq dayaq nöqtəsi yoxdur". Bunu Sosial siyasət komitəsinin sədri Hadı Rəcəbli deyib. O 2008-ci ildə yaşayış minimumunun 70 manat olduğunu xatırladıb. Deputatın sözlərinə görə, yaşayış minimumu 2015-ci il üçün 131 manat nəzərdə tutulub.

Tibb Universitetinin rektoru, deputat Əhliman Əmiraslanov yollayışların bölüşdürülməsindən şikayətlənib. O bildirib ki, sanatoriya-kurort sahəsinə ayrılan vəsaitin artırılması ilə yanaşı, həm də bu vəsaitin xərclənməsinə nəzarəti gücləndirmək lazımdır.

"Yaş yarıma qədər körpəyə qulluq üçün ayda 30 manat, bundan sonrakı müddətdə 3 yaşına qədər uşağa qulluq etmək üçün anaya ayda 15 manat verilir. Bu rəqəmlər çox azdır və azı 60 manata çatdırılmalıdır". Bunu isə deputat **Elmira Axundova** deyib. Onun fikrincə, bu məbləğ qonşu dövlətlər, xüsusilə də Rusiya və Qazaxıstana nisbətən azdır: "Digər tərəfdən, prezident sərəncamına əsasən Azərbaycanda uşaqlar üçün yaşayış minimumu 103 manatdır. Belə olan təqdirdə, uşaqlara qulluq üçün nəzərdə tutulan məbləğ niyə 15-30 manat həddində olmalıdır?". E.Axundova doğuş üçün anaya verilən birdəfəlik müavinətin məbləğinin 90 manatdan 100 manata qaldırılmasını da təklif edib.

**Sosial siyasət komitəsinin sədr müavini Musa Quliyev isə DSMF sədrinin POS terminallarla bağlı irəli sürdüyü təklifə etiraz edib:** "POS terminallar özünü doğrultmayacaq. Pensiyaçıların əksəriyyəti daha ucuz mağazalarda nağd pulla mal almağa üstünlük verirlər. Onların əksəriyyəti bahalı marketlərdən alver etmirlər. Ona görə alternativ variantlar üzərində düşünmək lazımdır".

H.Rəcəbli 2015-ci ilin dövlət büdcə zərfinin müzakirəsi zamanı uşaqların sağlamlığının qorunmasının vacib olduğunu bildirib. Onun fikrincə, bu məqsədlə büdcədə 318 min manatın nəzərdə tutulması olduqca azdır.

❑ **ELŞAD**

## Azərbaycanlı deputatın Rusiyada meyiti tapıldı

**Oktyabrın 1-də separatçılar tərəfindən girov götürülən, əslən Bakı şəhərindən olan Ukrayna vətəndaşı, Luqansk vilayəti Şurasının keçmiş deputatı, iş adamı Azad Vəliyevin ötən gecə Krasnodar şəhərində meyiti tapılıb.**

Publika.az-ın Azərbaycanın Ukraynadakı səfirliyindən əldə etdiyi məlumata görə, Azad Vəliyevin meyiti tanınmaz halda olub.

## "Neftin qiymətinin düşməsi arzuolunmaz ssenaridir"

**Samir Şərifovun neftin qiyməti ilə bağlı "hökumətin müxtəlif ssenariləri var" fikirləri ekspertlər tərəfindən birmənalı qarşılanmır. Ekspert Nazim Məmmədov maliyyə nazirinin bu fikirlərinin reallıqla ayaqlaşmayacağını bildirir. O, sosial şəbəkə vasitəsilə bununla bağlı fikirlərini bölüşüb.**

"Neftin qiymətinin düşməsi iqtisadiyyatı tam diversifikasiya olunmamış ölkələr üçün əlbəttə arzuolunmaz ssenaridir. Azərbaycan əslində dövlət büdcəsinin hətta cari xərclərinin 30 faizinə qədərini, təxminən 3 milyard manata qədər bir hissəsini Neft Fondundan olan transfertlər hesabına qarşılayır. Fikrimcə, hökumət müxtəlif ssenarilər dedikdə investisiya layihələrinin bir hissəsinin gələcəyə saxlanılması, eyni ilə Neft Fondundan proqnozlaşdırılandan daha çox vəsait almağı güman edir. Neftin ucuzlaşmasından narahat olmamaq olar, ancaq bir şərtlə ki, neftin maya dəyəri adekvat olaraq aşağı salınsın, yersiz xərcləmələrə gedilməsin, islahatlar aparılsın, monopoliya ləğv edilsin və iqtisadi fəallıq hesabına büdcə gəlirləri artırılsın. Bu məsələləri isə bir büdcə ilində etmək mümkün deyil",- deyə N.Məmmədov qeyd edib.

❑ **Musavat.com**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

Telefon: (012) 434 93 01, 434 01 33

## Girovlarla bağlı Avropa Məhkəməsinə müraciət ediləcək



**Azərbaycanın işğal altındakı torpaqlarında ermənilər tərəfindən girov götürülən Dilqəm Əsgərov və Şahbaz Quliyevlə bağlı Avropa İnsan Haqları Məhkəməsinə müraciət ediləcək. Modern.az saytının verdiyi məlumata görə, bu barədə Azərbaycanın Avropa İnsan Haqları Məhkəməsindəki nümayəndəsi Çingiz Əsgərov bildirib .**

O, qeyd edib ki, girov saxlanılan soydaşlarımızla bağlı lazımi sənədlər toplandıqdan sonra Avropa İnsan Haqları Məhkəməsinə müraciət ediləcək.

Qeyd edək ki, Dağlıq Qarabağdakı separatçı rejim azərbaycanlı girovlara qarşı irəli sürdüyü qondarma ittihamlar əsasında onların "məhkəməsi"ni həyata keçirir.

## Türkiyədə 100 özəl reaktiv təyyarədən biri Mübariz Mənsimovundur



**Türkiyədə hazırda 100 ədəd özəl reaktiv təyyarə var. Virtualaz.org Türkiyə KİV-lərinə istinadən xəbər verir ki, "business-jet"lərin sayı son 7 ildə iki dəfə artıb. Təyyarələrin orta "yaşı" 8 ildir, onlardan ən yeniləri restoranlar kralı Ferit Şahenkə ("Gulfstream" G280 və G550) və azərbaycanlı milyarder, gəmiçilik maqnatı Mübariz Mənsimova ("Falcon 2000EX") məxsusdur.**

Mənsimovun təyyarəsi həmçinin dayanmadan ən uzağa uça bilən "business-jet"lərdən sayılır. Onun təyyarəsi 11 min kilometr məsafəyə birbaşa uça bilir. Ən uzağa uça bilən isə Ferit Şahenkin "Gulfstream"idir - 12 min 501 kilometr.

Türkiyə zənginlərinə məxsus özəl jetlərin orta qiyməti 20 milyon dollara yaxındır. Lakin Mübariz Mənsimov da daxil olmaqla bəzi zənginlərin təyyarələrinin qiymətləri orta qiymətdən iki-üç dəfə yuxarıdır.

Məsələn, Mənsimovun "Falcon"u 50 milyon dollar qiymətindədir. Mənsimovun təyyarəsi "Palmali" holdinqinə daxil olan "Palmali jet" təyyarə kirayələmə şirkətində qeydiyyatdadır.

**Başsağlığı**

**Müsavat Partiyasının başçanı Arif Hacılı Ziyarət Səfərovaya əmisi qızı Alimə xanımın vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

## Arif Hacılı-Qubad İbadoğlu görüşü baş tutmayıb

**"Təxminən bir həftə əvvəl Arif Hacılıdan görüşməklə bağlı mesaj aldım. Onun təklif etdiyi vaxt başqa görüşüm olduğunu nəzərə alaraq, mən də bir gün sonra alternativ variant təklif etdim".**

Bunu aznews.az-a açıqlamasında Müsavat Partiyasının üzvü Qubad İbadoğlu deyib.

Onun sözlərinə görə, Müsavat Partiyasının başçanı Arif Hacılı ona "yenə yazışarıq" deyə cavab verib.

"Amma təsdiq olmadı və ona görə də görüşümüz baş tutmadı", - deyə Qubad İbadoğlu vurğulayıb.

Xatırladaq ki, Müsavat Partiyasının başqanı Arif Hacılı seçkilərin nəticələrindən narazı qalan şəxslərlə görüşməkdən imtina etməyi barədə deyilənlərin həqiqətə uyğun olmadığını bildirib.

A.Hacılı deyib ki, qurultaydan sonra Qubad İbadoğlunu təkbətək görüşə də dəvət edib.

Qubad İbadoğlu isə iki gün ərzində onunla görüşmək imkanının olmadığını bildirib.

**Arzu Səmədbəyli:**

## "Müsavatdan getməyim haqda deyilənlər yalandır"

**Müsavat Partiyası Divanının sabiq üzvü, Milli Məclisin keçmiş deputatı Arzu Səmədbəylinin Müsavat Partiyasını tərk etməsi barədə xəbər təsdiq olunmur. Bu barədə musavat.com-un müvafiq sorğusuna cavabı A.Səmədbəylinin özü verib.**

A.Səmədbəyli deyib ki, bu söz-söhbətin həqiqətlə uzaqdan-yaxından əlaqəsi yoxdur, sırf yalandır və o, hazırda Pənah Hüseyn və müsavatçılarla bir yerdə söhbət edirlər.

Qeyd edək ki, editor.az saytı Müsavat Partiyasındakı məlumatlı mənbəyə istinad edərək dünən axşam saatlarında Müsavat Partiyası Məclisinin sabiq sədri, Milli Məclisin keçmiş deputatı Arzu Səmədbəylinin də partiya sıralarından istefa verdiyini yazıb.

## Dələduzluqda təqsirləndirilən hüquq müdafiəçisinə hökm oxundu

**Noyabrın 7-də Bakı Ağır Cinayətlər Məhkəməsində İnsan Hüquq və Azadlıqlarının Müdafiə Təşkilatının dələduzluqda təqsirləndirilən sədri, hüquq müdafiəçisi Rasim Əlizadənin cinayət işi üzrə məhkəmə yekunlaşıb. APA-nın məlumatına görə, prosesdə hökm oxunub. Hökmə əsasən, o, 7 il müddətinə azadlıqdan məhrum edilib.**

Qeyd edək ki, R. Əlizadə Cinayət Məcəlləsinin 178.2.3-cü (dələduzluq) maddəsi ilə ittiham edilir.

Günün içindən

YENİ MÜSAVAT
N 275 (5984) 8 noyabr 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**





# Ann Brassör və Səməd Seyidova suallar

**Şəki Apelyasiya Məhkəməsinin bu günkü məhkəmə iclasında bizə hökm oxunacaq. Daha doğrusu Prezident Administrasiyasının tapşırığını səsləndirəcəklər. Bu günün əsas məsələsi məhkəmə formalizmi yox, AŞ PA-nın prezidenti Ann Brassörlə görüşümüzdür. Elə formal məhkəmə iclasının vaxtı da bu görüşə görə saat 11-dən 15:30-a keçirildi.**

***

Xanım Ann Brassör İlqar Məmmədov və mənim görüşümə 6 nəfərlik nümayəndə heyəti ilə gəlmişdi. Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov da nümayəndə heyətinə qoşulmuşdu. Görüş başlayan kimi xanım Brassör dedi ki, kifayət qədər vaxtı var, istədiyiniz qədər danışa bilərsiniz. Çox maraqlı söhbətimiz oldu. Söhbətdə “ölkədə siyasi məhbus yoxdur”, “seçkilər saxtalaşdırılmır”, “məhkəmələrin işinə hökumət müdaxilə edə bilmir” və s. iqtidar yalanlarını hər yerdə, o cümlədən AŞ PA-da qətiyyətlə deyən Səməd Seyidovun iştirak etməsi onu daha da maraqlı edirdi. Düzdür, o, söhbətə qatılmırdı, ancaq aradabir replika verirdi. Fürsəti dəyərləndirib xanım Brassörə dedim ki, İsmayıllı hadisələri ilə bağlı irəli sürülmüş ittihamın şəxsən sizə, nümayəndə heyətinin digər üzvlərinə və hörmətli cənab Səməd Seyidova nə qədər aidiyyəti varsa, mənimlə İlqar bəyə də o qədər aidiyyəti var. Bax elə bu dəqiqəcə cənab Seyidovun tez-tez təkrarladığı “Azərbaycanda siyasi məhbus yoxdur” və “ Bizdə hökumət məhkəmələrin işinə qarışmır” fikirlərini birmənalı şəkildə yalana çıxara bilərəm. Biz İsmayıllıya hadisənin ertəsi gün gəlmişik. Biz orada yalnız saat 16-17 arası olmuşuq və istintaq da bunu təsdiq edir. İttiham tərəfi iddia edir ki, həmin gün, yəni 24.01.2013 tarixində, biz saat 16-17 arasında İsmayıllı şəhərində iğtişaş etmişik. Səməd müəllimin İsmayıllı şəhərində tanışı olmamış olmaz. Götürüb elə burdan zəng eləsin, öyrənsin həmin vaxt İsmayıllı şəhərində hər hansı bir aksiya, hərəkətlilik, etiraz, qarşıdurma olubmu? Belə bir şey olmayıb, həmin vaxt İsmayıllı şəhərində tam sakitlik hökm sürüb və situasiya xüsusi təyinatlı polisin tam nəzarətində olub. Biz 10 aydır ki, davam edən məhkəmədə, hətta video sübutlarla da bu qədər sadə həqiqəti və günahsızlığımızı qəbul etdirə bilmədik. İndi Səməd müəllim izah etsin ki, nəyə görə şərlənib tutulmuş bizlər siyasi məhbus sayılmamalıyıq və necə olur ki, bu qədər absurd, qərəzli mövqe sərgiləyən məhkəmə bu özbaşınalığı kimə güvənərək edir? Deməli, siyasi məhbuslar və məhkəmələr haqqında bizim dediklərimiz doğrudur, Səməd Seyidovun dedikləri yox.

Növbəti dəfə üzümü xanım Brassörə tutub dedim ki, siz və digər nümayəndələr Avropanın müxtəlif dövlətlərindən durub bura gəlib bizimlə görüşürsünüz, siyasi məhbus məsələsini araşdırmağa çalışırsınız, məsələyə aydınlıq gətirmək istəyirsiniz. MM-in üzvü, komitə sədri, eyni zamanda sizin kimi AŞ PA üzvü olan, ölkədə siyasi məhbus olmadığını bəyan edən cənab Səməd Seyidovdan soruşun, nədən gəlib bizlərlə görüşmür, bizim arqumentlərlə tanış olmaq istəmir? Cavabını da özüm verirəm, deyirəm, çünki cənab Səməd Seyidov çox yaxşı bilir ki, müxalifətçiləri şərləyib tutular və məhkəmələr PA-dan verilən tapşırıqlar əsasında ədalətsiz, absurd qərarlar çıxardırlar. Sadəcə olaraq, o, verilmiş tapşırığa əsasən yalan danışmağa məcburdur.

***

**Qeyd:**

Atam mənə sentyabr 24-də, Şəki Apelyasiya Məhkəməsi onun və İlqar Məmmədovun barəsində hökm verən günü iki yazı vermişdi. Başım qarışıq olduğundan o yazıları hara qoyduğumu unutdum. Bugünlərdə xoş bir təsadüf nəticəsində onları tapdım. Və indi qəzetə təqdim edirəm.

❑ **Nigar YAQUBLU**



# Milli Şuranın mitinqi ilə bağlı qeyri-müəyyənlik

## Müsavatla KXCP-nin rəhbərliyinin mitinqə qatılacaqları bəlli deyil...

**Milli Şuranın 10 noyabra təyin etdiyi mitinqlə bağlı qeyri-müəyyən vəziyyət yaranıb. Belə ki, məlum olub ki, Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) mitinqə icazəni noyabrın 10-u üçün yox, 9-na verib.**

AXCP sədrinin müavini Fuad Qəhrəmanlı bunu mitinqə qarşı təxribat adlandırıb: “Noyabrın 5-də BŞİH-in ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Zaur Ramazanov mənə zəng edib dəqiqləşdirdi ki, bizim onlarda üç müraciətimiz var - ayın 9-u, 10-u və 16-sı üçün, bunlardan hansını əsas tuturuq. Mən də dedim ki, ayın 10-nu. O da sağollaşdı. Ayın 6-da Zaur Ramazanov saat 17 radələrində təkrar mənə zəng vurub müraciətimizə müsbət cavab verildiyini dedi. Mən də dəqiqləşdirdim ki, mətbuata açıqlama verəcəyəm, müraciətlərimizdən hansına - 10 noyabramı müsbət cavab verilib? O da təsdiqlədi ki, bəli, 10 noyabra razılıq verilib. Artıq iş gününün sonu olduğu üçün razılaşdıq ki, cavab məktubunu ayın 7-də götürəcəyik. Mən də buna uyğun olaraq mətbuata məlum açıqlamanı verdim. Amma ayın 7-də məktubu götürəndə bəlli oldu ki, BŞİH cavab məktubunda razılığı ayın 9-na göstərib”. Milli Şuranın hansı addım atacağına gəlincə, F.Qəhrəmanlı deyib ki, yaranmış vəziyyət müzakirə olunacaq və qərar veriləcək.

Müsavatın isə Milli Şuranın mitinqinə qatılmaması ilə bağlı fikirlər var. Partiyanın bir çox üzvləri bildirir ki, ötən mitinqdə Müsavat rəhbərliyinə hörmətsizlik və mitinqin daha çox Əli Kərimlinin yeganə müxalifət olduğu təbliğinə yönəlməsi səbəbindən müsavatçılar bu mitinqdə iştirak etməməlidirlər. Müsavat Partiyasının Divanı isə üzvlərə mitinqdə iştirak edib-etməmək məsələsində sərbəstlik verib. Partiyanın rəhbərliyinin mitinqə qatılıb-qatılmayacağı isə hələ rəsmən elan olunmayıb.

**Müsavat Məclisinin üzvü Alya Yaqublu isə mitinqə qatılmağın tərəfdarıdır. “Yeni Müsavat”a açıqlamasında o, mövqeyini belə əsaslandırdı:** “Əvvəla, ona görə qatılmaq lazımdır ki, bu, hakimiyyətin repressiyalarına etiraz aksiyasıdır və deməli, ayrıca götürülmüş bir partiyanın yanlış təbliğat taktikasına görə bu aksiyada iştirakdan vaz keçmək doğru deyil. İkincisi, mitinqdə iştirak etməmək AXCP-nin yeganə müxalifət partiyası olması iddiasında bulunanların ”çörəyinə yağ sürtmək" deməkdi. Nəhayət, üçüncüsü, doğru siyasi qərarlardan başqalarının doğru olmayan siyasi qərarlarına görə vaz keçmək düzgün olmazdı, çünki nəticə etibarilə hər kəsə əməlinə görə qiymət verilir. Necə ki, ötən mitinqdə Müsavat rəhbərliyini heç olmasa salamlayacaq qədər siyasi mədəniyyət nümayiş etdirə bilməyən təşkilatçılar bununla ancaq özlərinə ziyan vurdular, tribunada durmaq davası aparmadan mitinqə gələn İsa Qəmbərə yox".

Milli Şurada təmsil olunan KXCP isə bu dəfə də mitinqdə partiya şəklində iştirak etməyəcək. Partiyanın sədri Mirmahmud Mirəlioğlu APA-ya deyib ki, Milli Şuranın mitinqində iştirakla bağlı qərar verməyib. Mitinqdə iştirak məsələsi üzvlərin öz ixtiyarına buraxılıb: “Bu məsələdə partiya üzvlərinə sərbəstlik verilib”.

**M. Mirəlioğlu şəxsən mitinqə qatılıb-qatılmayacağı barədə sualı cavablandırmayıb.**

❑ **E.SEYİDAĞA**

# Məmməd İsmayılın 75 illik yubileyi keçiriləcək

**Noyabrın 1-də Azərbaycanın tanınmış şairi Məmməd İsmayılın 75 yaşı tamam oldu. Bununla bağlı noyabrın 11-i saat 18:00-da “Aktyorlar Evi”ndə yubiley tədbiri keçiriləcək. Tədbirin aparıcısı xalq şairi, deputat Sabir Rüstəmxanlı olacaq.**



Yubiley gecəsində millət vəkilləri, tanınmış ədəbiyyat və mədəniyyət xadimləri, ziyalılar, şeirsevərlər, şairin yaxınları və dostları iştirak edəcək. Tədbirdə M.İsmayılın sözlərinə bəstələnən mahnılar səslənəcək, saz musiqisi ifa olunacaq.

**Şair Ehtiram İlham yubiley tədbirində M.İsmayılın yeni kitablarının təqdimatının olacağını bildirdi:** “Yubiley münasibətilə ustad şairin ”70-dən sonra" adlı şeirlər kitabı nəfis şəkildə çap olundu. Burada şairin son illər yazdığı şeirlərlə yanaşı, əvvəlki illərdə yazdığı şeirlər də yer alıb. Dünən M.İsmayıla həsr olunan şeirlərdən ibarət “Sən indi hardasan, Məmməd İsmayıl” adlı kitab da işıq üzü görüb. Kitabda görkəmli və gənc qələm adamları ilə yanaşı, Türkiyə və Rusiya şairlərinin şeirləri də yer alıb. Bundan başqa, Məmməd İsmayılın sözlərinə yazılmış mahnılar və aşıq ifalarından ibarət disk işıq üzü görüb. Yaxın günlərdə isə “İz” adlı romanı çap olunacaq".

**Ehtiram İlham M.İsmayıla daim yüksək qiymət verildiyini bildirdi:** “Məmməd İsmayıla göstərilən münasibət həm ədəbi ictimaiyyət, həm də insanlarımız tərəfindən həmişə olduğu kimi çox yüksək səviyyədədir”.

**Bəs Azərbaycan Yazıçılar Birliyi (AYB) M.İsmayılla bağlı hər hansı yubiley tədbiri keçirəcəkmi? Bu barədə qurumun mətbuat xidmətinin rəhbəri Xəyal Rza musavat.com-a açıqlamasında bildirib:** “Bildiyimiz kimi, Məmməd İsmayılın 70 illik yubileyini yüksək səviyyədə keçirmişik. İndi isə heç bir müraciət olmadığına görə Yazıçılar Birliyi hər hansı bir tədbir təşkil etməyi düşünmür. Amma 75 illik yubileyi ilə bağlı keçiriləcək hər bir tədbirdə böyük məmnuniyyətlə iştirak etməyə hazırıq. Təbii ki, dəvət olunsaq”.

Görkəmli şairin yubiley gecəsində gənc şairlər də aktiv iştirak edəcəklər.

**Bu barədə musavat.com-a Dünya Gənc Türk Yazarlar Birliyinin İdarə Heyətinin üzvü İntiqam Yaşar məlumat verib:** “Biz təşkilat olaraq, tədbirdə tam heyətlə təmsil olunacağıq. Məmməd İsmayıl böyük şairdir. Bizlər onun yaradıcılığından çox nümunələr götürmüşük. Götürəcəyimiz hələ çox şeylər də var. Düşünürəm ki, onun yubileyində iştirak etmək hər birimizin borcudur. Gənc üzvlərimiz onun şəninə şeirlər yazıblar. Söz verilsə, həmin şeirləri səsləndirəcəyik”.

M.İsmayılın keçdiyi həyat yoluna qısa nəzər salaq.

1939-cu il noyabrın 1-də Tovuz rayonunda doğulan Məmməd İsmayıl 14 yaşından şeir yazır. Əsərləri dünyanın 50-dən çox dilinə çevrilən şairin 60-dan çox kitabı çıxıb. Çox sayda ədəbi mükafatlar qazanan Məmməd İsmayıl ən son 2014-cü ildə Rusiya Yazarlar Birliyinin Sergey Yesenin ordeninə layiq görülüb.

1995-ci ildən işsizlik üzündən ölkədən gedib. Uzun illərdir ki, Türkiyənin Çanakkale 18 Mart Universitetində müəllim kimi fəaliyyət göstərir. M.İsmayıl həmin universitetin professorudur.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 275 (5984) 8 noyabr 2014



# Tənqiddən nəticə çıxarmaq...

Mahal İSMAYILOĞLU
mahal57@mail.ru

**Gör üstündən neçə gün ötür, amma mən bir sirri-xudadan baş aça bilmirəm. Əvvəl məktəblərdə, universitetlərdə dərslər sentyabrın 1-də başlayırdı. Köhnə təhsil nazirimiz böyük cəfalara qatlaşdı, dönə-dönə baş nazirimiz Artur müəllimin qapısını döydü və çox çətinliklə razı saldı ki, dərslər sentyabrın 1-də yox, 15-də başlasın. Onda bu hadisənin tarixi, pedaqoji əhəmiyyətindən çox danışıb, yazdılar. Şəxsən mənim təhsil sahəsində keçmiş nazirimizin daha hansı uğurlara imza atdığı yadıma gəlmir. Məhz bu yenilikdən, dərslərin 15 gün o yana çəkilməyindən sonra hər il keçid balları böyük sürətlə aşağı endi. Oxuyan da, oxumayan da tələbə olmaq arzusuna qovuşdu... İndi kimdən soruşsanız məhz oxumağın ömrünü 15 gün qısaltdığına görə Misir müəllimə dualar edirlər.**

Deyirlər, sən yaxşılıq et, xalq qədrini bilməsə də, xaliq biləcək. Axır ki, bunu da gözü götürən olmadı. Onu əvəzləyən şəxs Misir müəllimin tarixi uğurunun üstündən bir qara xətt çəkdi və bu başdan kəsilən 15 günü o başdan uzatdı. Əlbəttə, Mikayıl müəllim yenidən sentyabrın 1-ni dərs ilinin başlanğıcı elan etsə idi, çox böyük ədalətsizlik olardı. Nədən ki, bizim xalqımız bu 23 ildə daim inamla irəli gedib, heç vaxt geriyə dönüb baxmağı özümüzə yaraşdırmayıb. Bəs necə, birdən deyərlər ki, analoqu olmayan sürətlə qabağa gedən ölkə nədən 15 gün geriyə döndü. Mən belə müdrik qərarı ürəkdən alqışlayıram və inanıram ki, bu 15 gün bizim təhsildə silinməz iz qoyacaq, bundan sonra universitetlərdə plan doldurmaq xatirinə keçid balları 300-dən 100-ə endirilməyəcək. Artıq bu yoldakı yeganə maneə də uğurla aradan qaldırılıb.

Amma bu böyük tarixi yeniliyə də kəc baxanlar var. Mən keçmişdə YAP-ın ikinci şəxsi olan, indi isə tamamilə unudulan Əli Nağıyevin kəskin tənqidlə dolu müsahibəsini oxudum. Bu adam təhsili qara günə qoyub deyə Misir Mərdanovun qarasıyca ürəkdolusu danışıb, amma onu əvəzləyən Mikayıl müəllimin tarixi uğurunu bir kəlmə ilə də qeyd etməyib. Mən bu şirin söhbəti əvvəldən axıra kimi çox diqqətlə oxudum. Sizi bilmirəm, mənim yadımda qalan o oldu ki, təhsil bərbad günə düşüb və bütün günahlar da Misir müəllimin üstünə yüklənib. Bu qədər suçu olan adam indi də EA-da Riyaziyyat İnstitutunun direktoru işləyir. İndi də elm sahəsi böyük təhlükə ilə üzləşib. Hə bir də o bəlli oldu ki, digər sahələrdə - səhiyyədə, elmdə, mədəniyyətdə heç bir əyər-əskiyimiz yoxdur. Daha Gömrük Xidməti elə sərhəddəcə Azərbaycana məxsus özəllikləri anlatmır, vergi yığanlar qazanc götürməmiş mayaya əl uzatmırlar. Bir sözlə, bizim ölkənin yeganə qəmi-qayğısı təhsildir, onun da günahları Misir müəllimin boynuna yüklənib, dərs ili 15 gün uzadılandan sonra hər şey öz yerini tutacaq...

***

Bu mərdimazar yağışlar yağmasa idi, işlər yaxşı gedirdi. Yay, yaz quraqlıq oldu - abadlıq, quruculuq işləri də öz qaydası ilə, plana uyğun həyata keçirilirdi. Məhz həmin quraqlıq günlərində "Təmiz Binəqədi" arzusu ilə proqram qəbul edildi. Gəliş-gediş çox olan küçələrdə, prospektlərdə köhnə yaşayış binalarına bər-bəzəkli üzlük vuruldu. Üzü küçəyə baxmayan binalar bundan sonra daha yazıq və miskin göründü... Yağış yağandan sonra isə bütün eyiblər üzə çıxdı. Siz keçilməz dəryanı xatırladan küçələri, palçığı dizə çıxan həyətləri görsə idiniz təmizliyin doğrudan da həsrətini çəkərdiniz.

Elə bu sətirləri yazan bəndəniz də Binəqədi rayonunda yaşayır. Necə böyük dəyişikliklər baş verdiyinin hər gün öz gözümlə şahidi oluram. Məsələn, bizim küçədə, "Tərgül" ticarət mərkəzinin qənşərində içməli su düz bu ilin yazından fontan vurur. Ona baxıb, Damcılı bulağın nisgili ilə yaşayan taksi sürücüsünün yurd həsrətini ovutmaq üçün camaat sevə-sevə dağılan su xəttinə "Ömər bulağı" deyir. Amma qış gələndə, şaxta düşəndə "Ömər bulağı" küçədə əsl maneə yaradacaq. Neçə dəfə rayonda abadlıq işlərinə cavabdeh olan məmurlar gəlib baxıb gediblər. Sürücülərin o "bulağın" ətrafında maşın yuduğunu görüb, bütün bunların Binəqədi rayonundakı təmizlik və abadlıqla səsləşdiyindən məmnun qalırlar...

İnsafla desək, bu cür "bulaqlar" Binəqədi rayonunun az qala bütün küçələrində var. Su xətləri dəyişdiriləndən bəri bax beləcə camaat su sarıdan korluq çəkmir.

İndi yağışın yuyub üzə çıxardığı eyiblərdən sonra bizim qəzetimizə göndərilən zəhmətkeş teleqramlarının ardı-arası kəsilmir. Bizi qınayırlar ki, böyük, həm də tarixi işləri gözümüz görmür və götürmür. Biz görürük, bu zəhrimar yağış yuyub, bütün eyibləri üzə çıxardır...

# Əli Nağıyev-Rəsul Quliyev konfliktinə ilginc reaksiya

## Qabil Hüseynli: "Bu, saray daxilində baş verən gizli, illeqal danışıqların və yaxud intriqaların bir hissəsi ola bilərdi"

**Bu günlərdə keçmiş əmək və əhalinin sosial müdafiəsi naziri, Azərbaycanın Belarusdakı sabiq səfiri Əli Nağıyevlə eks-spiker Rəsul Quliyev arasında söz savaşı davam edir. Sabiq nazirin R.Quliyev haqqında açıqladığı şok məlumatlar illərdir ABŞ-da mühacir həyatı yaşayan ikincinin kəskin reaksiyasına səbəb olub.**

"Keçmiş əmək və əhalinin sosial müdafiəsi naziri Əli Nağıyevin mənim haqqında dedikləri başdan ayağa yalandır. Onun yalan olması bir tərəfə, azacıq ağıl sahibi onun dediklərini oxusa, sadəcə olaraq, indiki hakimiyyətə yarınmaq və özünü gözə soxmaq istəyini görə bilər". Bunu modern.az saytına R.Quliyev Ə.Nağıyevin onun haqqında səsləndirdiyi ittihamlara münasibət bildirərkən deyib.

Qeyd edək ki, Əli Nağıyev modern.az-a müsahibəsində "Milli Məclisin keçmiş sədri Rəsul Quliyevin YAP-a ərizəsiz qəbul olunmasında sizin rolunuzun olduğu söylənilir. Ən doğun cavabı sizdən eşitmək istəyirik" sualına belə cavab verib:

"Bu adam Heydər Əliyevlə oyun oynamaq istəyirdi. Deyirdi: "Bilirsiniz nə var, bir partiya yaratsam, bəzi adamlar mənim partiyama gələcək. Onlar sizin partiyaya gəlmək istəmirlər, mənim partiyama qoşulmaq istəyirlər". O adamlar Anar Rzayev, Rüstəm İbrahimbəyov və Yusif Səmədoğlu idi. Bunu Heydər Əliyev camaatın qarşısında dedi. Baxın, bu adamın beyni pozulub, bu adama informasiya verənlər də onun kimi nadürüstdür. Heydər Əliyev mənə tapşırıq verib dedi: "Axı, kimdir ki, camaat onun dalınca getsin. Onun yanına get və partiyaya üzv olması üçün ərizə al!" Mən zəng etdim, o, yenə oyun oynamağa başladı: "Mənim YAP-a ərizə verməyim ucuz olur, sən bir nəfər göndər məndən müsahibə götürsün. Orda deyəcəyəm ki, YAP-a tərəfdaram". Bunu Heydər Əliyevə deyəndən sonra Eldar Sabiroğlunu göndərdim. Rəsul Eldar Sabiroğluna müsahibə verdi, ancaq onu Heydər Əliyev bəyənmədi".



Qabil Hüseynli

R.Quliyevin sözlərinə görə isə Əli Nağıyev özünü tarixin yaradıcısı kimi göstərməyə cəhd edir. O bildirib ki, mərhum eks-prezident Heydər Əliyev Əli Nağıyevə ikinci dərəcəli bir post vermişdi. "Buna görə də Əli Nağıyevin mənim qəbuluma düşmək şansı yox idi",-deyən Rəsul Quliyev ironiyasını da gizlətməyib: "Başqalarının xahişi ilə deyəsən, onu bir və ya iki dəfə qəbul etmişəm".

Ə.Nağıyevi dedi-qodu ilə məşğul olmaqda qınayan eks-spiker "onun vəzifədən çıxarılması da bu xarakterinə görə baş verib",- deyə bildirib.

**R.Quliyevin təkzibinə isə Ə.Nağıyevdən** cavab gəlib. "Hər bir sözümə cavabdehəm. Dediyim hər bir kəlmənin arxasında durmağa hazıram. Mən faktlarla danışmışam. Rəsul Quliyev məni necə yalançı adlandıra bilər?!" Bunu modern.az-a açıqlamasında Ə.Nağıyev deyib. Onun fikrincə, faktlar ortadadır: "Müsahibədə danışdıqlarım yalan deyil. Allah Heydər Əliyevə rəhmət eləsin! Rəsuldan müsahibə götürən Eldar Sabiroğlu sağdır. Həmin müsahibə "Səs" qəzetində çıxıb. Jurnalist kimi gedib araşdıra bilərsiniz. O, görəsən, buna nə deyir?!"

**Bəs əslində o zaman nələr baş verib, tərəflərdən hansı haqlıdır? Bunu vaxtilə Əliyev komandasının üzvləri olmuş şəxslərlə dəqiqləşdirmək istədik.**

**Söz dartışmasında adı çəkilən Eldar Sabiroğlunun mobil telefonu qapalı olduğundan onunla danışa bilmədik.**

**1994-1996-cı illərdə dövlət müşaviri vəzifəsində çalışmış professor Qabil Hüseynli məsələlərdən detallı şəkildə məlumatının olmadığını bildirdi:** "Bu, məndən kənarda oynanılmış bir oyundur. Ona görə də dəqiq məlumat verməkdə çətinlik çəkirəm. Rəsul Quliyevin partiya yaratmaq istəməsi məsələsini birmənalı nə təsdiq, nə də təkzib edə bilərəm. Çünki o, özünü çox ora-bura vuran, hətta həddindən artıq ambisiya ilə yaşayan bir adam idi. Bu mənada ola bilsin ki, belə bir söhbət olub. Amma mən bu söhbətlərin heç birində iştirak etməmişəm və bu barədə heç mənə məlumat da verilməyib". **Q.Hüseynli bir məsələyə də diqqət çəkdi:** "Bu, saray daxilində baş verən gizli, illeqal danışıqların və yaxud intriqaların bir hissəsi ola bilərdi. Bunun da mənə məlum olması mümkünsüz idi".

**Amma Q.Hüseynli Ə.Nağıyevin dediklərini oxuduğunu və şübhə etmədiyini vurğuladı:** "Şübhəsiz ki, bütün bunlar saraydaxili intriqaların bir hissəsi olub. Rəsul Quliyevin partiya yaratmaq fikri ola bilərdi. Heydər Əliyev çevik bir adam olduğundan yəqin ki, onun qarşısını alıb".

❑ Cavid TURAN

# Müxalifətdəki tarixçilər Qarabağ haqda kitab yazıbmı?

## Almaz Əliqızı: "Zaman keçdikcə yeni baxışa ehtiyac yaranır"

**Moskvada Azərbaycan Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Dağlıq Qarabağ: mənbələr əsasında oxunmuş tarix" adlı kitabı çap olunub. Kitab Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi köklərinə həsr olunub.**

Kitabda Dağlıq Qarabağ münaqişəsinin yaranması səbəblərini, habelə bu bölgənin tarixən mövcud olan Azərbaycan dövlətlərinə məxsusluğunu əks etdirən müxtəlif tarixi mənbələr yer alıb. Qeyd olunur ki, Azərbaycanın xristian abidələri həmişə erməni din xadimləri tərəfindən tarixin təhrif olunması üçün istifadə edilib.

"Dağlıq Qarabağ: mənbələr əsasında oxunmuş tarix" adlı kitabda tarixi sənədlər əsasında Ermənistan dövlətinin diasporun köməyi ilə Dağlıq Qarabağ ətrafında münaqişəni necə yaratmasından və geosiyasi tələyə düşməsindən bəhs olunur. Kitabda həmçinin ATƏT-in Minsk Qrupu çərçivəsində aparılan danışıqlar prosesinə nəzər salınıb.

Ancaq maraqlıdır ki, Qarabağ problemi haqda iqtidar rəhbərliyi kitab yazsa da, son illər müxalifətçilərdən bu mövzuda kitab yazan müəlliflərə rast gəlinmir.

**Müsavat Partiyasının Məclis üzvü, BDU-nun professoru Almaz Əliqızı** hesab edir ki, Qarabağ işğalı və həqiqətləri mövzusunda mütləq yeni kitablar yazılmalıdır. Onun sözlərinə görə, son illər müxalif partiyalarda təmsil olunan tarixçilərin bu problemlə bağlı kitabı olmasa da, müxtəlif məqalələri dərc olunub.

**A.Əliqızının fikrincə, bunun səbəbi Azərbaycan tarixinin vaxtilə yazılmasıdır:** "Ancaq fikrimcə, Qarabağın işğalına yeni baxış olmalıdır, yeni kitablar çap edilməlidir. Bizdə tarixçilərdən bu mövzuda kitab yazan olmayıb. Amma Qarabağ dərdi alimindən fəhləsinə qədər hamını düşündürür. Sadəcə, bu məsələnin üzərinə qayıtmırlar ki, artıq yazılıb".



Almaz Əliqızı

**A.Əliqızı R.Mehdiyevin kitabı ilə tanış olmayıb, amma Qarabağ məsələsində siyasi mənsubiyyəti kənara qoymağın tərəfdarıdır:** "Bu, bizim xalqımızın dərdidir, vətən məsələsidir. Ona görə də Qarabağın tarixinə yox, işğal tarixinə yenidən baxmaq lazımdır, son illər gedən prosesləri qələmə almaq vacibdir.

Bunu gələcək nəsillər üçün mütləq etməliyik. Çünki zaman keçdikcə yeni baxışa ehtiyac yaranır. Bu mənada iqtidar və ya müxalifət düşərgəsinə ayırmadan, hər bir vətəndaş öz torpağının yarasına, dərdinə görə qollarını çırmalamalıdır".

❑ EMİL

YENİ MÜSAVAT
N 275 (5984) 8 noyabr 2014

# Avropa ilə Bakı arasında gərginlik səngimir

## Böyük Britaniya səfirimizin Avropa Şurasının baş katibinə cavabının ardınca "Freedom House" Azərbaycanı tənqid etdi

**Azərbaycanın Böyük Britaniya və Şimali İrlandiya Krallığındakı səfiri Tahir Tağızadə "The Guardian" qəzetində Avropa Şurasının baş katibi Torbyorn Yaqlandın məqaləsinə cavab verib. Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, səfir həmin məqalədəki qeyri-obyektiv xarakterli məqamlarla bağlı cavab yazıb.**

Qeyd edək ki, Avropa Şurasının baş katibi Torbyorn Yaqland-ın Britaniyanın nüfuzlu "The Guardian" qəzetində Azərbaycanda insan haqlarının vəziyyətinə dair "Azərbaycanda insan haqları: Bıçaq sümüyə dirənib. Birləşmiş Krallıq biganə qalmamalıdır" sərlövhəli məqalə yazmışdı.

Səfir öz məqaləsində Azərbaycanda son 23 ildə insan hüquqları və demokratikləşmə sahəsində mühüm irəliləyişlərin əldə edildiyini, milli qanunvericiliyin Avropa Şurası və Venesiya Komissiyasının tövsiyələri nəzərə alınmaqla, beynəlxalq standartlara uyğunlaşdırıldığını vurğulayıb. T. Tağızadə Azərbaycanda həbslərin siyasi motivlərlə əlaqələndirilməsi cəhdlərinə cavab olaraq qeyd edib ki, məhkəmə prosesinin yekunlaşmasına imkan verilməlidir və hüquq-mühafizə orqanlarının işinə hər hansı kənar müdaxilə yolverilməzdir. Diplomat qanunun aliliyinin bərqərar olduğu bütün cəmiyyətlərdə olduğu kimi Azərbaycanda da qanunu pozan şəxslərin peşəkar fəaliyyətlərinin arxasına sığınmalarının qəbul edilmədiyini diqqətə çatdırıb. O bildirib ki, qanun yalnız universal şəkildə tətbiq olunduğu zaman qanun hesab olunur, əks təqdirdə, o yalnız repressiya vasitəsinə çevrilir.

Səfir həmçinin qeyd edib ki, Azərbaycan prezidenti İlham Əliyev T. Yaqlandın insan hüquqları üzrə birgə işçi qrupunun fəaliyyətinin bərpa edilməsi ilə bağlı müraciətini qəbul edib. Bunun özü hökumətdə bu məsələlərin sağlam və konstruktiv həlli istiqamətində siyasi iradənin olduğunu əks etdirir. T. Tağızadə işçi qrupun fəaliyyətinin davam etdirilməsinə imkan verilməsinin zəruri olduğunu bildirərək Azərbaycan hökumətinin vətəndaş cəmiyyəti ilə birgə bu məsələləri həll etmək əzmində olduğunu diqqətə çatdırıb. Səfir bütün bu addımların kənar müdaxilə və yaxud hansısa xarici təşkilatı məmnun etmək istəyindən deyil, Azərbaycan hakimiyyətinin bu ideallara sadiqliyindən irəli gəldiyini vurğulayıb.

Avropa ilə Bakı arasında problemlərin yaşandığı bu günlərdə Bakıda Avropa Şurasının Qonşu regionlar üzrə Siyasətinə dair yüksək səviyyəli ikigünlük beynəlxalq konfrans öz işinə başlayıb. Konfrans Azərbaycanın Avropa Şurası Nazirlər Komitəsində sədrliyi çərçivəsində baş tutub.

**Tədbirdə Avropa Şurası Nazirlər Komitəsinin sədri və Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov çıxış edərkən bildirib ki, Azərbaycanın strateji mövqeyi, onun tolerantlıq ənənələri, iqtisadi nailiyyətləri və dünyada və qonşuluqda sülhə və təhlükəsizliyə töhfə vermək istiqamətində qətiyyəti bu xarici siyasətin əsas hərəkətverici amilləri arasındadır:** "Bu gün Azərbaycan sürətlə inkişaf edən iqtisadiyyata malikdir və hazırda Cənubi Qafqazın iqtisadiyyatının ümumilikdə 80 faizdən çoxu ölkəmizin payına düşür. Əhəmiyyətli neft və qaz resursları, eləcə də regional nəqliyyat mərkəzi kimi əsas mövqe Azərbaycana



Tahir Tağızadə



Elmar Məmmədyarov

**Elmar Məmmədyarov gələn həftə Avropada hesabat verəcək:** "6 aylıq sədrliyi dövründə Azərbaycan tərəfindən görülmüş işlərin nəticələrini təqdim edəcəyəm"

Avropanın enerji təhlükəsizliyinin təmininə öz töhfələrini daha da artırmağa imkan verir". (Modern.az) Nazir deyib ki, Ermənistan və Azərbaycan arasında olan, beynəlxalq səviyyədə tanınmış ərazilərimizin - Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayonun Ermənistan tərəfindən qanunsuz işğalı və 1 milyondan çox Azərbaycan vətəndaşının qaçqın və məcburi köçkün vəziyyətində olması ilə nəticələnən münaqişənin ağır nəticələri olmasaydı, Azərbaycan və region daha çox nəaliyyətlər əldə edə bilərdi: "Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə hörmətlə yanaşılmasını təsdiq edən və işğalçı qüvvələrin işğal olunmuş ərazilərdən dərhal, tam və qeydi-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin hələ də yerinə yetirilməməsi məyusedicidir".

**E.Məmmədyarov bildirib ki, Azərbaycan Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyinin sonuna doğru yaxınlaşır:** "Bugünkü konfrans sədrliyimizlə təşkil olunmuş sonuncu əsas iclasdır. Əlbəttə, mən növbəti cümə axşamı sədrliyi Belçikaya təhvil vermək üçün Strasburqda olacağam. Bu münasibətlə Nazirlər Komitəsinə 6 aylıq sədrliyi dövründə Azərbaycan tərəfindən görülmüş işlərin nəticələrini təqdim edəcəyəm".

"Fikrimizcə, Azərbaycan da Avropa Şurasının siyasətinin qonşu regionlarda daha da tanıdılması istiqamətində sədrliyinin ona verdiyi üstünlüklərdən yararlana bilmişdir. Qonşuluq siyasətinin əhatə etdiyi bir çox ölkələrlə tarixi dostluq münasibətləri olan bir ölkə kimi biz başlanğıcdan bu siyasətin güclü tərəfdarlarından olmuşuq"-deyə nazir əlavə edib.

**Azərbaycanın Avropanın basqıları ilə üz-üzə qaldığı şəraitdə növbəti etiraz bəyanatı gəlib. Hüquq müdafiəçisi Leyla Yunusun vəkillərinin müdafiə işindən uzaqlaşdırılması ilə bağlı "Freedom House" hüquq-müdafiə təşkilatı bəyanat yayıb:** "İnsan haqları fəallarını ciddi cinayətlərdə ittiham etməklə, Azərbaycan hökuməti hüququn aliliyinə kobud hörmətsizlik, eləcə də müstəqil vətəndaş cəmiyyətindən qorxduğunu göstərir". Freedom House-un prezidenti David J. Kramer deyib.

"Hökumət Yunusa və digər siyasi məhbuslara qarşı şübhəli ittihamlar irəli sürməklə, hüquq müdafiəçiləri barəsində uzun müddətli həbs-qətimkan tədbirləri seçməklə, təkcə öz ədliyyə sistemini ələ salmır. İndi isə Yunusun vəkillə təmin olunmaq haqqını da alır. Bu, hakimiyyətin öz vətəndaşlarından qorxduğunu göstərir".

"Freedom House" hökuməti Yunus və digər siyasi məhbuslara qarşı ittihamları ləğv etməyə, onların hüquqlarını tam bərpa etməyə çağırır. Qurum Azərbaycanı qeyri-azad ölkələr sırasına salır. Hakimiyyət təmsilçiləri bu qurumu qeyri-obyektivlikdə, ikili standartlarda ittiham edir. Casusluqda ittiham olunan Leyla Yunusun bir neçə vəkili onun müdafiəsindən uzaqlaşdırılıb.

Qeyd edək ki, Azərbaycan hakimiyyəti bir qayda olaraq bu tipli təşkilatları qərəzli hesab edir və QHT statusunda olan belə qurumların mövqeyinə etibar etmədiyini bəyanlayır.

❑ **Cavid TURAN**

# Leyla Yunusun vəkilsiz qalmasına etiraz gəldi

## İşgəncələr Əleyhinə Ümumdünya Təşkilatı bəyanat yaydı; bəs qanun bu haqda nə deyir?

**İşgəncələr Əleyhinə Ümumdünya Təşkilatı (İƏÜT) noyabrın 6-da həbs edilmiş hüquq müdafiəçisi Leyla Yunusa və onun vəkillərinə qarşı bitmək bilməyən təzyiqləri pisləyən bəyanat yayıb.**

İƏÜT Leyla Yunusun və onun həyat yoldaşının həbs müddətinin 4 ay uzadılmasından, vəkillərin onların müdafiəsindən kənarlaşdırılmasından təəccübünü və qəzəbini ifadə edir.

Təşkilat Azərbaycan hakimiyyətindən Yunusların tibbi, fiziki və psixoloji toxunulmazlığının təmin edilməsi üçün təcili və adekvat tədbirlər görməyi, habelə Azərbaycan QHT-lərinə qarşı artmaqda olan repressiyalara son qoymağı, həbs edilmiş hüquq müdafiəçilərini dərhal və qeyd-şərtsiz azad etməyi tələb edir.

Bu zaman İƏÜT BMT-nin hüquq müdafiəçilərinin müdafiəsi zərurəti haqqında 9 dekabr 1998-ci il tarixli bəyannaməsinə və insan hüquqlarının və əsas azadlıqlarının təmin edilməsi üzrə öhdəliklər haqqında Azərbaycan hökumətinin qoşulduğu digər beynəlxalq sənədlərə istinad edir.

"İstintaq orqanı mənə hələ də Leyla Yunusun vəkilliyindən uzaqlaşdırıldığım haqqında heç bir xəbərdarlıq etməyib. Amma Kürdəxanı Bakı İstintaq Təcridxanasında Leyla Yunusla görüşmək istəyərkən mənə bildirdilər ki, kənarlaşdırılmışam". Bunları deyerler.org-a vəkil Xalid Bağırov Leyla Yunusun vəkilliyindən uzaqlaşdırılması ilə bağlı məsələyə aydınlıq gətirərkən deyib.

**O qeyd edib ki, bu qərar verilibsə ilk olaraq və dərhal ona deyilməlidir:** "Ümumiyyətlə, əgər bir vəkil prosesdən kənarlaşdırılırsa, bu barədə qərar qəbul olunur. Bu kənarlaşdırma müəyyən əsaslara söykənir ki, bu əsaslar qanunda açıq şəkildə qeyd olunub. Biz də bu qərardan narazı qalırıqsa, şikayət etmək hüququmuz var. Bu qərarın səbəbi haqqında indidən bir şey demək istəmirəm. Qərarın rəsmi əsaslarını görməyənədək heç bir şey deyə bilmərəm. Mənim öz şübhələrim var. Bəlkə də müəyyən



Müzəffər Baxış

əsasları var. Amma doğrusu, heç bir əsasın olduğunu düşünmürəm. Əslində bu qərar verilibsə ilk olaraq və dərhal mənə deyilməlidir. Əsaslar da təqdim olunmalıdır. Burada insanın müdafiə hüququndan söhbət gedir. Buna ötəri yanaşmaq olmaz".

"Yeni Müsavat" bu məsələnin səbəblərini öyrənmək üçün müvafiq qurumlarla əlaqə saxlasa da, hər hansı cavab ala bilmədi.

Bəs hüquq qanunvericiliyində bu məqam öz əksini necə tapır? Hansı hallarda vəkil müvəkkilinin işindən kənarlaşdırıla bilər?

**Hüquqşünas Müzəffər Baxış bizə açıqlamasında bildirdi ki, Cinayət Prosessual Məcəllənin 114-cü maddəsində prokurorluğun vəkili kənarlaşdırmaq səlahiyyəti var. Amma bunun üçün ciddi əsaslar olmalıdır:** "Həmin maddəyə görə, müdafiəçi, həmçinin zərərçəkmiş şəxsin, iddiaçının, həmçinin mülki iddiaçının, mülki cavabdehin və ya şahidin nümayəndəsi cinayət işində iştirakını istisna edən aşağıdakı hallardan hər hansı biri olduqda əsassız sayılmalı və şərtsiz təmin olunmalıdır. Cinayət prosesində iştirak edən və ya əvvəllər iştirak etmiş hakim və prokurorlar, müstəntiqlər, təhqiqatçı və ya məhkəmə iclasının katibi ilə qohumluq əlaqələrinin, habelə bu şəxslərdən şəxsi və ya xidməti asılılığının olması əsas səbəblərdən biri sayılır. Cinayət təqibi üzrə icraatda hakim, prokuror, müstəntiq, təhqiqatçı, məhkəmə iclasının katibi, tərcüməçi, mütəxəssis, ekspert və ya şahid qismində iştirak etməsi. Bu hallardan biri olduqda müdafiəçi və ya zərərçəkmiş şəxsin, xüsusi ittihamçının, mülki cavabdehin və ya şahidin nümayəndəsi özü özünə etiraz etməlidir. Habelə zərərçəkmiş şəxsin, xüsusi ittihamçının, mülki iddiaçının, mülki cavabdeh və şahidin nümayəndəsinin etiraz məsələsi cinayət prosesini həyata keçirən orqan tərəfindən həll edilir. Müdafiəçi və nümayəndə qismində təyin edilmiş şəxsin səriştəsinə və vicdanlı olmasına şübhə və ya digər səbəblər olduqda müdafiə olunan və ya təmsil etdiyi şəxsin vəsatəti əsasında müdafiəçi və ya nümayəndə müdafiə prosesindən kənarlaşdırılmalıdır".

**Müsahibimiz dedi ki, CPM-in 84-cü maddəsinə görə, sadalanan hallarla bağlı müstəntiq qarşısında vəsatət qaldırılır və prokuror vəkilin cinayət prosesində iştirakından kənarlaşdırılması barədə qərar qəbul edir:** "Amma konkret Leyla Yunusun vəkili Xalid Bağırovun məsələsində nəyi əsas götürüblər, hansı əsasla kənarlaşdırma baş verib, bunu dəqiq deyə bilmirəm".

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 275 (5984) 8 noyabr 2014



# Diz çökən Rusiya

Azər RƏŞİDOĞLU

**Rusiyada gözlənilən iqtisadi fəlakət yaxınlaşmaqdadır. Birjalarda 1 dolların kursu ilk dəfə olaraq 48 rublluq şkalasını keçmək üzrədir. Bircə bu fakt, RF prezidenti Vladimir Putinin mənəm-mənəmliyinə baxmayaraq, öz effektliyini göstərməyə başlayır. İndi hələ ki bu sanksiyalar iri kompaniyalar və şirkətlərə zərbə vursa da, Qərb ekspertlərinin hesablamalarına görə, sıravi Rusiya vətəndaşı sanksiyaların təsirini öz cibində 2015-ci ilin yazında tam hiss etməyə başlayacaq. Odur ki, Putinin ura-patriotizm üzərində köklənən siyasət qatarı gələn ilin yazında sürətini xeyli azaltmalı olacaq.**

Belə perspektivi Kremldə də gözəl anlayırlar. Bunun ilkin nümunəsi kimi neçə aydır ki, Rusiyanın guya ki, güzəştlərə getməyəcəyi, amma sonda Ukrayna ilə qaz məsələsində razılığa gəlməsini göstərmək olar. Xatırladaq ki, "Qazprom" Ukrayna bütün borcu ödəməsə, onları əvvəlcədən ödəniş sisteminə salacağı ilə hədələyirdi. İndi isə Moskva ilə əldə olunan razılığa görə Kiyev borcu hissə-hissə ödəyəcək. Moskvanın ilin sonuna yaxın nümayiş etdirdiyi yumşaqlığı ekspertlər məhz sanksiyalar amili ilə əlaqələndirilər. Yəni Moskva bütün siyasi sərtliyinə baxmayaraq, hətta müharibə apardığı bir dövlətlə də danışıqlara hazır olduğunu nümayiş etdirir.

Beləliklə, Rusiyada iqtisadi tənəzzül fəlakət həddinə doğru gedir. Putin ölkəsinin üzləşdiyi böhrana görə Qərbi ittiham etməkdən uzağa gedə bilmir. ABŞ-ın sanksiyalarına cavab olaraq Kreml "Rusiyada dolların işlədilməsinə məhdudiyyətlər qoymaq olar" kimi gülünc təkliflərlə çıxış edir. Lakin heç kəs bunun reallaşa biləcəyinə inanmır. Rusiya neft və qazdan əldə etdiyi yüz milyardlarla dollar hesabına öz mövqelərini gücləndirməyə hazırlaşdığı bir vaxtda dolların 48 rubl olması Kremlə sarsıdıcı zərbələr endirir.

Belə gedişatın nəticəsi olaraq Rusiyanın əyalətlərində kütləvi etirazlar baş qaldırır və Putinin reytinqi sürətlə aşağı düşür.

Rusiyanın xarici borcu 1 trilyon dollar təşkil edir. Dövlət müəssisələrində çalışanların əmək haqları gecikdirilir.

Xatırladaq ki, əksər iqtisadçı ekspertlər Rusiyadakı bu vəziyyəti Ukrayna hadisələrindən dolayı Qərbin tətbiq etdiyi sanksiyalarla əlaqələndirirlər.

Araşdırmaçıların qənaətinə görə, gündəlik neft idxalını 2007-ci illə müqayisədə 8.7 milyon barel azaltmağı bacaran ABŞ artıq hər gün dünya bazarına 400 min barel neft göndərir. Qərbin müttəfiqinə çevrilmiş Liviyanın gündəlik neft hasilatı isə 240 mindən 800 min barelədək yüksəlib. Rusiyaya tətbiq edilən sanksiyalar fonunda ABŞ Moskvanın əsas gəlir mənbəyini ciddi şəkildə məhdudlaşdırmağa çalışır. İxracının 68 faizinin neft, neft məhsulları və mavi qaz olan Rusiyanın xaricə göndərdiyi hər 100 dollarlıq məhsulunun 54 dolları xam neftin payına düşür.

Vaşinqton-Moskva münasibətlərində gərginlik davam edərsə, ABŞ neftin dünya bazar qiymətinin hər barel üçün 60, hətta 55 dollaradək azaldılmasına nail ola bilər. Neftin dünya bazar qiymətinin uzun müddət deyil, hətta 6 ay belə aşağı səviyyədə saxlanması Rusiya iqtisadiyyatının iflasına səbəb ola bilər.

Rusiyanın ərzaq məhsullarına tətbiq etdiyi sanksiya da qiymət artımına gətirib çıxara bilər. Rusiya vətəndaşları çətin ki, bunu diktatorluq fikrinə düşən Putinə bağışlasınlar...

## Seçkiyə...qocalar getmir

# Parlamentin "lal və kar" obrazı dəyişəcək

**2015-ci il parlament seçkilərinə hələ bir il qalsa da, bu seçimlər həm ölkə daxilində, həm də beynəlxalq təşkilatlarda ciddi müzakirə mövzusuna çevrilməkdədir. Bu müzakirələrin Bakıya gələn Avropa və ABŞ təmsilçiləri ilə bağlı qapılar arxasında müzakirə olunduğu barədə diplomatik kanallardan xəbərlər sızdırılır.**



İqtidar 2015-ci il qərarı üçün Rusiya-Qərb münaqişəsinin, Ukrayna böhranının, Bakıda da tərəfdarları olan "İslam Dövləti" ilə mübarizə kimi qlobal məsələlərin necə həll olunacağını gözləyir; Milli Məclisdə mümkün "təmizləmənin" iki əsas səbəbi var...

Ölkə müxalifətinin əsas spektri 2002-ci ildə ləğv olunan proporsional seçki sisteminin bərpası tələbini gündəmə gətirib. Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin bugünlərdə kadr siyasəti ilə bağlı verdiyi açıqlamalar gələn il həm hökumətin, həm parlamentin tərkibində dəyişiklik olacağının anonsu kimi qiymətləndirilib. Eyni zamanda parlament seçkilərinə böyük önəm verən beynəlxalq aləmin, əsasən də ABŞ-ın timsalında Qərbin bu seçkilərdən bir çox gözləntiləri və hakimiyyətdən konkret tələbləri olduğu barədə ciddi məlumatlar var. Qərb Azərbaycan parlamentinin "lal və kar" obrazını dəyişmək, Milli Məclisdə real müxalifətin təmsil olunmasını, hətta mümkün olsa, parlamentə keçən digər müxalifyönlü partiyaların fraksiyasının yaradılmasını arzulayır. Qərb dairələri Azərbaycan hakimiyyətinə müxalifəti küçə aksiyalarından, tək-tük müxalif qəzetlərin səhifələrindən parlamentə toplamağı təklif edir. Xüsusilə Avropa Birliyi narazı elektoratın hakimiyyət qollarından birində təmsilçiliyinin iqtidarı da rahatlayacağı qənaətindədir və məlumatlara görə, avropalı qonaqlar bunu Bakıya da tez-tez xatırladırlar. Bu mesajlar sırasında beynəlxalq birliyin şərtlərinin yerinə yetirilməyəcəyi təqdirdə iqtidarın özünütəcrid vəziyyətinə düşəcəyi xəbərdarlığı da var.

Hakimiyyət daxilində gələn xəbərlər də təsdiq edir ki, 2015-ci il seçkiləri ciddi müzakirə olunur və hələ ki Qərbin hansı istəklərini reallaşdırmaq barədə konkret qərar yoxdur. Bu qeyri-müəyyənliyin, daha doğrusu, gözləmə mövqeyinin səbəbi aydındır. İqtidar dünyadakı qütbləşmənin - Rusiya-Qərb münaqişəsinin, Ukrayna böhranının, nə qədər qəribə səslənsə də Bakıda da tərəfdarları olan "İslam Dövləti" ilə mübarizə kimi qlobal məsələlərin necə həll olunacağını diqqətlə izləyir. Məsələn, əgər rublu can üstə olan Rusiya hökuməti bu qışdan çıxa bilməzsə, xalq şimal qonşumuzda üsyana qalxarsa, rəsmi Bakı parlament seçkilərində xeyli güzəştə gedə bilər. Mümkündür ki, 2015-də Ukrayna böhranı o qədər dərinləşsin ki, Qərb heç Azərbaycandakı seçkini belə yaddan çıxarsın. Başqa arzuedilməz variantlar da *(Rusiyanın bir az dirçəlib rəsmi Bakıya təzyiqləri artıra və parlamentdə müxalifətin yerini "beşinci kolon" tərəfdarları tuta və sair)* mümkündür ki, bu suallara zamanla aydınlıq gələcək.

Amma parlamentin tərkibində bəzi mütləq dəyişikliklər olacağı haqda indidən xəbərlər gəlir. Bu məlumatları ümumiləşdirdikdə belə nəticə hasil olunur ki, ilk növbədə oliqarxların və məmurların parlamentdəki adamları 2015-ci ildə mandat almayacaq. Mümkündür ki, onların yalnız ən yaxın adamlarının *(məsələn, nazirin oğlu və ya qardaşı)* mandatı saxlanılacaq.

Bu "oliqarxik dəyişikliyin" iki əsas səbəbi var. Birincisi, bu adamların bəziləri hətta bir dəfə ağzını açanda hakimiyyəti biabır edir, əlavə başağrısı və tənqidlərə tuş gətirir. İkinci səbəb daha ilgincdir. Bu deputatlar mandatı ilə hər yerə "burunlarını soxur", özlərinə daha geniş biznes qurmağa girişirlər ki, bu da iqtidarda ciddi qıcıq doğurur.

Xəbərlərə görə, hansısa xidmətlərinə görə 2010-cu ildə "mükafatlandırılan"ın bir çoxuna da "daha namizədlik barədə düşünməyin" xəbərdarlığı edilib. İddialar var ki, bu cür "seçilmiş" deputatların yerinə cəmiyyətdə daha çox tanınan, iqtidara lazımlı adamların tutması planlaşdırılır. Nəhayət, yaşlı deputatlar bu dəfə "fəxri istirahətə" göndəriləcək.

Modern.az-a da növbəti parlament seçkiləri ilə bağlı maraqlı məlumat daxil olub. Sayt xəbər verir ki, artıq Milli Məclisdəki yaşlı deputatlara növbəti seçkilərdə iştirak etməyəcəkləri tapşırılıb. "Çox az sayda yaşlı deputat növbəti seçkilərdə iştirak edəcək. Deputat mandatı ilə vidalaşacaq şəxslərə müəyyən vəzifələrin veriləcəyi də gözlənilir. YAP-ın icra katibinin müavini, deputat Siyavuş Novruzov məlumatlara şərh verməmək istəməyib: **"Parlament seçkilərinə hələ çox var. İndidən bu barədə danışmaq tezdir".**

Bütün bu məlumatlardan və pərdə arxasında baş verənlərdən bu qənaət hasil olur ki, 2015-ci ilin parlament seçkiləri həm proses, həm seçki kampaniyasının gedişi, həm nəticə, həm də Milli Məclisin tərkibi baxımından nəticə etibarilə son illərdə keçirilən seçkilərdən ciddi şəkildə fərqlənə bilər.

Qərar vermək üçünsə iqtidarın elə də çox zamanı qalmayıb...

❑ Xəbər xidməti

# Müsavatçılar Xaçmazda polisə aparıldı

**Noyabrın 7-də Müsavat Partiyasının Xaçmaz rayon təşkilatının sədri Heybət Əmrah və rayon təşkilatının sabiq sədri Ramazan Əliyev saxlanılaraq Xaçmaz Rayon Polis Şöbəsinə aparılıblar.**



Heybət Əmrah

Bu barədə Müsavat Partiyasından məlumat verilib. Xəbərdə deyilir ki, saxlanılan müsavatçılara polis idarəsində siyasi fəaliyyətləri ilə əlaqədar xəbərdarlıq edilib. Partiya başqanı Arif Hacılı və partiyanın digər rəhbər şəxslərinin Xaçmaz rayonuna gəlişinin arzuolunmaz olduğu bildirilib *(Arif Hacılı və partiyanın funksionerləri bir gün öncə Xaçmazda Heybət Əmrahın anasının yas mərasimində iştirak ediblər. E.S.)* Polis idarəsində müsavatçılar bütövlükdə partiyadaxili məsələlərlə bağlı sorğu-sual olunduqdan sonra sərbəst buraxılıblar.

Baş vermiş hadisə ilə bağlı Müsavat Partiyasının yaydığı bəyanatda deyilir ki, Müsavat Partiyası polis orqanlarının partiyanın rayon təşkilatının fəaliyyətinə olan müdaxiləsini kəskin şəkildə pisləyir və hakimiyyətdən polis orqanlarının siyasi təşkilatların fəaliyyətinə maneçilik törətməsi hallarına son qoyulmasını tələb edir.

❑ E.SEYİDAĞA

**Bildiyimiz kimi, Azərbaycanda keçid dövründən sonra pedaqoji-psixoloji problemlər daha da artıb, insanların düşüncə tərzində, dünyagörüşündə dəyişiklik, təfəkküründə bu dövrün tələblərinə cavab verən yeni fikirlər formalaşıb. Belə keçid isə insan psixikasında mürəkkəb amillərin təsirindən yeniləşməyə doğru yol alır. Cəmiyyətdə baş verən dəyişikliklər xüsusilə təhsil sisteminin inkişafında böyük rol oynayır. İnkişafın müsbət təsiri ilə yanaşı bir çox çətinliklərlə üzləşmək bu vəziyyətdə qaçılmazdır. Çünki insanın daim axtarışda olmasına baxmayaraq, yeniliyə can atmaqla yanaşı bəzən razı olmasa da yaşadığı, qurduğu mühitdən digərinə keçdikdə müəyyən zorluqlarla qarşı-qarşıya qalması təbii haldır.**

**Tamilla Qulami (Məmmədova)**
**Ümid Partiyası Beynəlxalq şöbənin müdiri**



# Təhsilimizin Avropa təhsil sisteminə inteqrasiyasının perspektivləri

## Müasir tələblərə cavab vermək təkcə tələbənin səyi olmamalı, yaşlı kadrlar da yeni təhsil siyasətinin mahiyyətini dərk etməli, yeni pedaqoji təfəkkürün daşıyıcısı olmalıdırlar

Həm də Azərbaycan vətəndaşlarının necə bir keyfiyyət daşıyıcısı olması dəqiqləşdirilməlidir. Dövlətimizin, xalqımızın tarixən, milli adət-ənənə, mentalitet, düşünmə tərzi baxımından Şərqə bağlı olduğundan Qərb dövlətlərinə uyğunlaşmasının qısa müddətdə həyata keçirilməsi təbii ki, məntiqə uyğun olmazdı.

Elmi fəaliyyət sahəsində müasir dövrün tələblərindən irəli gələn islahatların həyata keçirilməsi müxtəlif istiqamətləri özündə birləşdirən kompleks tədbirlər planıdır. Burada struktur dəyişikliyindən tutmuş normativ-hüquqi bazanın yaradılmasınadək müxtəlif tədbirlər nəzərdə tutulur. Elm sahəsindəki ciddi dəyişikliklər elmin idarəedilməsi, yaradıcılığın stimullaşdırılması və alimlərin sosial ehtiyaclarının tam ödənilməsi kimi kompleks xarakterli məsələlərin həllinə bağlıdır.

Vacib məsələlərdən biri də dünyada baş verən ictimai-siyasi proseslərə, qloballaşmaya, inteqrasiyaya hansı vasitəylə, necə yolla daxil olmaqdan ibarətdir. Nə qloballaşmadan kənar qalmaq, nə də qeydsiz-şərtsiz bu yola baş vurmaq lazımdır. Ən azından kortəbii olaraq bilmədiyimiz bir işin arxasınca gedərsək, əlimizdə olduğumuzu da itirmək riskini də gözə almaq zorundayıq. Bu halda milli-mənəvi dəyərlərin itirilmə təhlükəsiylə üz-üzə gəlməmək üçün getdiyimiz yolu dəqiq aşılamalı, lazımi biliklərə yiyələnməli, yeni yanaşma metodları araşdırılmalıdır. Ənənəvi olaraq bu araşdırma birtərəfli olarsa, subyektin obyektə münasibəti üzərində qurularsa ictimai quruluşun öz tələblərinə uyğun şəxsiyyətlər, yeni təhsil sistemi formalaşdırmaq çətin olacaq. Çünki bu vəziyyətlə qarşılaşmamaq üçün başlıca üstünlük dialoqa verilməlidir.

XX əsrin birinci yarısında Şimali Azərbaycanın sovet Rusiyası tərəfindən işğalı nəticəsində milli elmi fikir öz inkişafının növbəti mərhələsini sovet elmi düşüncəsi kontekstində davam etdirdiyinə görə bu mentalitet monoloq xarakteri daşıyaraq öz tələblərinə cavab verən şəxsiyyətlər formalaşdırırdı. Düzdür, 50-80-ci illərdə bir çox istiqamətlərdə xeyli nailiyyətlərin əldə edilməsinə baxmayaraq, 90-cı illərin əvvəllərində ictimai həyatdakı hadisələr elmdə də ciddi böhranın yaranmasına səbəb olmuş, respublikadan xaricə beyin axını güclənmiş, mövcud elmi-təşkilati strukturlar iflic vəziyyətinə düşmüşdü. Bunun da səbəblərindən biri Azərbaycanın elmi potensialının üzləşdiyi sosial-iqtisadi problemlərin hələ də kifayət qədər həllini tapmaması, aparıcı elmi məktəblərin inkişafı üçün məqsədli tədbirlərin gec həyata keçirilməsi, elmdə qocalma tendensiyalarının güclənməsi, gənc alimlərə lazımi diqqət ayrılmamasıdır.

Azərbaycanda elmi-texniki potensialı qorumaq və inkişaf etdirmək üçün iqtisadiyyatın, milli mənafeyin gücləndirilməsi müasir dövrün tələblərindən biri sayılır. Sovet mentalitetinin, ideologiyasının monoloq xarakter daşıması indiki zaman üçün Avropa təhsil sisteminə inteqrasiya etməkdə keçərli deyil. Çünki müasir dövrün tələbləri tamam başqadır, daha çevik təfəkkürə malik, rəqabətə açıq gözlə, risk edərək getməyi bacaran şəxsiyyətlər tələb edir. Tək ölkə daxilində deyil, ölkə hüdudlarından kənarda da mübarizə aparılmalı və itirməmək üçün soyuqqanlılıq nümayiş etdirilməlidir. Müasir tələblərə cavab vermək təkcə tələbənin səyi olmamalı, yaşlı kadrlar da yeni təhsil siyasətinin mahiyyətini dərk etməli, yeni pedaqoji təfəkkürün daşıyıcısı olmalıdırlar. Yalnız bunun nəticəsində gənc kadrların hazırlanmasında istedikləri keyfiyyətləri görə bilərlər. İlk növbədə elm adamlarımızın üzləşdiyi sosial gərginlik problemi həll edilməli, bu məsələyə sosial-iqtisadi bir problem kimi yox, əxlaq problemi, ölkənin milli maraqlarının qorunması kimi baxılmalıdır.

Beləliklə, Azərbaycanın müasir təhsil sistemi müasir standartlara da cavab verməli, Avropa təhsil sisteminə inteqrasiya olunmalıdır. Yuxarıda qeyd etdiyim kimi bu prosesi həyata keçirərkən öz milli zənginliyimizi qorumalı, özümüzə məxsus simamızı itirməməliyik. Biz gənclər inanırıq ki, özümüzün daxili intellektual səfərbərliyimiz sayəsində yeni dövrün tələbləri baxımından daha da faydalı olacaq və ölkəmizdən kənarda fəal elmi məruzələrimizlə çıxış edərək, respublikamızın sosial-iqtisadi və mədəni-mənəvi inkişafında daha da yaxından iştirak edəcəyik.

# "Təzyiqlər davam edərsə, seçkilərdə iştirak qərarımıza yenidən baxa bilərik"

ÜMİD PARTİYASI
UMİD PARTY

**Ümid Partiyası bələdiyyə seçkilərində namizədliyini verən şəxslərə qarşı təzyiqlərlə bağlı bəyanat verib. Bəyanatda deyilir:**

- Ümid Partiyası bu ilin əvvəlindən bələdiyyə seçkilərinə qatılmaqla bağlı qərar verib və hazırlıqlara başlayıb. Seçkilərə start verildikdən sonra partiya şəkilində seçkilərə qatılmaqla bağlı sənədlərini MSK-ya təqdim edib. Bu günə qədər 550-dən artıq bələdiyyə subyekti üzrə 2000-ə yaxın namizədin sənədləri hazırlanıb, bunlardan bir qismi artıq DSK-lara təqdim edilib və bu proses davam etdirilir. Partiyanın məqsədi minimum 900 bələdiyyə subyekti üzrə namizəd irəli sürərək, Seçki Məcəlləsinə uyğun pulsuz efir vaxtı əldə etməkdir. Buna partiyanın potensialı çatır.

Təəssüflər olsun ki, oktyabrın 6-dan etibarən Ümid Partiyasından bələdiyyə seçkilərində namizəd olacaq partiya üzvlərinə qarşı total hücumlar başlayıb. Belə ki, MSK-ya təqdim olunmuş namizəd olacaq şəxslərin siyahısı həmin qurum tərəfindən rayon icra hakimiyyətlərinə göndərilib. DSK-lara sənəd təqdim olunmamış yerli icra hakimlərinin göstərişi ilə partiyadan namizədlikləri irəli sürüləcək şəxslər həmin siyahı üzrə icra hakimiyyətlərinə çağırılır, evlərinə polis göndərilir, onların qohumlarına, ailə üzvlərinə və özlərinə təzyiqlər edilir, namizədlərin sənədləri DSK-ya təqdim olunmadan qanunsuz olaraq namizədliklərinin irəli sürülməsindən xəbərsiz olduqları və namizədlikdən imtina ilə bağlı onlardan ərizə alınır.

Bu bir daha sübut edir ki, hakimiyyət bu seçkini əvvəlki bələdiyyə seçkisindən daha da qeyri-demokratik və qanun pozuntusu ilə keçirməyi, xalqı, siyasi-ictimai institutları prosesdən kənarda saxlamağı qarşısına məqsəd qoyub. 2009-cu ilin bələdiyyə seçkilərində namizədlərin sənədləri DSK-ya təqdim olunduqdan sonra təzyiqlər edilirdisə, bu dəfə namizəd olacaq şəxslərin sənədləri təqdim olunmadan seçkidə iştirakının qarşısı alınır. Əksər rayonlarda- Astara, Lənkəran, Ağcabədi, Cəlilabad, Salyan, Ağsu və başqa bölgələrdə bu proses daha intensiv aparılır. Bu işdə isə seçkinin demokratik, qanunvericiliyə uyğun keçirilməsində məsuliyyəti olan MSK-nın özü daha çox rol oynayır. Namizəd olacaq şəxslərin siyahısının MSK tərəfindən icra hakimiyyətlərinə göndərilməsi bunu bir daha təsdiq edir.

Ümid Partiyası olaraq baş verənləri qəti şəkildə pisləyir, bildiririk ki, baş verənlər ciddi qanun pozuntusudur və seçkilərin nəticələrini indidən şübhə altına alır, beynəlxalq aləmdə Azərbaycanın nüfuzuna bir daha ciddi ziyan vurur.

Ümid Partiyası olaraq hakimiyyəti qanun pozuntularını dayandırmağa, normal seçki mühitinin yaradılması istiqamətində addımlar atmağa çağırır, bəyan edirik ki, qanun pozuntuları, namizəd olacaq şəxslərə qarşı təzyiqlər davam edərsə, Partiya olaraq Bələdiyyə seçkilərində iştirak etmək qərarımıza yenidən baxacağıq.



# Papanın şəkli

Zamin HACI
zaminhaci@gmail.com

**Dövlət qanun-qaydalarla deyil, hakimiyyəti ələ keçirənlərin instinktləri ilə idarə ediləndə hər cür absurd duruma gərək hazır olasan. Bu anlamda, mən xəbər lentlərində rast gəldiyim "İcra başçısı qəbiristanlığı və seçki məntəqəsini satıb", "Prokuror dəvə saxlayır, polis rəisi isə quşxana açıb" tipli başlıqlara təəccüblənmirəm. Heç çox zaman bu tipli xəbərləri açıb içini oxumuram. Nəyimə gərək? Yuxarıda yazdığım kimi, instinktlər maraq dairəmə daxil deyil. Onlar çox primitivdir. Aşağı-yuxarı necə instinktin olması da məlumdur.**

Ancaq biz hüquqi dövlət quruculuğunu istəyiriksə məcburuq belə məsələlərə diqqətlə yanaşaq. Bizim onlardan fərqimiz bu olmalıdır. Biz, xoşumuz gəlməyən, ancaq qanunauyğun hadisələrə və faktlara dözümlü yanaşmağa məcburuq. "Mənim xoşuma gəlmir, ona görə yox olsun" deyə bir şey yoxdur, çünki burada ölkə vətəndaşlarının sayı qədər - 9 milyondan çox xoşagəlməyən müxtəlif şeylər sıralamaq olar, bunların hamısını silmək cəhdi isə dərəbəylik doğurur.

Başa düşürəm ki, burda "Əlifba" kitabından sitat yazıram, müdrik oxucular yuxarıdakı cümlələri oxuyub azı qımışmaq haqqı qazanırlar. Ancaq nə etməli, vəziyyət qoca insanlara əlifba öyrədəcək qədər acınacaqlıdır.

Misal üçün, bugünlərdə ölkə müsəlmanlarının bir qismi Aşura mərasimi keçirdi. Fikir verdinizsə, mən "hamısı" yazmıram, çünki bunu qeyd etməyən müsəlmanlar da var. Dövlət qurumlarına başçılıq edənlər də həmçinin, belə həssas mövzularda diqqətli olmalıdır, hər sözünü, kəlməsini ölçüb-biçib deməlidir. Dini qurumlarla işə rəhbər qoyulan Mübariz Qurbanlı isə bu istiqamətdə özünü bir YAP nümayəndəsi kimi aparır. Elə sanır dindarlar da müsavatçı və cəbhəçilərdir, onlar haqqında ağzına gələni danışa bilərsən. Doğrudur, insafən hələlik Mübariz müəllimin elə bir kobud ifadəsi qeydə alınmayıb, ancaq xəbərdarlıq kimi yazırıq ki, çəkinsin, əlamətlər görünür. Misalımız elə Aşura günlərinə aiddir.

Həmin günlərdə bir video yaydılar, kimlərsə Bakı kəndlərində İran rəhbərliyinin, İran bayrağının altında oturub mərasim edirmiş. Bunu az qala dəhşətli cinayət kimi cəmiyyətə sırımaq istəyənlər vardı. Düzdür, sonradan videonun köhnə olması bilindi, ancaq Mübariz Qurbanlı da həmin tənqidlərə qoşulub hərəkəti pislədi. **Sitat:** "O portretlərdəki insanlar İranın ali dövlət adamları kimi tanınırlar və onların şəkillərinin nümayiş etdirilməsi dini mərasimlərə aid olmayan haldır. Ona görə də bu hal bizim tərəfdən qətiyyətlə pislənilir. Oradakı sakinlər də bilməlidirlər ki, ümmət olmamışdan əvvəl millətdirlər. Azərbaycan xalqına, dövlətinə və bayrağına sədaqətini nümayiş etdirməlidirlər. Başqa dövlətin bayrağı və siyasi liderinin fotosu altında dini ayin icra etmək, məclis qurmaq qəti yolverilməzdir". Sitatın sonu.

Göründüyü kimi, dövlət qulluqçusunun elementar insan hüquqlarından xəbəri yoxdur. İran BMT üzvü olan bir dövlətdir, onun bayrağını və liderinin şəklini qaldırmaq cinayət və ya Mübariz əkənin dediyi kimi, "qəti yolverilməz" sayıla bilməz. O cümlədən, dini mərasimlərdə divara qadağan edilməyən şəkil və bayraq asmaq insanların hüququdur. Kimsə Avropa Birliyinin bayrağını sevər, kimsə İranın. Bunu zorla dəyişdirmək olmaz.

Misal üçün, biz İŞİD bayrağını Bakıda qaldırmaq istəyənlərə niyə etiraz edirik? Çünki terrorçu qurum kimi tanınıb *(Əslində Azərbaycanın tanıyıb-tanımadığını bilmirik, o üzdən burda da hüquqi nihilizm var)*. Amma yuxarıda yazdığım kimi, İran bayrağı və ya Xomeyninin şəkli qanunla qadağan deyil. Hətta bizim daxili qanunlarda dini mərasimdə hansı bayrağı asıb-asmamaq, kimin portretini qaldırıb-endirmək haqda müddəalar varsa bunun özü də insan haqları konvensiyalarına ziddir.

Yeri gəlmişkən, Bakıda katolik kilsəsi var, bu kilsəni də Vatikan dövləti təmsil edir. Bəlkə Mübariz müəllimin işçiləri onlara da müdaxilə eləyib "Divara nə üçün Roma papasının şəklini asmısınız, burda ayrı papanın şəkli olmalıdır" göstərişi verirlər?

Əslində hakimiyyəti narahat edən elə bu "papa şəkli"nin fərqidir. Yoxsa nə dövlət, nə ümmət, nə millət...

# Namazov-Şahnazaryan anlaşmasının ilginc pərdəarxası

**Artıq geniş ictimaiyyətə bəlli olduğu kimi, bir neçə gün öncə politoloq Eldar Namazov və Ermənistanın keçmiş milli təhlükəsizlik naziri David Şahnazaryanın ortaq təşəbbüskarlığı ilə Qarabağa dair birgə bəyanat qəbul edilib. Sənədi Azərbaycan və Ermənistandan olan bəzi tanınmış vətəndaş cəmiyyəti nümayəndələri də imzalayıb.**



Arif Yunus Leyla Yunus

## Həbsdəki "xalq diplomatları"nın azadlığı tezləşir - şərh

### Qarabağ məsələsində öz vasitəçiliyinə etibarlı dinamizm vermək və Rusiyanın qəfil sürprizlərini cilovlamaq üçün Qərb öz taktikasını cilalayır; "xalq diplomatiyası" qayıdır və...

Bəyanatda münaqişə tərəfləri "hərbi ritorikaya, münaqişənin gərginləşməsinə yönəlmiş siyasi və informasiya aksiyalarına son qoymağa, atəşkəs rejiminin möhkəmləndirilməsi və silahlı insidentlərin qarşısının alınması üzrə təxirəsalınmaz addımlar atmağa, habelə snayperlərin təmas xəttindən dərhal çıxışını təmin etməyə, Helsinki Yekun Aktı əsasında münaqişənin təməl həll normalarına (güc tətbiq edilməməsi, ərazi bütövlüyü, bərabər hüquqluluq və xalqların öz müqəddəratını həll etmək hüququ) və Qarabağ tənzimlənməsi üzrə "yol xəritəsi" işlənib hazırlanmasına başlamağa" çağırılır.

Sənəddə həmçinin Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlikin 7 may 2014-cü il tarixli "Dağlıq Qarabağ: nizamlama yolları" adlı məruzəsində və həmsədrlərin 12 may 2014-cü il tarixli bəyanatında yer alan təşəbbüslərə dəstək ifadə olunur. Hesab edilir ki, üç prinsip və məruzədə sözügedən altı element Minsk Qrupu çərçivəsində ixtilafın nizamlanması üzrə sülh sazişinin və "yol xəritəsi"nin işlənib hazırlanması üçün güclü əsaslardır.

Bundan əlavə, bəyanatda konfliktin tənzimlənməsi prosesinin cəmiyyətlər üçün açıq və şəffaf olmasının, vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə beynəlxalq forumların təşkilinin zəruriliyi vurğulanır. Münaqişənin sülh yolu ilə həllinin yalnız münaqişə tərəflərinin qarşılıqlı güzəştlərə, maksimalist tələblərdən və ilkin şərtlərdən imtinaya hazır olduğu şəraitində mümkünlüyü qeyd edilir...

Həm Azərbaycanda, həm də Ermənistanda rəsmi səviyyədə olmasa da, bəyanata reaksiya birmənalı olmadı. Məsələn, Azərbaycandan verilən rəylərdən birində sənədin qrant layihəsi olduğu bildirildi. Başqa bir yanaşmaya görə isə Eldar Namazov və bəyanata imza atan digər şəxslərin "Qarabağ məsələsində belə mövqe sərgiləməyə haqlarının çatmadığı" (?!) vurğulanırdı. Hərgah, bu, hər şeydən öncə ictimai təşəbbüs sayılmalıdır.

Ermənistan tərəfdə də, əsasən ekspert dairələri səviyyəsində sənəd loyal qarşılanmadı. Misal üçün, politoloq Manvel Sərkisyan "xalq diplomatiyası"nın müstəqil yanaşmasının vacibliyinə, onun həmsədrlərin təkliflərini təkrarlamamalı olmasına diqqət yönəldərək qeyd edib ki, konfliktlərin həllində xalq diplomatiyası lazımdır, bir şərtlə ki, o, indiki nizamlama formatlarından kənar, müstəqil olsun: **"Konkret Qarabağ məsələsində isə Minsk Qrupundan fərqli yeni ideya və təkliflər, qərarlar olmalıdır. Əgər Minsk Qrupunun arxasınca düşüləcəksə, heç nə olmayacaq".**

****

Amma bəyanat gerçəkdən də əsasən Minsk Qrupu həmsədrlərinin son təkliflərinin təkrarından ibarətdir. Burada diqqəti ən çox çəkən isə Qərbin *(ABŞ-ın, Uorlikin)* təkliflərinə stavka edilməsidir. Ümumiyyətlə, belə bir sənədin prezidentlərin Paris görüşündən dərhal sonra qəbul olunması təsadüfə oxşamır.

Eldar Namazov və David Şahnazaryanın qərbpərəst siyasətçi və ekspertlər kimi tanındıqlarını da ciddiyə alsaq, belə qənaət hasil ola bilər ki, Qərb həqiqətən də Qarabağ nizamlanmasına ictimai qurumların vasitəsilə və Rusiyadan yan keçməklə yeni bir dinamizm verməyə çalışır.

İstisna deyil ki, bu ehtiyac Rusiya-Qərb qarşıdurmasının sərtləşməyə üz tutduğu zamanda Kremlin münaqişədən öz maraqları naminə təhlükəli manipulyasiyalara əl atmasını etibarlı şəkildə önləmək istəyindən qaynaqlanır. Odur ki, paralel surətdə "xalq diplomatiyası"nı yenidən işə salmaq zərurəti yaranıb. Deməli, davamı da gəlməlidir və biz yaxınlarda bu yöndə iki tərəfdən hansısa hərəkətliliyin şahidi ola bilərik.

Təsadüfi deyil ki, son vaxtlar "xalq diplomatiyası"nın odioz təmsilçilərindən olan Leyla və Arif Yunusların, bütövlükdə həbsdəki qərbyönlü siyasi məhbusların tezliklə azad ediləcəyi, həmçinin Bakı ilə Qərb (ABŞ) arasında siyasi dustaq məsələsində hansısa gizli anlaşma olması ilə bağlı intensiv məlumatlar yayılır.

Maraqlıdır ki, "Vətənə xəyanət"də suçlanan Leyla Yunusun, Rauf Mirqədirovun "iş birliyində" ittiham edildikləri erməni Şahnazaryanın imzaladığı birgə bəyanata, habelə Şahnazaryanla dost olan Eldar Namazovun özünə qarşı rəsmi Bakının bir elə sərt reaksiyasının şahidi olmadıq.

Bununla belə, bu cür təşəbbüskarlığın, o sırada yeni-köhnə "xalq diplomatiyası"nın effekt verib-verməyəcəyini indidən söyləmək də çətindir.

❑ **Siyasət şöbəsi**

# Eldar Namazova cinayət işi açıla bilər?

### İctimai xadimlər sülh çağırışının həbslə cavablandırılacağına inanmırlar...

**"Azərbaycan Naminə" İctimai Forumun rəhbəri Eldar Namazovun Finlandiyada Ermənistanın keçmiş milli təhlükəsizlik naziri David Şahnazaryanla birgə müraciət imzalamasına ölkəmizdə etirazlar var. Namazov və ermənilərlə birgə sənədə imza atan digər şəxslər Ermənistanın maraqlarına xidmətdə suçlanır.**



Eldar Namazov

Qeyd edək ki, belə vəziyyət birinci dəfə deyil yaranır. Azərbaycandan hansısa siyasi partiya, ictimai təşkilat təmsilçiləri beynəlxalq əməkdaşlıq müstəvisində zaman-zaman Ermənistanlı həmkarları ilə birgə tədbirlərə qatılıblar, birgə sənədlərə imza atıblar. Hər dəfə də həmin insanlar hücuma məruz qalıb, maraqlarımızı satmaqda ittiham olunurlar. Onların bəziləri haqqında hətta cinayət işi də açılıb və həbs ediliblər. Leyla Yunus, Aruf Yunus və Rauf Mirqədirovun həbs olunması məlumdur.

Artıq YAP yetkililərinin bəziləri tərəfindən Eldar Namazov milli maraqları satmaqda ittiham olunur. Bu, politoloqun da barəsində cinayət işi açılacağını söyləməyə əsas verirmi?

**Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü, kinodramaturq Eldəniz Quliyev bildirdi ki, sülh çağırışına görə adamın həbs olunması inandırıcı deyil:** "Bu, məntiqsizlik olardı və dünya Azərbaycana təəccüb edər ki, sülh çağırışı edən insanlar həbs edilir. Hələ dünyada elə bir müharibə olmayıb ki, sonda barışla qurtarmasın. Nə vaxtsa Qarabağ müharibəsi də bitməlidir və biz istəsək də, istəməsək də Ermənistanla qonşuyuq. Müharibənin tezliklə sülh sazişi ilə bitməsi yönündə həqiqətən də addımlar atılmalıdır. Bu çağırışın nəyi zərərlidir ki? Buna görə adama cinayət işi açarlar? İnandırıcı deyil. Tarix və dünya təcrübəsi göstərir ki, hakimiyyətlər konflikti həll edə bilməyəndə xalq özü qabağa düşür. Xalq diplomatiyasının mahiyyəti də budur. Azərbaycanın hansısa QHT təmsilçilərinin eyni ranqlı ermənilərlə bir sənədə imza atmalarında mən cinayət tərkibi görmürəm. Bu çağırışa imza atana cinayət işi açılması sadə insanlarda sual yarada bilər ki, İrəvana gedib orada ermənilərlə danışıqlar aparan məmurlar, hakimiyyətə yaxın ictimai xadimlər, ziyalılar barədə də cinayət işi açılacaqmı? Ona görə də düşünmürəm ki, haqqında söhbət gedən hadisə həbslə nəticələnə bilməz"

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı da hakimiyyətin indiki vaxtda Eldar Namazova da cinayət işi açmasına inanmadığını bildirdi:** "Eldar Namazov hədəf deyil. Heç ciddi tənqid də etməyəcəklər. Bir-iki nəfər daimi tənqidçinin açıqlamalarına baxmayın".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 275 (5984) 8 noyabr 2014

# "Bu, Azərbaycana qarşı sanksiya qərarıdır"

**Azərbaycan Dövlət Neft Şirkətinin (ARDNŞ) prezidenti Rövnəq Abdullayev ARDNŞ-in Yunanıstanın Qaz Nəqli Sisteminin Operatoru olan DESFA şirkətinin 66% səhmlərinin alınması barədə razılaşmanın Avropa Komissiyası tərəfindən təsdiqlənməyəcəyi barədə mətbuatda yazılanlara münasibət bildirib. "APA-Economics"in məlumatına görə, R. Abdullayev bildirib ki, bu yoxlamalar normal bir prosesdir: "Bu proses Avropa İttifaqına aid olan ölkələrdə bir az mürəkkəb həyata keçirilir.**

Yunanıstan da sözügedən birliyin üzvü olduğu üçün istər-istəməz bizdə bu prosesləri keçməliyik. Hazırda bu istiqamətdə iş gedir. Bu layihə daha çox Yunanıstana lazımdır. Digər halda investisiya yatırılası çox yerlər var və daha gəlirli layihələr mövcuddur. Bu layihə isə artıq Yunanıstanın marağındadır".

Xatırladaq ki, Avropa Komissiyası gözlənilmədən ARDNŞ-SOCAR-ın Yunanıstanın qaz kəmərləri sisteminin operatoru olan DESFA şirkətinin səhmlərinin alınmasına dair sövdələşməsini təsdiqləməyəcəyinə eyham vurub. Bəzi müşahidəçilər bunu Azərbaycana qarşı sanksiya təhdidinin artıq real siyasətdə işə salınmasının ilkin əlaməti kimi qiymətləndirir. Hesab olunur ki, bu, həm də Kiyev, Tiflis və Kişinyovdan fərqli olaraq rəsmi Bakının bu ilin yayında Avropa Birliyinin Şərq Tərəfdaşlıq Proqramının assosiativ sazişini imzalamaqdan imtina etməsinə və tədricən Rusiyaya yaxınlaşma xəttini yürütməsinə verilən cavabdır.

**Ancaq Neftçilərin Hüquqlarını Müdafiə Komitəsinin rəhbəri Mirvari Qəhrəmanlının qənaəti belədir ki, bu, Azərbaycana qarşı sanksiya qərarıdır:** "Bunu rəsmi Bakının siyasətinə qarşı ilkin sanksiya qərarı da saymaq olar. Eyni zamanda ola bilər ki, ARDNŞ-in layihə ilə bağlı kifayət qədər imic formalaşdıra bilməməsinin məntiqi nəticəsidir. Çünki bu, çox uğurlu bir layihə hesab edilirdi. İndi ARDNŞ rəhbərliyi deyir qarşıda 90 gün var. Mən düşünmürəm ki, bu müddətdə ARDNŞ həmin layihədə iştirak edə biləcək".

**M.Qəhrəmanlının fikrincə, nəticə rəsmi Bakının tutacağı mövqedən asılıdır:** "Azərbaycanın Avropa Şurası, Avropa İttifaqının insan hüquqları sahəsində atacağı addımlardan, rəsmi Bakının beynəlxalq səviyyəli çağırışlara necə reaksiyasından asılı olacaq. Azərbaycan siyasi məhbuslarla bağlı İşçi Qrupu yaratdı, ola bilsin ki, nəsə etmək istəyir. Əgər Azərbaycan çağırışlara əməl etməyə başlasa, ARDNŞ də bu layihədə iştirak edəcək".

**Hüquq müdafiəçisi Rusiyanın "LUKoil" şirkətinin "Şahdəniz-2" layihəsində iştirakının da ciddi məsələ olduğunu qeyd etdi:** "Rusiyada iri şirkətlərə, o cümlədən "LUKoil"a qarşı cinayət işi qaldırılır. Bu tərəfdən Asiya İnkişaf Bankı və Avropa Yenidənqurma və İnkişaf Bankı "LUKoil"in "Şahdəniz"dəki payını maliyyələşdirmək istəyir, bunun üçün kredit ayırmaq niyyətindədirlər. Biz bununla bağlı sorğular göndərəcəyik. Ola bilsin yunan şirkəti ilə müqavilənin təsdiqlənməməsi həm də Azərbaycana "LUKoil"a görə təzyiq vasitəsidir".

"Türkmənistan qazının Avropa bazarlarına çıxarılması Avropanın enerji təhlükəsizliyini təmin edəcək". Türkmənistanda rəsmi səfərdə olan Türkiyə prezidenti **Rəcəb Tayyib Ərdoğan** türkmənistanlı həmkarı Qurbanqulu Berdımuhammədovla keçirdiyi görüşdə belə deyib. (APA)

Onun sözlərinə görə, Türkiyə Azərbaycan və Türkmənistan təbii qazının Qərbə daşınmasında vacib rol oynayır: "Biz Türkmənistan təbii qazının Avropa bazarlarına Türkiyə vasitəsilə çıxarılmasına və Avropanın enerji təhlükəsizliyinin təminatına böyük önəm veririk. Türkmən təbii qazının Avropaya daşınmasının təşkil olunması üçün TANAP qaz kəməri layihəsinə start verilib. Bu istiqamətdə yüksək templə iş gedir".

Türkiyə-Türkmənistan danışıqlarının yekununda "Türkmənqaz" dövlət konserni ilə Türkiyənin "Ataqaz" kompaniyası arasında təbii qaz alqı-satışına dair əməkdaşlıqla bağlı çərçivə müqaviləsi imzalanıb. Bundan başqa, tərəflər 2015-2016-cı illər üçün ticarət-iqtisadi, təhsil, idman, nəqliyyat sahəsində əməkdaşlıq proqramını imzalayıblar.

Qeyd edək ki, ötən il iyunun 26-da İstanbulda Azərbaycan və Türkiyə arasında TANAP layihəsi üzrə saziş imzalanıb. Beş il ərzində reallaşması nəzərdə tutulan layihə 7 mlrd. ABŞ dollarına başa gələcək. Boru kəmərinin diametri 56 düym və ya 1,4 metr nəzərdə tutulub. Dörd mərhələdə həyata keçiriləcək layihənin ilk mərhələsi 2018-ci ildə başa çatacaq, 2020-ci ildə kəmərin buraxılış qabiliyyəti ildə 16 mlrd. kubmetr, 2023-cü ildə 23 mlrd. kubmetr, 2026-cı ildə isə 31 mlrd. kubmetrə çatdırılacaq.

TANAP-la Azərbaycanın "Şahdəniz" yatağındakı təbii qaz ehtiyatları Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya vasitəsilə İtaliyanın cənubuna ötürüləcək.

Yunan şirkəti ilə imzalanmış müqavilənin problemlə üzləşdiyi bir ərəfədə Türkiyə prezidentinin TAP və TANAP layihələrinin önəmindən bəhs etməsi də mesaj xarakterli açıqlama kimi dəyərləndirilir.



**Qubad İbadoğlu:** "SOCAR-ın maliyyə vəziyyəti pisləşəcək"



**Mirvari Qəhrəmanlı:** "ARDNŞ-in bu müqavilədə iştirakı rəsmi Bakının beynəlxalq səviyyəli çağırışlara necə reaksiya verməsindən asılı olacaq"

**İqtisadi Tədqiqatlar Mərkəzinin rəhbəri Qubad İbadoğlu deyir ki, bu məsələni siyasiləşdirmək düzgün deyil:** "Avropa Birliyinin rəqabət qanunları çox sərtdir, eyni zamanda yeni şəffaflıq və hesabatlılıq standartları mövcuddur. Bunlara əməl etməyən heç bir şirkət Avropa bazarına girə bilməyəcək, o cümlədən də SOCAR. Hazırda neftin qiymətləri aşağı düşdüyü zamanda bu, SOCAR-a əlavə problem yaradacaq. Ümumilikdə bu və digər səbəblərdən SOCAR-ın maliyyə vəziyyəti pisləşəcək".

**Bu arada Azərbaycanın azalan ehtiyatları ilə bağlı narahatlıqlar artıb. "Dünyanın əmtəə və maliyyə bazarlarında gedən proseslər Azərbaycanın da strateji ehtiyatlarına zərbə vurur". Bunu iqtisadçı Samir Əliyev bildirib. (ANS) Onun sözlərinə görə, neftin ucuzlaşması və dolların bahalaşması fonunda 2014-cü ilin III rübündə Neft Fondunun aktivləri 317,1 milyon dollar azalıb:** "Azalma beynəlxalq ehtiyatlarda da müşahidə edilib. Beynəlxalq ehtiyatların xarici valyutada olan aktivləri sentyabr ayında 340,18 milyon dollar azalıb. Sentyabr ayı ərzində xarici valyutada olan aktivlərin həcmi $17,783 milyarddan $17,443 milyarda düşüb. Azalma digər maddələr üzrə də olub. SDR *(Beynəlxalq Valyuta Fondunun xüsusi borcalma hüquqları)* üzrə göstərici isə $233,19 milyondan $238,29 milyona düşüb" deyə, mütəxəssis söyləyib. Ekspert güman edir ki, azalma noyabr ayında da davam edəcək. Çünki neft 80 dollara yaxınlaşır, dolların isə digər valyutalara nisbətən bahalaşması ehtiyatlarımıza mənfi təsir göstərəcək.

❑ **Cavid TURAN**

# Boz 7 noyabr, parlaq 7 noyabr



**Xalid KAZIMLI**

**Dünən həmin gün idi - 7 noyabr. İndiki nəsil üçün bu, adi, sıradan, boz noyabr günlərindən biridir. O dövrü yaşamayanlar 7 noyabrın keçmiş əzəmətini, izdihamlı paradlarla, cahanşümul təntənələrlə keçirilən möhtəşəm atmosferini təsəvvür edə bilməzlər.**

1991-ci ilə qədər həmin günlər həyat dayanırdı. Hamı 7 noyabra kilidlənirdi. Sovet dövlətindən maaş, pensiya alan, sovet təhsil ocaqlarında oxuyan bir nəfər belə üzrsüz səbəbdən 7 noyabrdan kənarda qala bilməzdi. Hamı 7 noyabr şənliklərinə qatılmalıydı, Sov İKP.MK-nın Siyasi Bürosunun üzvlərinin və üzvlüyə namizədlərin portretlərini əllərində tutaraq paradlardan keçməliydilər. Öncədən siyahılar tutulurdu, adı siyahıda olan, özü parada qatılmayan şəxslərin adının qabağına "quş" qoyulurdu, bir sonrakı partiya və ya komsomol təşkilatlarının yığıncağında məsələsi müzakirəyə çıxarılırdı.

Bir sözlə, 7 noyabr total mütəşəkkillik, total düşüncə günüydü. Hamı eyni yollarla eyni yerlərdən keçib gedir, evlərinə dağılışırdı.

7 noyabr rəsmən sovet dövlətinin yaranış təqvimiydi, inqilab günü idi. O inqilabı "Böyük oktyabr sosialist inqilabı" adlandırırdılar (Təqvim dəyişikliyindən sonra Oktyabr inqilabının qeyd olunma günü 7 noyabra düşmüşdü, amma dillərdə noyabr yox, oktyabr əzizlənirdi).

Tarixi məxəzlər, arxivlər, ciddi bilgilər daşıyan mənbələr xalqın, eləcə də araşdırmaçıların üzünə bağlı olduğundan yeni nəsillər "Böyük oktyabr inqilabı"nın nə dərəcədə böyük olduğunu bilmirdilər, o dövrün canlı şahidləri isə qırılıb getmişdilər.

Ona görə "qırılıb getmişdilər" deyirik ki, doğrudan da elə olmuşdu, oktyabr inqilabının canlı şahidlərinin böyük əksəriyyəti 1924-1938-ci illər arasında aparılan total repressiyadan salamat çıxmamışdılar. Onların bir qisminiləngitmədən güllələmiş, böyük hissəsini isə sürgünlərdə, məhbəslərdə məhv etmişdilər.

Sonradan, arxivlər açılanda məlum oldu ki, 1917-ci ilin oktyabrında baş verən hadisələr heç də böyük inqilab hərəkatı olmayıb, mobil və mütəşəkkil bir siyasi qrupun gecəylə həyata keçirdiyi hərbi çevriliş olub. Sadəcə, həmin siyasi güruh ölkədəki başıpozuqluqdan, yiyəsizlikdən istifadə edərək hərbi-siyasi təşəbbüsü ələ alıb, öz məqsədini reallaşdırıb.

Həmin inqilab-çevrilişin nəticələri isə çox ağır oldu, vətəndaş müharibəsi düşdü, milyonlarla günahsız fəhlə-kəndli, qoca, qadın, uşaq bu müharibədə qurban getdi. Nəhayət, insanlara yeni gün vəd edən bolşeviklər silah, zor, qan hesabına öz hakimiyyətlərini möhkəmlədə bildilər.

Beləcə, adına SSRİ deyilən və bütün zamanların, eləcə də dünyanın ən böyük imperiyası quruldu. Bu yeni dövlət dünyanın xəritəsini tamamilə dəyişdirdi, qlobusa iri, qırmızı bir ləkə kimi düşdü. Ən pisi o idi ki, o qırmızı şiş xərçəng xislətli idi, 70 il ərzində metastaz verərək, az qala dünyanın yarısına sirayət etmişdi.

Ona görə də 1917-ci ildən qırmızıya boyanmış 7 noyabrı, 1987-ci ildə artıq Moskva və Bakıyla yanaşı, Polşada, Macarıstanda, Çexoslovakiyada, Şərqi Almaniyada, Vyetnamda, Kubada, Nikaraquada da qeyd edirdilər.

7 noyabr həqiqətləri sonradan bəlli oldu, amma bu, heç kəsi şoka salmadı. İnsanlar 7 noyabra öyrəşmişdilər. Kütlələr bu günü çox da sevmirdilər, ondan ötrü əldən getmirdilər, paradlara, nümayişlərə heç də cani-dildən qatılmırdılar, eyzən yola verirdilər, amma etirazları da yox idi, hamı hesab edirdi ki, bu dövlət ideal dövlət olmasa da, nə yaxşı ki, var, kasıb-kusubun dövlətidir və o olmasa, mənfur kapitalistlər camaatı daha pis günə qoyar, istismar edər, qırıb-çatardılar.

Bu, uzun illər davam edən sovet-kommunist təbliğatının xalqda yaratdığı qənaət idi, xeyli dərəcədə yanlış və qərəzli idi, amma həqiqət tərkibi də vardı.

Sonradan, müstəqillik dövründə bərqərar edilən kapitalizm sistemi, adına müasir leksikonda bazar iqtisadiyyatı deyilsə də, bütün vəhşiliyini, qəddarlığını büruzə verdi və doğrudan da insanları istismar etməyə, onlara sıxıntı, iztirab çəkdirməyə başladı.

7 noyabr paradlarını, nümayişlərini görən, yaşayan insanlar sovet dövrünün nostaljisini həm də o üzdən yaşayırlar. Bu gündən baxanda o günlər, o totalitar sistemin bozartdığı günlər insanlara daha parlaq görünür.

YENİ MÜSAVAT
N 275 (5984) 8 noyabr 2014

# "Başqalarına qara yaxmayın"

## Hüquq müdafiəçisi İşçi Qrupunu tənqid edənlərə sərt cavab verdi; Novella Cəfəroğlu: "Bunların davası hakimiyyətlə işləmək davasıdır"

**Məlum olduğu kimi, Azərbaycanda İnsan Haqları üzrə İşçi Qrupu 6 ildən sonra fəaliyyətini bərpa edib. Artıq qrupun bərpa edilməsindən yarım aydan çox vaxt keçir. Bu müddət ərzində İşçi Qrupu məhbuslarla bağlı kifayət qədər müsbət işlər görüb. Məhz bu qurumun bərpasından sonra Yeni ildə böyük əfv olacağına inam yaranıb.**



Bütün bunlara baxmayaraq, İşçi Qrupunun əleyhinə çıxanlar da az deyil. Hətta bəzi məhbuslar bu qurumun hakimiyyətə yaxınlığını iddia edərək, onları müdafiə etməsindən imtina ediblər.

Noyabrın 6-da "Siyasi Məhbuslarsız Azərbaycan" İctimai Alyansının məhbuslarla bağlı hesabatında da İnsan Haqları üzrə İşçi Qrupunun fəaliyyətini tənqid edən çıxışlar olub.

**İşçi Qrupunun İdarə Heyətinin üzvü, hüquq müdafiəçisi Novella Cəfəroğlu gördükləri işlərdən danışdı:** "İşçi Qrupu hazırda məhbusların sənədlərini hazırlayır. Həbs olunduqları maddələri dəqiqləşdiririk. Yaxın günlərdə hazırlayacağımız sənədi təqdim edəcəyik. Fəaliyyətimiz öz müsbət nəticəsini verəcək. Çoxlarının acığına nəticəmiz olacaq".

**Novella Cəfəroğlu onların fəaliyyətinə kölgə salmaq istəyən insanlara sərt cavab verdi:** "Hüquq sayəsində indiyə qədər bizdən başqa çalışan kimdir? İntiqam Əliyev, Rəsul Cəfərov, Emin Hüseynov və Leyla Yunusdan başqa adam göstərsinlər. Onlar da hazırda həbsdə, Emin isə axtarışdadır. Başqa kimlər var ortalıqda? İşçi Qrupu olmamışdan qabaq Nigar Yaqublu, Adnan Hacızadə, Emin Milli və "2 aprelçilər"in azadlığa çıxmasında hansı qruplar işləyirdi? Onda da elə biz işləyirdik. Biz ömür boyu bu insanlarla işləmişik. Türmədə olanlar da, çıxanlar da bunu yaxşı bilirlər. Fuad Ələsgərov, Səməd Seyidov və başqaları ilə işlərimiz olub. İşçi Qrupu Avropa Şurasının təşəbbüsü ilə yaradılıb. İstəyərdik ki, aramızda İntiqam, Emin, Rəsul da olsun. Başqaları hüquq sahəsi ilə məşğul olmayıblar. İndi bəziləri ortalığa düşüblər ki, biz siyasi məhbus olmuşuq. Bacarırsınız gedin iş görün. Başqalarına qara yaxmayın".

**Hüquq müdafiəçisi "Siyasi Məhbuslarsız Azərbaycan" İctimai Alyansının hesabatı zamanı barələrində səsləndirilən tənqidlərə də toxundu:** "Bunların davası hakimiyyətlə işləmək davasıdır. Çalışırlar ki, hökumətlə yalnız bunlar işləsin. Gördükləri işləri ortaya qoysunlar. İndiyə qədər yüzlərlə insanın hüquqlarını qorumuşuq, məsələlərini qaldırmışıq".

**İşçi Qrupunun fəaliyyətindən imtina edən məhbuslarla bağlı Novella Cəfəroğlu bunları dedi:** "Bu məhbuslara məktub yazıblar ki, sizləri Avropa Şurasından buraxdıracağıq. Bəziləri isə buna qol çəkiblər. Anar Məmmədli, Bəşir Süleymanlı, Pərviz Həşimli kimi məhbuslar qol çəkməyiblər. Bizləri tanıyanların heç biri qol çəkməyib. Qol çəkən gəncləri günahlandırmıram. Yanlarında o qədər əcaib şeylər danışırlar ki, onlar da qol çəkirlər. İndi həmin məhbusların yaxınları bizə gəlib deyirlər ki, bilmədən qol çəkiblər. Əvvəldən biz demişik ki, qol çəkənlərin günahı yoxdur. Həbsxanada olan nə bilir ki, bayırda nə proseslər baş verir. Onun üçün heç birindən incimirik. Sadəcə, bunlar əllərində bayraq edirlər ki, Avropa Şurasına getsinlər. Avropa Şurası işimizi yaxından izləyir. 10 ildir biz Avropa Şurasına gedirik. Əgər bilsəydilər ki, biz hökumət adamıyıq, indi çoxdan bizdən imtina etmişdilər. Heç bir söz vecimizə deyil. Sadəcə, əsas işimiz o insanları həbsxanadan çıxarmaqdır. Amma çoxunun maraqlarına uyğundur ki, məhbuslar həbsxanada qalsın. Onlar da bunun hesabına pul alsınlar".

**Novella Cəfəroğlu Leyla Yunusun vəkillərinin prosesdən uzaqlaşdırılması məsələsinə də aydınlıq gətirdi:** "Leyla xanımın xəstəliyi məsələsini qaldırmışıq. Onların vəkillərinin prosesdən uzaqlaşdırılması da diqqətimizdədir. Bütün məsələlər öz yerini tapacaq".

**İşçi Qrupunun üzvü Yeni ildə əfv olacağına ümidlərinin yüksək olduğunu da qeyd etdi:** "Müsbət hallar olmasaydı, biz İşçi Qrupuna getməzdik. Yenə deyirəm ki, biz bu işləri onsuz da görürdük. Sadəcə olaraq, indi hamı birlikdə işləyir. Yeni ildə çoxlu dəyişikliklər olacaq. Buna ürəkdən inanıram".

❑ **Cavanşir ABBASLI**

# Eldəniz Quliyev EL-dən istefa verdi

**Kinodramaturq, Milli Şuranın Koordinasiya Şurasının üzvü Eldəniz Quliyev EL Hərəkatının Ali Məclisinin sədrliyindən və hərəkatın üzvlüyündən istefa verib. Bu barədə Eldəniz Quliyev "Yeni Müsavat"a açıqlamasında bildirib. İstefa verməsinin səbəbinə gəlincə, E.Quliyev dedi ki, vaxtının azlığı bir neçə qurumda fəaliyyətinə imkan vermir.**



Ona görə də qərara gəlib ki, EL-dən istefa versin: "Bilirsiniz ki, Milli Şuranın Koordinasiya Mərkəzinin üzvüyəm. Burada fəaliyyət göstəririrəm. Ona görə də qərara gəldim ki, EL Hərəkatından istefa verim. İki qurumda fəaliyyət göstərməyə vaxtım yoxdur».

E.Quliyev EL Hərəkatının sədri Eldar Namazovla münasibətlərinin normal olduğunu bildirdi. İstefasında münasibətlərin rolunun olmadığını bildirdi.

Qeyd edək ki, hazırda EL Hərəkatı qurultaya hazırlaşır. Eldəniz Quliyev bir müddət əvvəl "Yeni Müsavat"a açıqlamasında EL Hərəkatının onun daxili işlər naziri Ramil Usubovla məhkəmə prosesinə laqeydliyindən şikayətlənmişdi. Hələ o vaxtdan hiss olunurdu ki, tanınmış kinodramaturq EL rəhbərindən razı deyil. Onun istefasında bu amilin də rol oynadığı istisna deyil.

Eldar Namazovun sözügedən istefaya münasibətini öyrənməyə çalışsaq da onunla əlaqə saxlamaq mümkün olmadı.

❑ **E.SEYİDAĞA**

# Dünyanın ən qorxulu adamı



**Hüseynbala SƏLİMOV**

**Forbes dünyanın siyasi nüfuz sahiblərinin adını açıqladı. V.Putinin başçılıq etdiyi bu siyahını dünyanın güclüləri adlandıranlar da oldu. Ən maraqlısı odur ki, V.Putin ikinci dəfə bu nominasiyada ilk yeri tutur...**

Bizə bu, başqa bir aspektdən maraqlı göründü. Əslində V.Putinin siyahıya bu dəfə də başçılıq etməsi təsadüf deyil - Ukraynada etdiklərindən sonra bu, olduqca təbii görünür. Kim daha güclü görünə bilərdi? Bəlkə Şimali Koreyanın prezidenti Kim Çen Ir? Güman ki, o da siyahıda var. Əslində bizim təsəvvürümüzdə iki adam dünyanın ən güclüsü adlana bilərdi - bunlar ABŞ və Rusiya prezidentləri ola bilərdi...

B.Obama Krımın ilhaqının qarşısını ala bilmədi. Bundan sonra Putin cənablarının personasının bir daha qabarması elə də təəccüblü görünmədi. Elə daxildə, Konqresə aralıq seçkilərdə də Obamanın partiyası uğur qazana bilmədi.

Xarici siyasət məsələlərinin daxildə hansı əks-səda yarada bilməsi bizim üçün də tam aydın deyil. Amma insanlar çox güman ki, ölkələrinin harada üstün gəldiyini və harada geri çəkildiyini o qədər də pis bilmirlər...

V.Putin niyə birinci olmalı İdi? Səbəb sadədir. Bu adan dünyanın iki böyük nüvə dövlətindən birinin rəhbəridir. Üstəlik, bu adam öz geosiyasi ambisiyasına kifayət qədər meydan verən adamdır. Qərbdə insanlar özlərini aldadırlar ki, Rusiya hansısa bir qlobal ideyanın daşıyıcısı deyil. Amma reallıq necədir? Həqiqətdə belədirmi?

Təbii ki, yox. Köhnə və Yeni dünya özünü bir daha aldadır. Keçmiş SSRİ ərazisini qaytarmağa çalışmaq qlobal ambisiya deyilmi? Hamı gördü ki, Qərb Ukraynanın ərazisinin bir hissəsinin Rusiya tərəfindən işğal edilməsinə adekvat siyasət nümayiş etdirə bilmədi, çünki Rusiya ilə savaş açmaq Qərbin hətta yuxusuna da girmir...

Qərb sanksiyalar və təzyiq yolunu tutdu. Amma gəlin birinci soyuq müharibəni xatırlayaq. SSRİ-ni soyuq müharibə ilə çökdürmək üçün Qərbə nə qədər vaxt lazım oldu?

Çox fikirləşməyin. Düz yarım əsr, bəli, əlli il. SSRİ-nin planlı, administrativ iqtisadiyyatını çökdürmək üçün Qərbə düz 50 il lazım gəldi.

Bu minvalla bazar iqtisadiyyatına malik Rusiyanı çökdürmək üçün Qərbə nə qədər vaxt lazımdır?

Soruşmayın. Deyə bilməyəcəyik. İndi dünya bipolyar deyil, multi-polyar mənzərə hökm sürür bu dünyada. Rusiya üçün Qərbi, Avropanı əvəz etməyə hazır olan ölkələr çoxdur. Ona görə də anti-Rusiya cəbhəsində elə bir tünlük, sıxlıq hiss olunmur...

Elə bu səbəbdən də sorğulardan V.Putinin ən güclü çıxması o qədər də təəccüblü deyil. Dünya yenidən çətin proqnozlaşdırılan super güclə üzbəüz və çarəsiz qalıb. Bu güc qayda tanımaq istəmir. Bu güc nəzarət bilmir.

Elə bu səbəbdən də onunla hesablaşmaq lazım gəlir. Qəbul etmək lazımdır ki, Qərbin təzyiq arsenalı o qədər də zəngin deyil...

Bəli, Qərb ölkələrdə daxili dəyişikliklər edə bilir. Amma bunlarına arxasında axıra qədər dayana bilmir. Ukrayna göz önündə deyilmi?

İndi bir daha Gürcüstanı diqqətlə izləmək lazımdır. Ötən dəfə bu haqda yazdığımızdan bir daha təkrara yol verməк fikrində deyilik. Maraqlı görünən odur ki, istefa verən nazirlər ölkənin qərbyönümlü siyasətinin təhlükə altında olduğunu deyirlər...

Amma bu da taleyin bir ironiyasıdır. Bu qərbyönümlü siyasətdə azacıq da olsa reallıq varmı? Bəli, biz bilirik ki, Gürcüstan Qərbə can atır. Amma Qərb də bu siyasətə adekvat cavab verə bilirmi?

Əsla. NATO-nun Uelss sammitində də bir şey baş vermədi. Qərb düşünülmüş şəkildə Gürcüstanın, Ukraynanın və Moldovanın NATO-ya inteqrasiyasını uzadır. Bu proses o qədər uzanır ki, qeyri-siyasətçi bir adam bundan tamamilə əl çəkər və daha real işlərlə məşğul olardı. Amma ölkələr və xalqlar hələ də bu perspektivə ümid edir, gözləyirlər ki, hansısa "X sammit"ində Qərb özündə cəsarət tapıb onları öz sıralarına qatacaq...

Amma bu minvalla hələ çox gözləyəcəklər. Ona görə ki, V.Putinin prezidentlik müddəti hələ uzun çəkəcək. Bu adamın başında daha nələr var, bu hətta onun yaxınlarına da məlum deyil...

Ona görə də siyasətdə də hələ bir müddət "al yelkənlər" (A.Qrin) dövrü uzanacaq. Bəli, dənizqırağı ölkələrin birində bir gənc qız vardı. O gözləyirdi ki, bir gün bir al yelkənli gəmi sahilə yan alacaq və həmin gəminin kapitanı- gənc bir şahzadə onu götürüb uzaqlara aparacaq...

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 275 (5984) 8 noyabr 2014

# Erməni generalın 4 il əsir saxladığı azərbaycanlı yeniyetmə kimdir?

## Düşmən ölkənin cani zabiti öz açıqlaması ilə hətta Ermənistan hüquq müdafiəçilərinin də qınaq obyektinə çevrilib; rəsmi Bakı bu faktdan istifadə edib Manvel Qriqoryanı Beynəlxalq Tribunala verə bilər

**Xankəndində kəlbəcərli girovlar üçün qondarma məhkəmə prosesi quran Ermənistan rəhbərliyi Azərbaycanın işğal olunmuş ərazisindəki separatçı hərbi birləşmələrlə birgə genişmiqyaslı təlimlərə başlayıb. Dağlıq Qarabağdakı qondarma rejimə məxsus atsakhpress.am saytı təlimlərə çoxlu hərbi texnikanın, Ermənistan ordusunun da geniş heyətinin qatıldığını xəbər verib. Təlimlərin məhz harada keçirildiyi haqda bilgi verilməsə də, 10 gün çəkəcəyi bəyan olunub. Belə bir ərəfədə Ermənistan ordusu sıralarında Azərbaycana qarşı döyüşmüş generalın sensasion açıqlamaları düşmən ölkənin heç bir beynəlxalq qanunu tanımadığını çılpaqlığı ilə bir daha ortaya qoydu.**

Qanunsuzluq və cinayətkarlıq o həddə çatıb ki, hətta erməni hüquq müdafiəçiləri belə azərbaycanlı yeniyetməni öz evində (!) əsir saxlamış generalı lənətləyib. Söhbət Xocalı soyqırımının təşkilatçısı və iştirakçılarından biri olan general Manvel Qriqoryandan gedir.

Həyasızlığı o həddə çatıb ki, Qarabağ müharibəsində əsir götürdükləri yüzlərlə azərbaycanlıdan birini dörd il evində qul kimi saxladığını açıqlayan erməni general, "Yerkrapa" yarımhərbi təşkilatının rəhbəri M.Qriqoryan hüquq müdafiəçilərinin ona ünvanlanan tənqidlərinə cavab verib. Virtualaz.org saytı xəbər verir ki, general panorama.am saytına açıqlamasında azərbaycanlı əsiri evində saxlamasında "hər hansı problemin olmadığını" deyib. General M.Qriqoryanın evində azərbaycanlı əsir saxladığını açıqlaması Ermənistanda geniş diskussiyalara səbəb olmuşdu. Bəzi erməni hüquq müdafiəçiləri generalın hərəkətinin beynəlxalq konvensiyaların pozulması olduğunu deyərək onun məsuliyyətə cəlb olunmasını tələb etmişdi.

Qeyd edək ki, M.Qriqoryan AzadlıqRadiosunun erməni xidmətinə müsahibəsində demişdi ki, Qarabağ müharibəsindən yüzlərlə azərbaycanlı əsirlə qayıdıb, onlardan birini, 15 yaşlı yeniyetməni iki il Qarabağda, iki il Ermənistanda evində saxlayıb. Qriqoryan əsirə "Simon" adını verib və deyib ki, sonradan onu Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə azad edib.

**"Kimdir bu bəzi "hüquq müdafiəçiləri"? Onlar müharibə görüblər? Bilirlər ki, əsir nədir? Yaxud onu ancaq kinoda görüblər? Bu adamlara məlumdurmu ki, azərbaycanlılar əsirlərlə necə davranıblar? Əgər bilmirlərsə, qoy gəlsinlər, maraqlansınlar, onlara nəsə danışaram. Bundan sonra onlar mənə təşəkkür edəcəklər ki, Simonu evimdə saxlamışam və Azərbaycana sağ-salamat göndərmişəm"** - deyə, Manvel Qriqoryan bildirib.

Erməni general deyib ki, müharibəyə yollananda onun və digərlərinin Cenevrə Konvensiyasını oxumağa vaxtları yox idi: **"Nə Cenevrə Konvensiyası? Mən erməniyəm, xristianam, döyüş meydanında mənim üçün Cenevrə Konvensiyası vicdanım və etiqadım olub. Mən həmişə bunları rəhbər tutmuşam".**

Manvel Qriqoryanın evində saxladığı və o vaxt yeniyetmə olan "Simon"un kimliyi məlum deyil. Azərbaycan tərəfi hələlik erməni generalın bu hərbi cinayət etirafına rəsmən münasibət bildirməyib.

M.Qriqoryan Xocalıda soyqırımı həyata keçirənlərdən biridir və onun dəstəsi azərbaycanlı mülki şəxslərə qarşı xüsusi qəddarlığı ilə seçilib.

Özü də bu sensasion etiraf Xankəndində iki azərbaycanlıya qanunsuz olaraq "məhkəmə" qurulduğu günlərdə açıqlanıb. Əslində bununla erməni general özünü də, təmsil etdiyi cinayətkar dövləti də pis vəziyyətə salıb. Azərbaycan bu faktdan yararlanıb məsələnin araşdırılması üçün bütün imkanlarını səfərbər edə bilər. Düzdür, erməni general vaxt və ya konkret şəxslə bağlı detallı danışmayıb. Ancaq hər halda, Qırmızı Xaça təhvil verilən girovdan söhbət gedir. Deməli, komitəyə rəsmi sorğu göndərib adıçəkilən generaldan təhvil alınan yeniyetmə haqqında bilgilər istəmək olar. Ekspertlər hesab edir ki, faktlar, dəlil-sübutlar toplandıqdan sonra Azərbaycan general Qriqoryanla bağlı qiyabi məhkəmə prosesinə başlaya bilər. Özü də bu prosesin Xankəndindəki girovlarımızla bağlı keçirildiyi günlərdə başlaması əlavə təsir rıçaqları qazandırmış olar. Əsir saxlanmış həmin vətəndaşımızı da zərərçəkən qismində prosesə cəlb etmək, beynəlxalq təşkilatların, diplomatik korpusun iştirakı ilə məhkəmədə ermənilərin iç üzünü açan faktların açıqlanmasına nail olmaq, məsələni Haaqa Tribunalına qədər aparmaq olar.

Qeyd edək ki, Azərbaycanda Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası fəaliyyət göstərir. Bu qurumun xətti ilə də xeyli bilgilər əldə etmək mümkündür. Təəssüf ki, qurumdan məsələyə münasibət öyrənmək mümkün olmadı.

Xatırladaq ki, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası İşçi Qrupu tərəfindən 2012-ci il ərzində keçirilmiş axtarış-araşdırma tədbirləri nəticəsində komissiyada itkin düşmüş şəxs kimi qeydiyyata alınmış şəxslərdən 38 nəfərin taleyinə aydınlıq gətirilmiş, onların adları itkinlərin siyahısından çıxarılmışdır. Həmin şəxslərdən 5 nəfərinin döyüşlərdən və mühasirələrdən sağ çıxdığı, 5 nəfərin döyüşlərdə həlak olduğu, meyitlərinin tanınaraq dəfn edildiyi, 26 nəfərin isə siyahılardan təkrar keçdiyi, 2 nəfərin isə münaqişə bölgəsində kənarda itkin düşdüyü müəyyən edilmişdir.

Beləliklə, 1 avqust 2013-cü il tarixinə əsir, itkin düşmüş və girov götürülmüş şəxslərin sayı 4035 nəfər təşkil etmişdir. Onlardan 3263 nəfər hərbçi, 771 nəfər mülki şəxslərdir. 3 nəfərin hərbçi və ya mülki olduğu məlum deyil.

Mülki şəxslərdən 46 nəfəri itkin düşərkən yetkinlik yaşına çatmamış uşaq *(16 nəfər azyaşlı qız)*, 255 nəfər qadın, 353 nəfər yaşlı şəxsdir *(154 nəfər qadın)*.

Əsir, itkin düşmüş 4035 nəfərdən 877 nəfərin əsir və girov götürülməsi barədə məlumatlar daxil olmuş, şahid ifadələri alınmışdır.

Münaqişə müddətində 1402 nəfər əsir və girovluqdan azad edilmişdir. Onlardan 342 nəfər qadın, 1059 nəfər kişidir. Eyni zamanda 177 nəfər uşaq (64 nəfər azyaşlı qız), 289 nəfər yaşlı şəxsdir (112 nəfər yaşlı qadın).

Dövlət Komissiyasına daxil olmuş materialların təhlili zamanı 553 nəfərin əsir və girovluqda qətlə yetirildiyi və ya müxtəlif səbəblərdən vəfat etdiyi müəyyən edilib. Onlardan 104 nəfər qadın, 448 nəfər kişidir. 137 nəfərin yalnız adı məlumdur, 74 nəfər isə naməlum şəxslərdir. Erməni generalın məntiqindən çıxış etsək, deməli, əsir və girov azərbaycanlılardan hələ də sağ olanlar var.



Manvel Qriqoryan



İlahə Hüseynova

**Beynəlxalq Qırmızı Xaç Komitəsinin rəsmisi İlahə Hüseynova: "Beynəlxalq humanitar hüquqa görə saxlanılmış şəxslər ictimai maraqdan qorunmalıdır və belə məlumatlar açıqlanmamalıdır"**

**BQXK-nın Azərbaycan nümayəndəliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova bildirdi ki, Beynəlxalq Qırmızı Xaç Komitəsi nə saxlanılan şəxslər, nə də vaxtilə saxlanmış şəxslər barədə şəxsi məlumatı heç vaxt açıqlamır:** "Çünki şəxsi məlumatlar konfidensial xarakterlidir. Beynəlxalq humanitar hüquqa görə, saxlanılmış şəxslər ictimai maraqdan qorunmalıdır və belə məlumatlar açıqlanmamalıdır".

**Bəs Beynəlxalq Qırmızı Xaç Komitəsi erməni generalın cinayətinə beynəlxalq hüquq çərçivəsində qiymət verilməsi, əsir saxlandığı deyilən şəxsin kimliyinin müəyyənləşdirilməsi, məsələnin hüquqi müstəvidə çözülməsi üçün Azərbaycanın rəsmi qurumları ilə əməkdaşlıq edə bilərmi? İ.Hüseynova bildirdi ki, ümumiyyətlə, Qırmızı Xaç Komitəsi məhkəmələrdə iştirak etmir:** "O ki qaldı saxlanılan şəxslər barədə məlumata, dövlət tərəfindən də saxlanılan şəxslərlə bağlı məlumatlar toplanır. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası var və həmin qurumun özünün də qeydiyyatı var, bütün məlumatlar orda da yığılır". **İ.Hüseynova Qırmızı Xaçdakı məlumatların Dövlət Komissiyasında da olub-olmamasından məlumatsız olduğunu vurğuladı:** "Heç bizdə olan həmin məlumatların özü də mənim üçün əlçatan deyil. Çünki dediyim kimi, söhbət konfidensiallıqdan gedir".

**Komitənin təmsilçisi erməni generalın yeniyetmə əsirlə bağlı dedikləri barədə bunları da bildirdi:** "Səhv etmirəmsə, həmin şəxsin adı heç yerdə yoxdur. Orda azərbaycanlı əsir haqqında heç bir şəxsi məlumat yoxdur. Yəni həmin məlumatda yeniyetməni edintifikasiya eləyəsi heç bir məlumat yoxdur".

**Erməni generalın açıqladığı bu məlumatları əsas götürüb Qırmızı Xaçın xətti ilə azad olunan əsir və girovların şəxsiyyətini araşdırmaq olmazmı? İ.Hüseynova:** "İndiyə qədər Qırmızı Xaç Komitəsinin xətti ilə 800 nəfərə yaxın şəxs əsirlikdən azad olunub. Amma bu 800 nəfər tərəflərdən hər ikisinə aiddir, yəni söhbət təkcə Azərbaycan tərəfindən getmir". Azərbaycan tərəfinin açıqlamasına görə, müharibədə 4035 nəfərdən artıq vətəndaşımız itkin düşüb. Erməni generalın açıqlamasından sonra düşmən əsirliyində yenə də sağ qalan insanların olması versiyası da gündəmə gəlir. Komitə bu istiqamətdə hərəkətə keçə bilərmi? Təşkilatın təmsilçisi qeyd etdi ki, erməni generalı ilə bağlı məlumata 90-cı illərin əvvəllərindən söhbət gedir və yaxın günlərin məsələsi deyil.

Yeri gəlmişkən, Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) nümayəndələri Kəlbəcərdə girov götürülmüş, hazırda Xankəndində qondarma ittihamlarla günahlandırılan soydaşlarımız Dilqəm Əsgərov və Şahbaz Quliyevə baş çəkiblər. İlahə Hüseynovanın məlumatına görə, sayca 6-cı olan başçəkmə noyabrın 5-də baş tutub. BQXK-nın nümayəndələri Dağlıq Qarabağda saxlanılan azərbaycanlılara ailə məlumatları çatdırıb və onlardan da ailələri üçün məlumat alınıb. Ailələrə çatdırılan məlumatlar şəxsi olduğundan onlar barədə ictimaiyyətə açıqlama verilmir. Komitə rəsmisi qeyd edib ki, Qızıl Xaç Komitəsi öz mandatına uyğun olaraq saxlanılan şəxslərlə görüşləri davam etdirəcək.

**Ehtiyatda olan zabit, polkovnik-leytenant Üzeyir Cəfərov bildirdi ki, azərbaycanlını əsir saxlayan cani generalı yaxşı tanıyır:** "Onun Qarabağ savaşında iştirakı ilə bağlı çoxsaylı faktlar mövcuddur. O ki qaldı onun azərbaycanlı əsiri öz evində saxlamasına, bu, heç kimə sirr deyil ki, istər əvvəlki illərdə, istərsə də indi Ermənistanda heç bir qayda-qanun olmayıb və onların beynəlxalq hüquq və normalardan heç bir anlayışı yoxdur. Əgər Ermənistan ordusunun generalı olmuş bir şəxs hərbi əsiri lazımi qurumlara təhvil verməkdənsə, onu öz şəxsi qulu kimi saxlayıbsa, onda digərlərindən hansı addımı gözləməyə dəyər?" **Hərbi ekspert hesab edir ki, Azərbaycan tərəfi ermənilərin bu etiraflarından maksimum istifadə etməlidir:** "Erməni generalın bu etirafı bir daha hələ də azərbaycanlı girov və əsirlərin Ermənistan ərazisində ola bilməsi məsələsini gündəmə gətirməlidir".

Rəsmi Bakı hələlik ciddi bir skandal mövzusu olan məsələyə, erməni generalın etirafına münasibət bildirməyə tələsmir. XİN-in mətbuat katibi vəzifəsini icra edən Hikmət Hacıyev bu məsələni şərh etmək istəmədi.

Respublika Prokurorluğunun mətbuat xidmətinin rəhbəri Eldar Siltanov da bu məsələyə şərh vermədi.

Amma inanırıq ki, müvafiq instansiyalar erməni cinayətlərindən biri ilə bağlı prosesin izinə düşüb düşmənin öyünərək açıqladığı fakta hətta beynəlxalq miqyasda diqqət cəlb edə biləcəklər.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 275 (5984) 8 noyabr 2014

**Gürcüstanda müdafiə, xarici işlər, Avropa və Avroatlantik inteqrasiya məsələləri üzrə dövlət nazirlərinin, eləcə də bir neçə səfir və deputatın istefa verməsi qonşu ölkədə siyasi böhrana səbəb olub. Hələlik hökumət istefaya getməsə də, istefaların davam etməsi nəticəsində bu, qaçılmaz olacaq. Gürcüstanda istefalar və böhran baş verməsi Azərbaycan üçün də narahatlıq yarada bilər.**

# “Moldova və Gürcüstan seçimlərinin növbəti hesabını ödəməkdədirlər”

## Zahid Oruc: “Əgər NATO ölkələri Gürcüstanı da Ukrayna kimi müdafiə edəcəksə, vəziyyət yaxşı olmayacaq”

Bilindiyi kimi, Azərbaycan Gürcüstan üzərindən bir sıra böyük miqyaslı layihələrə imza atıb. Bakı-Tiflis-Qars dəmir yolu layihəsi, o cümlədən enerji dəhlizi, boru kəmərləri kimi layihələr Gürcüstan üzərindən keçir. Gürcüstanda məhz qərbyönümlü komandanın hökumətdən ayrılması Tiflis üzərindən Moskva təsirinin artması kimi yozulur. Bu isə Azərbaycanın regional layihələrini də zərbə altında qoya bilər.

**Milli Məclisin deputatı Zahid Oruc** Gürcüstanda baş verən siyasi böhranın bütövlükdə regiona təsir edəcəyini düşünür. “Yeni Müsavat”a mövzunu şərh edən deputatın fikrincə, hazırda bağlı qapılar arxasında mövcud iqtidar koalisiyasının müəllifi və gerçək idarəçisi Bdzina İvanişvili proseslərə fəal şəkildə qoşulub və problemin həlli üçün ciddi addımlar atır. Ancaq Z.Orucun fikrincə, bu proses çox getməyəcək: “Xalqın gözləntiləri özünü doğrultmadı və Saakaşvilinin həyata keçirdiyi inqilabı pulla ələ alan və necə deyərlər, növbəti inqilabı törədən ”Gürcü Arzusu” sanki sona çatmaq üzrədir. Müdafiə naziri İrakli Alasaniyanın koalisiyanın tərkibindən çıxması ilə başlayan proses iflas halına qədər inkişaf edə bilər. İddia eləmirəm ki, bu, bir zamanlar proqnozlaşdırdığımız kimi, Saakaşvilinin komandasının revanş götürməsinə səbəb olacaq. Çünki xalqın nəzərində həmin qüvvələr də xeyli dərəcədə nüfuzdan düşüb. Komandanın bir sıra önəmli adamları həbsə atılıb, mediada gözdən salmaq üçün kampaniya aparıb və bütün bunlar öz işini görüb. Ancaq o da var ki, yeni qüvvə də yoxdur".

**Deputat deyir ki, proseslər geopolitik səviyyədə cərəyan edir və böhranın daha da dərinləşməsi realdır:** “Bu, Qərbə doğru getməyə can atan ölkənin növbəti başqa bir formada yenidən cəzalandırılmasıdırmı? Açıq şəkildə bu, assosiativ sazişin növbəti bir zərbəsidirmi? Amma fakt ondan ibarətdir ki, Alasaniyanın dediyi kimi, Gürcüstan nə qədər ki, demokratik institutlar vasitəsilə deyil, bağlı qapılar arxasında idarə olunacaq, bu cür vəziyyətlə üzləşəcək. Baş nazir Qaribaşivli Alasaniyanı ailə maraqlarını daha üstün tutmaqda günahlandırıb”.



**“Gürcüstanda nəfəslik qapansa, bunun ziyanını bütövlükdə Qafqazda hamımız hiss edəcəyik”**

**Z.Oruc deyir ki, nazirlərin, səfirlərin və bir sıra deputatların koalisiyadan çıxmaları həm də xalqın real iqtisadi dəyişikliklərə ümidini itirməsi ilə əlaqədardır. Deputatın fikrincə, cəmiyyətdə gözləntilər vardı ki, 8 milyardlıq kapitala sahib olan İvanişvili ölkənin problemlərini daha güclü şəkildə həll edəcək. Ancaq bu, olmadı və bu səbəbdən də koalisiyaya dəstək azalıb. Zahid Orucun fikrincə, baş verənlərin regiona təsiri olacaq:** “Hökumətə etirazlar davam edəcəksə, məsələ böyüyəcəksə, bu artıq Azərbaycana da təsirini göstərəcək. Gürcüstan bizim Qərbə çıxış yolumuz, mühüm bir transmilli koridordur. Həm də bir demokratiya adasıdır. Avropanın yürütdüyü siyasətin mütəhərrik qaydada ötürücüsüdür. Gürcüstanda nəfəslik qapansa, bunun ziyanını bütövlükdə Qafqazda hamımız hiss edəcəyik. Ona görə də düşünürəm ki, Qərb üçün burada siqnallar var”.

**Z.Oruc deyir ki, yeni müdafiə naziri NATO ilə əməkdaşlığa sadiq olacaqlarını bəyan etsə də, Alasaniya ilə bağlı durum fərqli olub. Deputatın fikrinə, “yeni gürcülər” tam da o gücdə deyillər ki, regiondakı vəziyyəti sağlam şəkildə dəyərləndirib yaxşı bir avropayönümlü kurs müəyyən etsinlər. Z.Oruc hesab edir ki, proseslərin daha da dərinləşməsi Azərbaycan-Gürcüstan-Türkiyə hərbi əməkdaşlığı prosesinə də zərbə olacaq:** “Gürcüstan, Türkiyə və Azərbaycan arasında hərbi ittifaqın arxitekturası cızılıb. Yəni nəinki iqtisadi sfera, eyni zamanda təhlükəsizlik sahəsində əməkdaşlıqda ləngimələr, tormozlanma və mövcud siyasi kursdan geri çəkilmə halları baş verə bilər. Azərbaycan Gürcüstandakı əvvəlki sabit kursun davam etməsini istəyir. Bu böhranın bir an öncə həllinin tərəfindədir. Gürcüstanın inşaat və biznes sektorunda Azərbaycan yatırımının həcmi böyükdür. Bu prosesin çözümü bizim maraqlarımıza uyğundur. Bu mərhələdə Türkiyənin üzərinə daha böyük məsuliyyət düşür. Hesab edirəm ki, son dövrlər qardaş ölkənin siyasi elitasının əsas qayğısı ərəb dünyasındakı problemlər olduğundan sanki Gürcüstan müəyyən mənada unudulub. Qərb müxtəlif hərbi layihələrini Gürcüstanla birlikdə aparsa da, gördüyünüz kimi, ən strateji nöqtədən, yəni ordudan vuruldu. Ordu Gürcüstanın suverenliyinin qarantıdır. Ona görə də mənə elə gəlir ki, Moldova və Gürcüstan indi seçimlərinin növbəti hesabını ödəməkdədirlər. Əgər NATO ölkələri və bütövlükdə Avropa Birliyi Gürcüstanı da Ukrayna kimi müdafiə edəcəklərsə, vəziyyət yaxşı olmayacaq. Regionun geopolitikası tam dəyişə bilər. Bu halda Qafqazın bir qalibi olacaq. Bunu hələ ki tam demək çətin olsa da, yaxın aylarda indiki hakimiyyət özünün yaşarlılıq qabiliyyətini sübut etməlidir. Ruslar buna ”möhkəmlik testi” deyirlər. Bundan çıxa bilməsələr Bdzinanın məğlubiyyəti Qafqazın ziyanına olacaq. Baxmayaraq ki, bir çoxları hələ də düşünürlər ki, hazırkı hakimiyyətin əsas sahibi Rusiyadır. Düşünmürəm ki, bu prosesdə İvanişvili Qorbaçovun SSRİ-nin süqutundakı rolunu yerinə yetirir.

Belə bir iddia var ki, Gürcüstanda qərbpərəstləri tam şəkildə aradan qaldırmaq üçün Bdzinanın əli ilə bu oyunu oynadılar. Ancaq bu da konspirasiyalardır. Gürcüstanda Avropa kursundan dönmə baş versə, bu, sizin qeyd etdiyiniz layihələrin də ziyanına olacaq, müxtəlif hərbi və təhlükəsizlik alyanslarının da üzərindən xətt çəkilə bilər. Baxın, indi GUAM haradadır? Sanki tarixə tapşırılıb. Belə bir ssenari gözlənilə bilər".

❑ KƏNAN

## Xətaidəki “yaşıl soyqırım”la bağlı yeni sensasion məlumatlar

**Xətai rayonu, İnqilab İsmayılov küçəsi 4, 5, 6 saylı binaların həyətində yerləşən təqribən 60 sot yaşıllıq zonanın məhvi ilə bağlı redaksiyamıza sensaion məlumatlar daxil olub. Bu, təkcə məlumat deyil - arxasında ciddi sənədlərin dayandığı faktdır! Həmin sənədlərə söykənən fakt bir çox məmurları ifşa etmək gücündədir. Sənədlərdən aydın olur ki, bir sıra iri rütbəli məmurlar Bakının az sayda qalan yaşıllıq zonasını öz tamahlarına və korrupsiya ehtiraslarına qurban veriblər.**


AZƏRBAYCAN RESPUBLİKASI
BAKI ŞƏHƏR İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI
SƏRƏNCAM
ÇIXARIŞ
0414978

# Hacıbala Abutalıbovun gizli sərəncamı üzə çıxdı

## 4 milyon yarıma satıldığı deyilən 60 sot ərazidə ağacların qırılıb yerində yaşayış kompleksi tikilməsinə Bakının icra başçısı razılıq veribmiş; özəl mənbələrdən “Yeni Müsavat”a Abutalıbovun imzası və möhürü olan sənəd daxil olub...

Beləliklə, məlum olur ki, İnqilab İsmayılov küçəsindəki ərazidə 40-a yaxın 30 illik şam və küknar ağacının məhv edilməsini labüd edən sərəncamı Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) başçısı Hacıbala Abutalıbov imzalayıb. Yada salaq ki, noyabrın 1-də gecə yarısı baş tutan “yaşıl soyqırım”a etiraz edən sakinlər saxlanılmışdı. Bildirilirdi ki, sahibkar Araz Quliyev ərazidə 3 göydələn tikməyi planlaşdırır. Xətaidən deputat olan İqbal Ağazadənin müdaxiləsindən sonra sakinlər azad edilmiş, ərazidə “yaşıl soyqırım” dayandırılmışdı. “Yeni Müsavat” ərazidən reportaj hazırlayandan sonra, noyabrın 2-də Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov ora baş çəkmişdi. Bundan sonra yaşıllıqların məhv edildiyi torpaqda BŞİH tərəfindən “Qanunsuz zəbt edilmiş ərazi Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən sökülmüş və abadlaşdırılır” sözləri yazılmış 3 lövhə vurulmuşdu. Bu lövhələrdə yazılanlarla tanış olanlar torpağı sahibkara verə biləcək məmurlar sırasında Bakı merinin adının olacağına bəlkə də inanmazdı...

Sakinlər Mənzil İstismar Sahəsi (MİS) işçilərinin ərazidə əkilmiş təqribən 100-ə yaxın şam ağacına qulluq etməsinin də Hacıbala Abutalıbovun xoş niyyətli addımı kimi qiymətləndirirdilər. MİS işçiləri əməkdaşımıza demişdi ki, məsələ Bakı merinin şəxsi nəzarətindədir. Əldə etdiyimiz sənəd Hacıbala Abutalıbovun şəxsi keyfiyyətləri ilə yanaşı əraziyə marağının haradan qaynaqlandığını ortaya qoyur.

**Hacıbala Abutalıbov sözügedən sərəncamı 20 avqust 2014-cü ildə, təqribən 2 ay yarım öncə imzalayıb. 390 saylı sərəncamda yazılır:** “Nyu Sfera İnşaat” Məhdud Məsuliyyətli Cəmiyyətinin 15 avqust 2014-cü il tarixli, 02/16 saylı müraciətini, Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 20 iyun 2014-cü il tarixli, 0414978 saylı çıxarışın və vətəndaş Quliyev Araz İman oğlunun notarial qaydada təsdiq olunmuş razılıq ərizəsini nəzərə alaraq Xətai rayonu, 2935 B saylı məhəllə, İ. İsmayılov küçəsi 3V saylı ünvanda özünə məxsus 0,4 ha torpaq sahəsində yüksək mərtəbəli yaşayış binasının tikintisinin layihələndirilməsi üçün həmin cəmiyyətə icazə verilsin".

Sərəncamda və ərazidə vurulan 3 lövhənin üzərində yazılanlar daban-dabana ziddir. Hacıbala Abutalıbov bir tərəfdən “yaşıl soyqırım”a yol açan sərəncama imza atır, digər tərəfdən isə onun qarşısını alır. Belə çıxır ki, Bakı meri həmin sərəncamı imzalayarkən onun qanuni olmadığını bilib, amma imza atıb. Bu qanunsuzluğa Hacıbala Abutalıbovu sürükləyən nə və ya kim olub?

Bu suala bir neçə cavab var. Məsələn, sərəncamı Hacıbala Abutalıbovun adından uzun illər BŞİH-də qeyri-rəsmi çalışan Nərminə İsakova imzalayıb. Və ya Hacıbala Abutalıbov sərəncama gecədən xeyli keçmiş imza atıb.

Hətta iddialar var ki, 60 sotluq ərazidə 3 hündür mərtəbəli binanın tikilməsi üçün 4,5 milyon manat ödənilib.

Fakt budur ki, mübahisə doğuran ərazidə “yaşıl soyqırım”a sərəncamı Bakının icra başçısı verib.




Sonradan H.Abutalıbovun inkarçılıq mövqeyində dayanmasının bir səbəbi də prezidentin məlum müşavirədə söylədiyi nitqidir. İlham Əliyev son müşavirədə məmurlara göstəriş vermişdi ki, Bakı şəhərinin ərazisində tikinti işləri aparmaq istəyən sahibkarlara çirklənmiş, məişət tullantılarının olduğu ərazilər təklif olunsun. Bakı meri isə prezidentin bu göstərişini nədənsə unudub. Belə görünür ki, ərazidə baş verənlər, deputat İqbal Ağazadənin müdaxiləsi H.Abutalıbovu silkələyib və o, sərəncamını da unudub. Hazırda ərazidə heç bir tikinti aparılmır.

Xatırladaq ki, İ.Ağazadə əməkdaşımıza demişdi ki, 2007-ci ildən etibarən Xətai rayonunda bələdiyyə torpağı yoxdur. Ancaq 2014-cü ildə guya bu ərazi satın alınıb. Deputat “Əgər fondda torpaq olmayıbsa, bu ərazi necə satın alınıb?” deyə sual etmişdi. Deputat bildirmişdi ki, baş verənlərlə bağlı Əmlak Komitəsi qarşısında da məsələ qaldıracaq.

❑ E.HÜSEYNOV

YENİ MÜSAVAT
N 275 (5984) 8 noyabr 2014

# "Sevil massivi"nin qurbanları noyabrın 14-də aksiya keçirəcəklər

## MTK rəhbəri Hacı Aynurun həbsinə görə pulları batan vətəndaşlar Abşeron icra başçısı Zakir Fərəcovu onları aldatmaqda ittiham edir, rayon rəsmiləri isə pullar hissə-hissə qaytarılacaq deyir; "AAAF" MTK-nın da başı üzərində "qara buludlar" dolaşır




**"Sevil massivi" MTK tərəfindən aldadılan payçılar etiraz aksiyalarına hazırlaşır. MMC rəhbəri Hacı Aynur Zeynalovun mənimsədiyi 68 milyonun qurbanları noyabrın 14-də piket keçirmək qərarı veriblər. Aldadılmış vətəndaşlar saat 12:00-da Abşeron Rayon İcra Hakimiyyəti qarşısında yığışaraq mənimsənilən pullarını geri tələb edəcəklər.**

Sakinlərin sözlərinə görə, Abşeron rayon rəhbərliyi onları aldadır, get-gələ salır. Odur ki, mülkiyyət sahibləri piket keçirməyi qərarlaşdırıblar. Hazırda Abşeron Rayon İcra Hakimiyyətində pulların notarial qaydada qaytarılması üçün komissiya yaradılıb.

Komissiyanın üzvü icra hakimiyyətinin Xırdalan şəhəri üzrə nümayəndəsi Fikrət Orucovdur. Payçılar deyirlər ki, F.Orucov hər kəsə fərqli vədlər verir, onları süründürür, get-gələ salır. Bu da zərərçəkmişləri narahat etməyə bilməz. Odur ki, noyabrın 14-də Abşeron RİH binası qarşısında aksiya keçiriləcək.

F.Orucov isə bununla bağlı bizimyol.az saytına deyib ki, vətəndaşların probleminin həll olunmasına çalışırlar. Onun sözlərinə görə, istintaq yekunlaşmadan, məhkəmə olmadan zərərçəkmişlərin vəsaiti icra hakimiyyəti və bələdiyyə hesabına ödənilir. F.Orucov bildirib ki, məqsəd narazı vətəndaşların problemini həll etməkdir. Ancaq zərərçəkmişlər Abşeron rayon rəhbərliyi tərəfindən aldadıldıqlarını qeyd edirlər və aksiyaya hazırlıq görürlər.

Ümumiyyətlə, "Sevil massivi" MTK rəhbərinin həbsindən sonra minlərlə ev, torpaq sahəsi alan insanların problemi həll edilməmiş qalır. Şirkətin faizsiz kredit təklifi müştərilərin şirkətlə müqavilə bağlamasında rol oynayıb. Nəticədə yüzlərlə insanın pulu batıb.

**Məsələn, zərərçəkən Ramiz Quliyev deyib ki, Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin çıxarışlar verməsi "Sevil"in dövlət tərəfindən qəbul edilmiş yaşayış ərazisi olmasını sübut edir:** "Son iki ayda "Sevil"də işlər dayanıb. 250-yə yaxın tam və ya yarımçıq tikilmiş evlərin sahibləri, hələ bünövrəsi qoyulmamış binalarda mənzil almış vətəndaşlar çətin vəziyyətə düşüblər. Üç minə yaxın müştəri və onların ailə üzvləri, təxminən 9-10 min vətəndaş gərgin vəziyyətdədir".

**R.Quliyev deyib ki, torpaq sahəsinə görə Dövlət Reyestri Xidmətindən mülkiyyətçilərə verilən çıxarış pulla Hökməli bələdiyyəsi tərəfindən alınır:** "Bu, müştərilərin qanuna əsaslanan mülkiyyət hüquqlarının, ümumilikdə isə "Sevil" massivindəki həqiqətlərin gizlədilməsi məqsədini daşıyır. Çıxarışların alınması nəticəsində zərərçəkmişlər gələcəkdə öz hüquqlarını müdafiə edə bilməyəcək".

**Zərərçəkən Azad Sultanzadə iddia edir ki, Hacı Aynur vətəndaşların 68 milyon manatını mənimsəyib. Pulunu ala bilməyən zərərçəkən Xədicə Əliyevanın sözlərinə görə, "Sevil" yeni yaşayış massivi dağılmayacaq:** "Bu sözü bizə bir məmur dedi. Dedi ki, o massivin hər şəraiti var - kanalizasiya, su, işıq xətti və nəqliyyat yolu çəkilib. Odur ki, ora dağılmayacaq. Pullar vətəndaşlara qaytarılacaq və yenidən "Sevil" yaşayış massivi satışa çıxarılacaq".

Payçılar qeyd edirlər ki, krediti tam başa çatmayan torpaqlarda tikinti aparılıb. İndi onlara görə ödənilən ilkin ödəniş və kreditlərin qaytarılacağı deyilsə də, tikintiyə sərf edilən vəsaitlə bağlı məsələ açıq qalır. Bir neçə nəfərə torpağa ödədiyi pul qaytarılıb, amma tikinti pulu qaytarılmayıb. Üstəlik də zərərçəkmişin sənədləri alındən alınıb. Ümumilikdə sentyabr ayından pulların verilməsi dayandırılıb və izah edirlər ki, vəsait yoxdur.

Ödənilən pulların "Sevil"in rəhbərliyinə aidiyyəti yoxdur. Bunu bələdiyyə sədri və icra başçısı ödəyib ki, narazılıq bir az sengisin. Çünki onların da bu məsələdə payı var. Komissiyanın üzvü, Hökməli bələdiyyəsinin memarı Akif Əhmədov isə deyib ki, mərhələli şəkildə zərərçəkmişlərin vəsaiti qaytarılacaq.

Qeyd edək ki, "Sevil" MTK rəhbərinin həbsini ilk olaraq "Yeni Müsavat"a yazmışdı. Daha sonra Baş Prokurorluq rəsmi məlumat yayaraq faktı təsdiqlədi. "Sevil Massivi" MTK rəhbərliyi vergidən yayınma və qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmaqda ittiham edilib.

Şirkətin təsisçisi Aynur Zeynalov və həmin kooperativin direktoru Elçin İsmayılov həbs ediliblər. Hökməli kəndinin bələdiyyə sədri Mirnemət Mirsadiyev isə işindən azad olunub. Onu da deyək ki, son günlər analoji proses "AAAF" MTK ilə bağlı yaşanır. Xırdalanda yerləşən bu nəhəng tikinti şirkətinin də başı üzərində "qara buludlar" dolaşır.

Həmçinin MTK-dan narazıların sayı durmadan artır. Bugünlərdə ayrı-ayrı mətbuat səhifələrində "AAAF" MTK-dan mənzil alan payçıların şikayətləri dərc olunub. Vətəndaşlar onlara vəd edilən vaxtda mənzillərin təhvil verilməməsindən gileylənirlər.

Üstəgəl, bugünlərdə şirkət rəhbəri Hacı Tofiq Heydərovun saxlanması xəbərləri yayılmışdı. Belə görünür ki, onun da vəziyyəti ürəkaçan deyil.

Ümumilikdə isə Bakıda onlarla tikinti şirkətinin rəhbəri dələduzluğa görə həbs olunub, 5 mindən çox vətəndaşın pulu mənimsənilib. Bu sırada "GEN" MMC, "Mur-Ay", "Oscar", "Birlik", "Kamran" və s. tikinti firmalarının adlarını çəkmək olar.

❑ E.SALAMOĞLU

# Milli komandada baş məşqçisi müəmması: Mançinini gözləməyin...

## AFFA prezidentinin komandaya yeni rəhbərliklə bağlı açıqlaması belə deməyə əsas verir

**AFFA-nın Azərbaycan milli komandasına yeni baş məşqçinin kimin gətiriləcəyi ilə bağlı müxtəlif xəbərlər yayılır. Ötən il müqaviləsi yenilənmiş almaniyalı mütəxəssis Berti Foqts Xorvatiyaya səfərdə 0:6-lıq məğlubiyyətdən sonra istefaya gedib və hazırda milli komandanı növbəti görüşə Mahmud Qurbanov hazırlayır. Məlumatlara görə, AFFA hazırda bir sıra mütəxəssislərlə danışıqlar aparır.**



Rövnəq Abdullayev

AFFA rəhbərliyinin Braziliya futbolunun canlı əfsanəsi, "Sivasspor" klubunun baş məşqçisi Roberto Karlosla Parisdə görüşü keçirilib. Görüş zamanı Azərbaycan tərəfinin gözləntiləri və tələbləri braziliyalı mütəxəssisə təqdim olunub. Karlos da öz növbəsində yığmadakı rolunu və lazımi nəticələr qazanmaq üçün nələr edə biləcəyini açıqlayıb.

R.Karlosla yanaşı, Azərbaycan millisinin baş məşqçi vəzifəsinə namizədlər sırasında İtaliyanın gənclərdən ibarət yığmasının, "Yuventus" və "Sampdoriya"nın sabiq çalışdırıcısı Çiro Ferrara da var. Həmçinin yaxın keçmişdə Bakıda səfərdə olan İtaliya millisinin sabiq üzvü Canluici Zambrotta ilə də müzakirələr aparılıb.

Tezliklə İtaliya və İngiltərədə çempionluq sevinci yaşamış Roberto Mançini ilə danışıqlara başlanacaq. Azərbaycan millisinin hansı mütəxəssisə ehtiyacı olması ilə bağlı paralel təhlillər aparılacaq. Yuxarıda adları çəkilən mütəxəssislərdən ən titullusu Roberto Mançinidir. Lakin Mançini ilə yanaşı, AFFA-nın digər titullu məşqçilərlə də danışıqlar apardığı bildirilirdi. Hələlik həmin mütəxəssislərin kimliyi məlum deyil.

Qeyd edək ki, AFFA bir müddət öncə Azərbaycan millisinin baş məşqçi vəzifəsinə namizəd 10 mütəxəssislə danışıqlar apardığını açıqlamışdı. Onların sırasında xorvatiyalı mütəxəssis Robert Prosineçki də vardı. Prosineçki bugünlərdə Fransada AFFA nümayəndələri ilə görüşdüyünü təsdiqləmişdi. Xorvat mütəxəssis "onlarla müəyyən danışıqlarımız oldu. Məni mlə görüşən AFFA-nın səlahiyyətli nümayəndələri Azərbaycan millisinin baş məşqçi postuna namizədlərdən biri olduğumu dedilər. Bu yalnız bir görüş idi. Ətraflı heç bir şey danışmadıq" deyə, bildirib.

**Prosineçki AFFA ilə anlaşması barədə xəbərləri də təkzib edib:** "Xorvatiya mətbuatında çıxan xəbərlər hamısı yalandı. Heç bir razılıq əldə olunmayıb. AFFA da heç bir öhdəlik götürmədi. Yaxın gələcəkdə yeni danışıqlar ola bilər. Ondan sonra sizə hər hansı açıqlama verə bilərik. Səhv etmirəmsə, azərbaycanlılar məndən başqa məşqçilərlə də görüşüblər. Əgər seçim mən olsam, hamınız biləcəksiniz".

Qeyd edək ki, milliyə rəhbərlik edəcək məşqçilər arasında "Qarabağ"ın çalışdırıcısı Qurban Qurbanovun da adı çəkilirdi.

AFFA prezidenti Rövnəq Abdullayev ötən gün milli komandaya kimin rəhbərlik edəcəyi ilə bağlı bəzi suallara aydınlıq gətirib. (ANS). R.Abdullayev birmənalı deyib ki, AFFA yerli məşqçilərin xidmətindən istifadə etməyəcək.

**"Yığma komandaya əcnəbi baş məşqçi gətiriləcək" deyən, AFFA prezidenti hazırda komandaya baş məşqçi axtarışları davam etdiyini bildirib:** "Hələlik real namizəd yoxdur. İndi kimə salam verirsən deyir Azərbaycan yığmasına baş məşqçi gedirəm. Belə bir məsəl var, atları yarı yolda dəyişməzlər. Berti Foqts bizi pis vəziyyətdə qoydu. Yarı yolda qoyub getdi. İndi yeni baş məşqçi ilə bağlı fikirləşirik".

AFFA rəhbəri əlavə edib ki, yeni baş məşqçi gətirməyə ehtiyac olacaq. Bu isə o deməkdir ki, Mançini kimi baş məşqçiləri millimizin sükanı arxasında görmək azarkeşlərə qismət olmayacaq.

❑ Xəbər xidməti



# Şəmkirdə silahlı basqın: 5 nəfər yaralandı

**Şəmkir rayonunda evə basqın olub. Şəmkir Rayon Polis Şöbəsindən APA-nın qərb bürosuna verilən məlumata görə, hadisə noyabrın 7-də saat 1 radələrində məcburi köçkünlərin məskunlaşdığı yaşayış massivində baş verib. Maska taxmış, odlu və soyuq silahlarla silahlanmış 4 nəfər 1958-ci il təvəllüdlü Hüseyn Səfərovun evinə basqın edib. Evdən 6600 manat, 1 milyon rus rublu və xeyli qızıl-zinət əşyaları aparan silahlılar ev sahibinə, onun həyat yoldaşı, 62 yaşlı Ağgül Səfərovaya, oğlu, 32 yaşlı Ruslan Səfərova və gəlini, 23 yaşlı Röyalə Səfərovaya soyuq silahla bədən xəsarətləri yetiriblər.**

Həmçinin evə qonaq gəlmiş Gədəbəy rayon sakini, 61 yaşlı Qətibə adlı qadın da hücuma məruz qalıb.

Yaralılardan 4-ü Şəmkir Rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib. Onlardan birinin vəziyyətinin ağır olduğu bildirilir.

Silahlı basqını törədənlərin tapılması istiqamətində Şəmkir Rayon Polis Şöbəsində əməliyyat-axtarış tədbirləri həyata keçirilir.

YENİ MÜSAVAT
N 275 (5984) 8 noyabr 2014

# Bakıda nişanlı qız və oğlan dəm qazından boğuldu

## İlkin məlumatda bildirilir ki, onlar dəm qazından boğularaq ölüblər



**Bakının Binqədi rayonunda nişanlı qızla oğlanın meyiti evdə tapılıb. Binəqədi rayon Polis İdarəsi 4-cü polis bölməsindən ANS PRESS-ə verilən məlumata görə, hadisə Binəqədi qəsəbəsi Ramazanov küçəsi 2 ünvanında qeydə alınıb.**

Bakı şəhər sakinləri, 1992-ci il təvəllüdlü Yusifə Yusif qızı Mirzəyeva və nişanlısı, 1990-cı il təvəllüdlü Ceyhun Qədeş oğlu Ələsgərovun yaşadıqları evdə meyiti tapılıb. İlkin məlumatda bildirilir ki, onlar dəm qazından boğularaq ölüblər.

**Faktla bağlı araşdırma aparılır.**




# Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

# Qadın zorlayan 19 yaşlı məhkum ölüb

**Azərbaycanda məhkum ölüb. APA-nın verdiyi məlumata görə, hadisə Ədliyyə Nazirliyi Penitensiar Xidmətin Müalicə Müəssisəsində qeydə alınıb. Müəssisədə müalicə olunan məhkum, 1995-ci il təvəllüdlü Ruslan Murad oğlu Alıyev xəstəlikdən dünyasını dəyişib.**

R.Alıyev zorlamada təqsirli bilinərək azadlıqdan məhrum edilib.

Nizami rayon Prokurorluğundan məhkumun ölüm faktını təsdiqləyiblər.

# Qadının əl-ayağını bağlayıb yandırdılar

**Gəncədə yanan evdən meyit tapılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən ANS PRESS-ə verilən məlumata görə, hadisə ötən gecə saat 02 radələrində Gəncə şəhərinin Ü.Hacıbəyli küçəsində qeydə alınıb.**

Pərvanə İsmayılovaya məxsus 1 otaqlı evdə yanğın baş verib. Nəticədə 15 kvm. sahədə yanar konstruksiyalar və oradakı əşyalar yanıb. Yanğın söndürüldükdən sonra evdə P.İsmayılovanın əl və ayaqları naqillə bağlanmış vəziyyətdə olan, qismən yanmış meyiti tapılıb.

Gəncə ŞBPİ tərəfindən əməliyyat-axtarış tədbirləri aparılır.

# İtkin neftçinin meyiti tapıldı

**"Azneft" İstehsalat Birliyinin N.Nərimanov adına Neft və Qazçıxarma İdarəsinin ərazisində baş verən qəzada itkin düşən şəxsin meyiti tapılıb. Azərbaycan Dövlət Neft Şirkətinin (ARDNŞ) mətbuat xidmətindən APA-ya verilən məlumata görə, N.Nərimanov adına Neft və Qazçıxarma İdarəsinin ərazisində yerləşən 310 və 312 saylı meydançalar arasındakı təqribən 60 metrlik estakadada uçqun baş verib, nəticədə estakadanın üzərindən keçən 250 mm diametlik neft xətti qırılıb. Qəzanın daha böyük miqyas almaması məqsədi ilə NQÇİ-nin ərazidə olan 5 nəfər işçisi 307 saylı meydançaya gedərək təmir işləri aparıb, beləliklə, yanğının və neftin dənizə axma təhlükəsinin qarşısı alınıb. Lakin geri dönərkən onların üzərində olduqları qəzalı meydança da uçub və onlar dənizə düşüblər.**

Operativ xilasetmə tədbirləri nəticəsində 4 nəfər dənizdən çıxarılıb. Onlardan 1 nəfəri dünyasını dəyişib. İtkin düşmüş 1 nəfərin - NQÇİ-nin təmirçi-çilingəri olan, 1971-ci il təvəllüdlü Yusipov Oqtay Nazim oğlunun axtarışı ARDNŞ-in və FHN-in dalğıcları tərəfindən davam etdirilib, noyabrın 7-də saat 11.30 radələrində onun cəsədi hadisə yerindən dənizin dibindən tapılaraq sahilə çıxarılıb.

## Elan

**Azadlıq prospekti, ABŞ səfirliyi və Nəsimi Rayon Polis İdarəsinin yanında, 12 mərtəbəli binanın 4-cü mərtəbəsində, 90kv.m.-lik 3 otaqlı mənzil satılır. Sahibindən.**
**Telefon (050) 3885035**

## Beynəlxalq Təhsil Mərkəzi

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

< *Kiyev Dövlət Texniki Universiteti*
< *Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
< *Kremençuk Dövlət Universiteti*
< *Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
< *Kiyev Dövlət Dəniz Akademiyası*
< *Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
< *Tbilisi Dövlət Tibb Universiteti*
< *Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
< *Minsk Dövlət Universiteti*
< *Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
< *Qrodno Dövlət Universiteti*
< *Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
< *Volqoqrad Dövlət Aqrar Universiteti.*
< *Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A «Nərimanov» m-su**
**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**

# "Nar Mobile" hər bir könüllünü Avropa oyunlarına töhfə verməyə səslədi

## Avropa oyunlarına öz töhfəsini verən könüllülər mobil operatordan xüsusi bonus qazanacaqlar

**"Nar Mobile" mobil operatoru Bakı-2015 Avropa oyunlarına öz töhfəsini vermək istəyən hər bir vətəndaşın bu təşəbbüsünü dəstəkləmək məqsədilə xüsusi aksiyaya start verib. Belə ki, mobil operator ilk Avropa oyunlarına könüllü olaraq qatılaraq öz töhfəsini vermək istəyən hər bir kəs üçün xüsusi hədiyyə paketi hazırlayıb.**

Aksiya çərçivəsində "Nar Mobile" mobil operatoruna qoşulan könüllülər pulsuz SIM kart, öz aralarında aylıq 300 dəqiqəlik danışıq, 300 SMS və 300 MB İnternet trafiki kimi bonuslar əldə edəcək, bu limit bitdikdən sonra isə dəqiqəsi cəmi 2 qəpikdən danışmaq fürsəti qazanacaqlar. Könüllülər arasında keçirilən müsabiqənin qalibləri isə əlavə hədiyyələr qazanmaq imkanına sahib olacaqlar.

Bakı-2015 Avropa oyunlarının rəsmi tərəfdaşı olan "Nar Mobile" mobil operatoru hər kəsi ümumi uğurumuza könül verməyə səsləyir.



# Bakıda doğum evində oğurluq-2400 manat və telefon

**Lökbatan qəsəbəsində yerləşən 4 saylı doğum evində oğurluq olub. "Qafqazinfo"ya Bakı Şəhər BPİ-dən verilən məlumata görə, hadisə noyabrın 6-da baş verib. Qazax rayon sakini Sevil Mansurovaya məxsus içərisində mobil telefon və 2400 manat olan pul kisəsi oğurlanıb. Hadisəni törətməkdə şübhəli bilinən Bakı şəhər sakini 1954-cü il təvəllüdlü Şahnaz Mövsümova saxlanılıb.**

# Sumqayıtda kimya zavodunda partlayış oldu

**Noyabrın 6-dan 7-nə keçən gecə "Azərkimya" İstehsalat Birliyinin Etilen-Polietilen Zavodunun Sumqayıtın Hacı Zeynalabdin Tağıyev qəsəbəsi ərazisindəki neft-kimya məhsullarının qəbulu və buraxılması sahəsində həyəcanlı anlar yaşanıb. APA TV-nin məlumatına görə, neft məhsullarının saxlanıldığı ərazidə böyük benzin çənlərindən birində kiçik partlayış baş verib və bu, həyəcana səbəb olub.**

Zavodun direktoru Oqtay Niftəliyev deyib ki, bura çox strateji obyektdir və ciddi nəzarət altındadır. Burada 15 min kub metrlik benzin çənləri var. Ona görə də istənilən hadisə baş verəndə reaksiya güclü olur.

Partlayışdan dərhal sonra Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğından Mühafizə Xidmətinin Sumqayıt qarnizonunun canlı qüvvəsi və texnikası hadisə yerinə cəlb edilib, xidmətin Abşeron hissəsi isə hazır vəziyyətə gətirilib. Vaxtında edilən müdaxilə nəticəsində çəndə yanğın baş verməsinin qarşısı alınıb: "Heç bir xəsarət, itki və dağıntı yoxdur. Zavod adi qaydada işini davam etdirir. Araşdırma aparılacaq ki, partlayış nədən baş verib".

Faktla bağlı araşdırmalara başlanılıb. Strateji obyektdə baş vermiş insidentin dəqiq səbəbi araşdırmalardan sonra məlum olacaq.

# Ağcabədidə narkotik əməliyyatı - 4 nəfər saxlanıldı

**Ağcabədi Rayon Polis İdarəsi Narkotiklərlə Mübarizə Bölməsi narkotik maddələrin qanunsuz dövriyyəsinə qarşı uğurlu əməliyyat tədbiri həyata keçirib. "Qafqazinfo"nun əldə etdiyi məlumata görə, əməliyyat tədbirləri nəticəsində əvvəllər də narkotik alveri ilə məşğul olduqları üçün məhkum olunmuş dörd nəfər saxlanılıb.**

Belə ki, oktyabrın 28-də Ağcabədi şəhər sakini Mehrəliyev Bəxtiyar Məmməd oğlunun üzərindən 480 qram, oktyabrın 29-u Ağcabədinin Hindağ kənd sakini Allahverdiyev Samir Radil oğlundan 6,2 qram, noyabrın 4-ü Ağcabədi şəhər Xan Şuşinski küçəsi, ev 36-da yaşayan Paşayev Ruslan Füzuli oğlundan 477 qram qurudulmuş marixuana, noyabrın 5-i Bakı şəhər Hövsan qəsəbəsi Əhlimanov küçəsi, ev 10b, mənzil 45-də yaşayan Ələkbərov İsmayıl Əsgərxan oğlundan 0,614 qram narkotik vasitə olan heroin aşkar edilərək götürülüb.

Hər dörd faktla bağlı cinayət işi başlanıb, hazırda iş üzrə istintaq tədbirləri davam etdirilir.

YENİ MÜSAVAT
N 275 (5984) 8 noyabr 2014

**Bakı yollarının tıxacın əsirinə çevrilməsi yenilik deyil. Tikilən yeni körpülər, keçidlər, Nəqliyyatın İntellektual İdarəetmə sistemi də buna yardım edə bilməyib. Hər gün sürücülər yollarda az qala tapmaca tapırmış kimi dilemma qarşısında qalır: Hansı yolla, haradan mənzil başına çatmalı? Çünki Bakı yolları az qala "kinder sürpriz" yumurtası kimidir. Harada, nə zaman qazıntı olacağı, bağlanacağı bəlli deyil. Heç bir xəbərdarlıq edilmədən yollardakı bu gözlənilməz situasiya sürücülərin vaxt, pul, benzin itirməsi ilə nəticələnir.**






# Tıxacı yaradan səbəblər və çıxış yolları...

## Bu problem bütün dünyada var; Bakıdakı tıxacların "özəllikləri"

Məsələn, noyabrın 7-də Bakının əksər mərkəzi prospekt və küçələrində dəhşətli tıxac yaranıb. Heydər Əliyev və Babək prospektlərində, Füzuli, Rəşid Behbudov, Afiyəddin Cəlilov, Nəcəfqulu Rəfiyev, akademik Həsən Əliyev, Təbriz, Fətəli Xan Xoyski, Ağa Nemətulla, Fəzail Bayramov, Əliyar Əliyev və Əhməd Rəcəbli küçələrində hərəkət dayanıb. Buna səbəb kimi Koroğlu Rəhimov küçəsinin 3 günlük təmirə bağlanması göstərilir. Sürücülərə isə alternativ yollardan istifadə etmək tövsiyə olundu. Baxmayaraq ki, bununla bağlı da ciddi problemlər var. Bu barədə bir qədər sonra...

### Siyahıda birincidir, birinci...

Adətən tıxacdan söz düşəndə hər kəs dünyanın iri şəhərlərində də bu problemin aktual olduğunu təsəlli kimi səsləndirir. Zəruri qeyd yerinə düşər ki, uzun tıxaclarla bağlı statistika, reytinq cədvəli ildən-ilə dəyişir. Amma biz sizə son reytinq cədvəlini təqdim edəcəyik. Britaniya KİV-ləri dünyanın ən qorxunc tıxaclarının siyahısını hazırlayıb. Bunun üçün dünyanın ən çox yüklənmiş yolları, sürücülərin itirilən vaxtları, habelə itirilən yanacaq miqdarı da hesablanıb. Reytinqə ən yaxın qonşularımızdan olan Rusiya da düşüb. Daha dəqiq desək, paytaxt Moskva bu siyahıda 8-ci yeri tutub. Analitiklər hesab edir ki, orta hesabla 2.5 saat davam edən tıxac Moskvanı heç vaxt bu sahədə "lider" edə bilməzdi.

ABŞ-ın paytaxtı Vaşinqton da çox təvazökar bir yerdə - 14-cü sırada qərar tutub. Bu şəhərin küçələrindəki tıxaclarda ildə 560 milyon litr yanacaq itirilir. Avropa da bu məsələdə heç bir ölkədən geri qalmır. Varşava, Paris və Brüssel bu mənada "uğurlu" üçlük hesab olunur. Məsələn, Paris əhli ildə 70 saatlarını tıxaclarda keçirir. Tələsmədən, "Top 15" siyahısını gözdən keçirək, detallara yenidən qayıdarıq:

**1) San Paulo (Braziliya)**
**2) Pekin (Çin)**
**3) Brüssel (Belçika)**
**4) Paris(Fransa)**
**5) Varşava(Polşa)**
**6) Mexiko (Meksika)**
**7) Los Anceles(ABŞ)**
**8) Moskva(Rusiya)**
**9) London (Böyük Britaniya)**
**10) Nyu Deli (Hindistan)**
**11) Nyu York (ABŞ)**
**12) Yohannesburq (Cənubi Afrika)**
**13) Banqkok (Tayland)**
**14) Vaşinqton(ABŞ)**
**15) Vroslav (Polşa)**





### Bu şəhərdə tıxacın uzunluğu 100 kilometrə çatır

Yaxşı, bəs niyə siyahıda birinci yeri San Paulo tutur? 2008-ci ildə bu meqapolisdə uzunluğu 265 kilometrə çatan tıxac qeydə alınmışdı. Ötən 4 ildə isə San Pauloda vəziyyət yaxşılaşmaq əvəzinə daha da pisləşib.

Mütəxəssislər qeyd edir ki, siyahıda ikinci yeri tutan Pekin şəhəri dünyanı tıxac görüntüsü ilə şoka salır. Belə ki, layihə mütəxəssisləri şəhərdəki avtomobil bumunun sürətinə çata bilmədikləri üçün Çinin paytaxtında hərəkət etmək maksimum çətinləşib. Şəhərdə altı dairəvi yol olsa da, burada tıxacların uzunluğu 100 kilometrə çatır.

London isə öz əhalisinə ildə 54 saat tıxacda qalmağı "təklif edir". Amma bir məqamı da qeyd edək ki, beşlikdə olan şəhərlərdə sürücülər tıxac zamanı az da olsa, irəliləyə bilir. Belə ki,parisli ildə 70 saatını tıxacda keçirirsə, bu zaman həm də hərəkət edir. Amma ildə 40 saatını tıxacda keçirən moskvalı hərəkət etmədən maşında yatır.Bu mənada dünya rekordu moskvalılardadır desək, yanılmarıq.

Tarixdəki ən uzun maşın tıxacı 2010-cu ilin 14 avqustunda Pekində yaşanıb. Həmin vaxt tıxac düz 9 gün davam edib. İlk 3 gündə tıxacın uzunluğu 100 kilometr olsa da, növbəti 6 gündə onun uzunluğu 260 kilometrə qədər çatıb. 10 minə yaxın sürücü bu müddəti kart və şahmatın köməyi ilə yola veriblər. Sürücülərin bəzi problemlərini isə yerli satıcılar həll etməyə çalışıblar. Onlar maşınlar arasında gəzərək sürücülərə su, lapşa, salfetka təklif ediblər. Amma onun qiyməti bazar qiymətlərindən iki dəfə baha olub. Həmin günlərdə Pekin şəhər rəhbərliyi hətta tıxaclar olan əraziyə səyyar ayaqyolu da quraşdırıb. Çünki sürücülərin təbii ehtiyaclarını ödəməsi mütləq şərt sayılırdı.

### Tıxacdan çıxış yolu kimi vertolyot alanlar

Çünki oldun dəyirmançı, çağır gəlsin dən Koroğlu deyiblər. Tıxaclı şəhərdə yaşayış faktı ilə barışan sakinlər artıq problemdən praktik çıxış yolları tapıblar. "Tıxaclı şəhər"lərdə sürücülərin maşını marketi xatırladır - orda hər şey olmalıdır

San Paulo, Pekinə ilk dəfə gedən qonaqlar hər zaman sürücülərin öz maşınlarında bu qədər çox əşya saxlamasına təəccüblənir. Gününün ən azı 4 saatını tıxacda keçirən bu insanlar maşınlarına üzqırxan maşın, kompüter oyunları, şahmat taxtası, peçenyelər, su butulkaları, yumşaq balışlar.... qoyurlar. Çünki maşın onlar üçün ikinci ev funksiyasını daşıyır. San Paulo şəhər rəhbərliyinə bu tıxaclar ildə 2,3 milyard dollara başa gəlir. Tıxaclar o qədər dözülməz hala çatıb ki, şəhərin varlı sakinləri sürətlə vertolyot almağa başlayıblar və hazırda ölçüsünə görə dünyanın ikinci vertolyot dayanacağı məhz bu şəhərdədir.

### Avropalı ildə tıxacda 1000 dollarını itirir, azərbaycanlı isə...

Amerikalı nəqliyyat mütəxəssisi Edmon Klark hesab edir ki, tıxacda qalan sürücü təkcə vaxtını yox, pulunu da itirir. Belə ki, Avropada hər sürücü tıxaca görə orta hesabla ildə 1000 dollarını itirir. Bundan başqa, tıxac həm də havanın daha çox çirklənməsi deməkdir. Tıxac vaxtı atmosfer adi vaxtlarda olduğundan 4.5 dəfə artıq zəhərli maddələrlə "zənginləşir".

Azərbaycanla bağlı hesablamalarda da vəziyyət o qədər yaxşı deyil. Məsələn, vaxtilə 100 km yol üçün 5 manatlıq benzin istifadə olunurdusa, indi bu pula 70-80 km yol gedilir. Ekspertlərin hesablamasına görə, Bakı yollarında hər gün 40-50 min maşın hərəkət edir və tıxaclarda qalan avtomobil gün ərzində kifayət qədər çox benzin işlədir. Türkiyədə isə hər gün tıxacda qalan maşın 2-4 litrdən artıq benzin işlətməli olur.

Kuryoz hadisələrin siyahısında tıxacda qaldığı üçün şəhər rəhbərliyini məhkəməyə verənlərin hekayəsi də az deyil. Belə ki, Çində xəstəxanaya çatmadan yolda uşağını dünyaya gətirən qadının həyat yoldaşı Nyu Yorkda işə gecikib, cərimələnən bank işçisi müvafiq şəhərlərin rəhbərlərini məhkəməyə veriblər. Onlarla belə nümunə verib.

Psixoloqlar isə iddia edir ki, tıxac insanın əsəblərinə əlavə yük gətirir. Bu, nevroz, ürək tutmaları ilə müşayiət olunur. Tıxacda qalan adamın əsəbləri zəifdirsə, bu hal onu isterik həddə də gətirib çıxara bilər. Belə ki, sonu bilinməyən bir gözləmə sürəcinin nəticəsində insan aqressivləşir, əsəbləri tarıma çəkilir və bu, ciddi əsəb xəstəliyinə gətirib çıxara bilər.

Maraqlıdır ki, bu günə qədər dünyada tıxac probleminin həlli üçün xeyli strateji çıxış yolları tapılıb. Amma təəssüf ki, onların çoxu uzun müddət üçün nəzərdə tutulur və problemin həllinə nail olunmur. Çünki yollardakı vəziyyət tez-tez kardinal şəkildə dəyişir və tapılan çözüm yolları da effektivliyini itirir. Ona görə də bəzi çıxış yolları problemi qısa müddətliyinə həll etməyə hesablanmış sayılır.

### Bakıda satılan yollar, hadisə yerinə gecikən sığorta agenti və fasiləsiz qazıntılar

Bakıda tıxacı yaradan ən böyük səbəb isə alternativ yol anlayışının olmamasıdır. Meqapolislərdə bunu aradan qaldırmaq üçün alternativ yol açıldığı halda, Bakıda mövcud olan yollar da işləkliyini itirir. Ekspertlər deyir ki, tıxac halında sürücülərin istifadə edə biləcəyi əksər məhəlli yollara giriş qapadılıb. Bundan başqa, iri yollarda səkilərin satılması problemi daha da artırır. Məsələn, 4 zolaqlı nəzərdə tutulan yollarda səkilərin kənarında ticarət mərkəzləri, brend mağazalar açıldığı üçün o səkilər də faktiki həmin obyektlərə satılmış sayılır.

Paytaxtda tıxac yaradan daha bir səbəb də yol qəzaları zamanı sürücülərin davranışıdır. Belə ki, hər qəzadan sonra sürücülər bəzən saatlarla yolun kənarda sığorta şirkəti nümayəndələrinin gəlişini gözləyir. Dünyanın inkişaf etmiş ölkələrində sığorta agentləri hadisə yerinə operativ çatmaq üçün motosikletlə hərəkət etdiyi halda, Azərbaycanda onların istifadə etdiyi nəqliyyat vasitəsi avtomobildir. Nəticədə qəza yerinə gəlib hadisəni araşdırmalı olan ekspert də başqa bir tıxacda qaldığı üçün problem fəlakət həddinə çatır.

Yolların daim qazıntılı olması, alternativ yolların olmaması da problemdən çıxış yolunu minimuma endirir.

❑ **Sevinc TELMANQIZI**




# Ağcabədidə qoca kişini vəhşicəsinə öldürdülər

**Ağcabədi rayonunda 80 yaşlı kişi qətlə yetirilib. Rayon prokurorluğundan ANS PRESS-ə verilən məlumata görə, rayon ərazisində Ənvər Məmmədovun yaşadığı evindən meyiti tapılıb.**

Araşdırmalar zamanı məlum olub ki, yaşlı kişi küt alətlə qətlə yetirilib.

Qeyd edək ki, Ənvər Məmmədov tək yaşayırmış. Onun kim tərəfindən və nə səbəbə öldürüldüyü isə məlum deyil. Faktla əlaqədar cinayət işi başlanılıb.

YENİ MÜSAVAT
Son səhifə
N 275 (5984) 8 noyabr 2014



## Çinli pul ala bilmədiyi valideynlərini məhkəməyə verdi

Çində yaşayan 29 yaşlı Kunq Senksun valideynlərini onlardan maliyyə yardımı ala bilmədiyi üçün məhkəməyə verib. Kunqun yaşı çox olsa da, ata-anasından maliyyə yardımı gözləyir. Buna görə də media 29 yaşlı bu adama "uşaq-kişi" adı verib. Kunqun dediyinə görə, o, məktəbi bitirdikdən sonra ağac işləməsi və bərbərlik üzrə kurs keçib. Bundan sonra Kunq qısamüddətli də olsa, bərbər işləyib. Lakin səhvən oğurluqda günahlandırılaraq döyülüb və işdən qovulub. Bundan sonra o, heç yerdə işləməyib. Beləliklə, Kunq tüfeyli həyat sürərək valideynlərinin evində yaşamağa başlayıb. O, bütün gününü yatmaq və telefonla oynamaqla keçirib. Onun bu davranışından bezən valideynləri övladlarından yaxa qurtarmaq istəyiblər. Valideynləri Kunqdan evi tərk etməyi tələb ediblər.

Kunqun atası deyir: "O, hər dəfə zəng edib bizdən pul istəyir. Düşünür ki, valideynləri onu maliyyə cəhətdən təmin etməlidir. Mənim heç işləmək üçün gücüm qalmayıb. O isə gəncdir, işləyə bilər. Nəyə görə o, bizə maliyyə yardımı etməsin?"

Kunq valideynlərini məhkəməyə vermək üçün vəkil tutub. O, incəsənət məktəbində portret model kimi işə düzəlib, lakin işindən narazıdır. Yeni işində Kinq 4-5 saat rəssamın qarşısında dayanmalıdır. O deyib: "İşim yorucudur və stabil deyil. Bilinmir ki, sabah nə olacaq. Mən özüm özümü saxlaya bilmirəm. Valideynlərimin məni təmin etmək üçün kifayət qədər gücü var, lakin kömək etmirlər. Buna görə də onları məhkəməyə vermək istəyirəm".

## Depressiyadan xilas edən dayanacaq

İsveçin cənubundakı Umeo şəhərində dayanacaqlar xüsusi rəngli panellərlə təchiz olunub. Bu isə orda avtobus gözləyən sərnişinlərin xoş əhvalı üçün nəzərdə tutulub. Çünki sözügedən işıq yerli sakinləri qış depressiyasından çıxarmağa hesablanıb. Bu işi həyata keçirən kampaniya rəhbərliyi isə bəyan edib ki, qışda hər kəs kədərlənir. Amma əlavə porsiya işıq onların əhvalına müsbət mənada təsir edir. Depressiyadan çıxmaq istəyən şəxs sadəcə olaraq həmin panelə bir neçə saniyə baxması kifayətdir. Kampaniya bu qərara şəhər sakinlərini depressiyadan çıxarmaq üçün gəlib. Qışda regionda az işıq olur, günün işıqlı vaxtı cəmi 4 saat davam edir. Çox adam isə günün işıqlı vaxtını görməyə imkan tapmır.



## Millati içan olduğuna göra irland müallimani işa götürmadilar

İrlandiya sakini Keti Mulrennanın Seulda müəllimə işləmək müraciətinə qəribə əsaslarla etiraz edilib. Ona bildirilib ki, mənsub olduğu xalqın alkoqolizmə meyli olduğu üçün müraciəti rədd edilir. 26 yaşlı gənc müəllimə bu iş elanını saytlardan birində tapıb və dərhal müraciət edib. Öz CV-sini məktəbə göndərən müəlliməyə bir ay sonra elektron məktub vasitəsilə rədd cavabı verilib. Məktubda açıq mətnlə yazılıb ki, işverən irland xalqından heç kimlə işləmək istəmir, çünki sonuncuların alkoqola meylliliyi daim sübut edilir. Halbuki rədd cavabı alan müəllimə daha öncə Barselonada, Oksfordda və Əbu Dabidə dərs deyib. Son olaraq isə Seulda başqa bir iş tapıb. Lenta.ru saytı xəbər verir ki, qadın öncə bu cavabdan bərk təəssüf hissi keçirib. Amma daha sonra qərar verib ki, kompaniyanın etirazı irlandların ünvanına yönəlmiş uğursuz bir zarafatdır. Müəllimə təhsil müəssisəsi rəhbərliyi ilə yazışmasını internetdə yayıb. Müəssisənin adı isə açıqlanmır.





## Ər-arvad eyni kurorta 170 dəfə gedib

İngiltərə qraflığı Surreydə bir cütlük Torbey kurortuna son 45 ildə ən azı 170 dəfə baş çəkib. Bu barədə lenta.ru saytı "The Daily Mirror"a istinadən xəbər yayıb. Məlum olub ki, ilk dəfə Alan və Cun Leyzenbi bu kurorta 1969-cu ildə, toy səyahəti məqsədilə baş çəkib. Ondan sonra cütlük hər yay öz uşaqları ilə bu kurorta istirahətə gediblər. Son 10 ildə ailə hər il ən azı 5 dəfə bu kurorta baş çəkib. 2014-cü ildə isə ər-arvad ilk dəfə istirahətə öz nəvələri ilə birgə yollanıb.

Alan Leyzenbinin sözlərinə görə, vaxtilə Torbeyə səfər təxminən 8 saat çəkirdi. Son zamanlar isə yolun keyfiyyətinin artması nəticəsində səfərin müddəti 4 saata qədər azalıb. Cütlük gələn il üçün indidən 4 səferi bron edib. Daha 3 səfər planlaşdırma mərhələsindədir. Torbey bölgəsi britaniyalılar arasındakı ən məşhur istirahət zonalarından sayılır.




**QOÇ** - İxtiyarınızda olan bu təqvimin ümumi görüntüsü daha çox gərginliyə yaxındır. Odur ki, əsəblərinizi cilovlamağa ehtiyac duyulur. Nahardan sonra isə qazanmaq ehtimalınız var.

**BUĞA** - Ağlabatmayan, riskli işlərdən uzaq olmaqla qarşıya qoyduğunuz planların əksəriyyətini reallaşdıra bilərsiniz. Saat 13-16 arası perspektivli təkliflər, təzə xəbərlər mümkündür.

**ƏKİZLƏR** - Səhərdən mənfi enerjili Ayın bürcünüzdə qərar tutması ümumi əhvalınızda süstlük yaradacaq. Bu səbəbdən də qeyri-ənənəvi addımlar atmaqdan çəkinin. Daha çox gözləmə mövqeyində durun.

**XƏRÇƏNG** - Ulduzlar göstərir ki, uğurlu və maraqlı bir gün yaşayacaqsınız. Sürprizlər də öz yerində. Göy qübbəsi saat 17-dən sonra təmiz havada gəzinməyi, qonaq getməyi məsləhət görür.

**ŞİR** - Səhər saatları müəyyən qədər gərginliklə başlasa da, bu heç də qazanacağınız uğurlara sipər çəkməyəcək. Odur ki, narahat olmayın və bəxtinizə inanın. Gecəni mütləq öz evinizdə keçirin.

**QIZ** - Bəri başdan əmin olun ki, gün ərzində heç bir qanqaraçılığı və ya uğursuzluqla rastlaşmayacaqsınız. Əksinə, ətrafınızda olanların əksəriyyəti sizə xoş ovqat bəxş edəcək.

**TƏRƏZİ** - İxtiyarınızda olan bu təqvimdə aktivliyinizi artırmağa ehtiyac var. Sevindirici bir yeniliklə rastlaşma ehtimalınız böyükdyr. Axşamsa yaxın ünvanlara qonaq getmək məsləhətdir.

**ƏQRƏB** - Böyük bir layihəni həyata keçirmək fikrindəsiniz. Amma nədən və necə başlamağı bilmirsiniz. Tərəddüd etməyin. Çünki indi "hakim bürc" sizsiniz və risk sizi müvəffəqiyyətə qovuşduracaq.

**OXATAN** - Bürcünüzdəki planetar mənzərə bütün gedişatlarda xeyrinizi tənzimləyəcək. Xüsusilə saat 12-dən başlayaraq sizin uğurlu məqamlarınız başlayacaq. Bütün vacib planlarınızı həyata keçirməyə çalışın.

**OĞLAQ** - Təxminən saat 15-ə qədər ümumi ovqatınız aşağı səviyyədə olacaq. Həmin ərəfədə neytral və təmkinli olun. Sonrakı müddətdə isə bir neçə sürprizlə rastlaşacaqsınız.

**SUTÖKƏN** - İxtiyarınızda olan bu təqvimdə səhhətinizlə bağlı problemlər, həmkarlarınızla mübahisələr, həmçinin iştahasızlıq daxili sabitliyinizi poza bilər. Buna baxmayaraq, tədbirli olun.

**BALIQLAR** - Ailə-sevgi münasibətlərində, eləcə də fəaliyyət zəminində bəzi qalmaqallar gözlənilir. Özünüzü ələ alın. Tələsik qərar çıxarmayın. Lazım gəlsə, təcrübəli adamlarla məsləhətləşin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Britaniyada birotaqlı ev qiymətinə qəsr



Böyük Britaniyada 19-cu ərsin əvvəlində tikilmiş qəsr satışa çıxarılıb. Onun qiyməti 286 min funt - 420 min dollardır. Tikili Vusterşir qraflığında yerləşir. İkimərtəbəli qəsrin birinci mərtəbəsində iki yataq otağı, ikinci mərtəbəsində isə mətbəx, qonaq otağı və eyvan yerləşir. Qəsrin damında açıq terras var və birbaşa çaya baxır. Tikilinin bütün otaqları müasir üslubda təmiz olunub. İngiltərə mətbuatı yazır ki, qəsrin həcmi kiçik olduğu üçün qiyməti də aşağıdır. Halbuki bu qiymətə Londonda ancaq birotaqlı mənzil almaq mümkündür.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.600

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.